ISSN: 2717-6584 2024-2

*Mehmet Emin Resulzade'nin doğumunun 140'ıncı yıldönümüne ithafen...*
*1884-2024*

# Mehmet Emin Resulzade

# BENGİ

## Dünya Yörük-Türkmen Araştırmaları Dergisi

*Yılda iki kez (Şubat- Eylül) yayımlanan uluslararası hakemli, multidisipliner bir akademik dergidir.*

Cilt/Volume - Sayı/Issue: 2024 - 2

# BENGİ
## Dünya Yörük-Türkmen Araştırmaları Dergisi

*BENGİ World Journal of Yörük-Türkmen Studies*

**Amaç ve Kapsam**

*BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi (BENGİ World Journal of Yörük-Türkmen Studies)* yılda iki kez (Şubat-Eylül) yayımlanan uluslararası hakemli, multidisipliner bir akademik dergidir. Dergi çokdisiplinli bir akademik dergi niteliğine sahip olup, Sosyal - Kültürel Çalışmalar ve Yörük-Türkmen olgusuna dair her alanda, nitelikli araştırma ve derleme makalelerini bilim dünyası ile buluşturmayı hedefler.

**Aims And Scope**

*BENGİ World Journal of Yörük-Türkmen Studies* is an international multidisciplinary peer-reviewed journal published twice a year (February-September). The journal is a multi-disciplinary academic journal and aims to publish quality research and compilation articles in every area related to the Yörük-Türkmen phenomenon.

**Editör**

Davud KAPUCU

**Kapak & Dizgi Tasarım**

Emre ARSLAN

**Yazım ve Dil Editörleri**

Türkçe: Gülten ARSLAN

İngilizce: Atilla FİDAN

Rusça: Güler QAFKAZLI
Cavid QASIMOV
Pasha GULUZADE

Azerbaycan Türkçesi: Güler QAFKAZLI
Pasha GULUZADE

**İstatistik Editörü**

Zarife TAŞTAN

**Uluslararası Editörler ve Danışma Kurulu - International Editorial and Advisory Board**

| | | |
|---|---|---|
| Prof.Dr. Selma YEL | - | Gazi Üniversitesi |
| Prof.Dr. Kenan OLGUN | - | Ankara Yıldırım Beyazıt Üniversitesi |
| Prof.Dr. Hacı Mustafa ERAVCI | - | Ankara Yıldırım Beyazıt Üniversitesi |
| Prof.Dr. Turan AKKOYUN | - | Aydın Adnan Menderes Üniversitesi |
| Prof.Dr. Nur ÇETİN | - | Kırşehir Ahi Evran Üniversitesi |
| Doç.Dr. Mustafa Karazeybek | - | Afyon Kocatepe Üniversitesi |
| Doç.Dr. Gökhan KALAĞAN | - | Burdur Mehmet Akif Ersoy Üniversitesi |
| Doç.Dr. Fatih USLU | - | Akdeniz Üniversitesi |
| Dr.Öğr. Üyesi Pınar Zarif Tapkan | - | Aydın Adnan Menderes Üniversitesi |
| Prof.Dr. Sevinç ALİYEVA | - | Azerbaycan Devlet Pedagoji Üniversitesi |
| Prof.Dr. Galib SAYILOV | - | Azerbaycan Milli Bilimler Akademisi |
| Prof.Dr. Seyfeddin RZASOY | - | Azerbaycan Milli Bilimler Akademisi |
| Prof.Dr. Cahangir Memmedli | - | Bakü Devlet Üniversitesi |
| Doç.Dr. Zümrüd MANSİMOVA | - | Azerbaycan Milli Bilimler Akademisi |
| Doç.Dr. Aytekin ZEYNALOVA | - | Bakü Devlet Üniversitesi |
| Doç.Dr. Naile HÜSEYNOVA | - | Azerbaycan Devlet Pedogoji Üniversitesi |
| Prof.Dr. Nübar HAKİMOVA | - | Azerbaycan Milli Bilimler Akademisi |
| Doç.Dr. Khankişi MAMMADOV | - | Azerbaycan Devlet Pedogoji Üniversitesi |
| Doç.Dr. Vefa İBRAHİM | - | Azerbaycan Milli Bilimler Akademisi |
| Doç.Dr. Aytekin ZEYNALOVA | - | Bakü Devlet Üniversitesi |
| Prof.Dr. Turitsyn Igor VİKTOROVİCH | - | Tarih, Ekonomi ve Hukuk Araştırma Enstitüsü |
| Prof.Dr. Davydov Stanislav GENNADİEVİCH | - | Tarih, Ekonomi ve Hukuk Araştırma Enstitüsü |
| Dr. Turytsyn Dmitry ANATOLYEVİCH | - | Tarih, Ekonomi ve Hukuk Araştırma Enstitüsü |
| Prof.Dr. Guo Xiaoli | - | Hebei Pedagoji Üniversitesi |
| Prof.Dr. Cheng Hong | - | Hebei Pedagoji Üniversitesi |
| Doç.Dr. Aynur HOCAHMETOV | - | Başkurdistan Devlet Üniversitesi |
| Prof.Dr. Bekezhan A. AKHAN | - | Kazakistan Bayşev Üniversitesi |
| Prof.Dr. Abay DUYSINBAYEV | - | Kazakistan Farabi Üniversitesi |
| Doç.Dr. Muhtar MİROV | - | Kazakistan Devlet Üniversitesi |
| Doç.Dr. Obidjon ŞOFİYEV | - | Özbekistan Termez Devlet Üniversitesi |
| Doç.Dr. Gülnaz SATTAROVA | - | Özbekistan Bilimler Akademisi |
| Prof.Dr. Gulnoz KHALIYEVA | - | Özbekistan Dünya Dilleri Üniversitesi |
| Doç.Dr. Bahar Bahriddinovna TÖRAYEVA | - | Özbekistan Dünya Dilleri Üniversitesi |
| Doç.Dr. Radik GALİULLİN | - | Tataristan Nabrejnı Çelnı Üniversitesi |
| Prof.Dr. Kakajan JANBEKOV | - | Türkmenistan Bilimler Akademisi |

## TARANAN İNDEKSLER VE VERİ TABANLARI

INDEXES & DATABASES

**Bu dergide yayınlanan yazılardaki fikirler yazarlarına aittir.**

The responsibility of all the ideas in the articles published in this journal belongs to their respective authors.

**BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi açık erişimli ve tamamen ücretsizdir.**

BENGİ World Journal of Yörük-Türkmen Studies is open access and completely free

Cilt/Volume - Sayı/Issue: 2024 - 2

# İçindekiler/Contents

Cover-Contents / Kapak-İçindekiler **i-v**

**Makaleler – Articles**

**Pasha Guluzade**
**Mehmet Emin Rasulzade'nin Dünya Görüşünde Dinin Önemi**
*The Importance Of Religion In The World View Of M.A. Rasulzade*
**ss. 190-204**

**Fərhad Cabbarov**
**Mehmed Emin Resulzade'nin Yayınlarında 1905-1906 Ermeni-Azerbaycan Çatışması**
*The Topic Of The Armenıan-Azerbaıjanı Conflict Of 1905-1906 In Mamed Emin Rasulzade's Journalism*
**ss. 205-219**

**Sevindzh Alieva**
**Mehmet Emin Rasulzade Düşününde Kafkasya Birliği ve Ermeniler**
*Caucasian Union and Armenians In the Thought of M.E. Rasulzade*
**ss. 220-236**

**Kamran İsmayilov**
**Tarih ve Kimlik Meselesi Bağlamında Mehmet Emin Resulzade ve Milli Devlet Kuruculuğu**
*Muhammed Emin Rasuolzade And National State Building (In The Context Of The Issue Of "History And Individual")*
**ss. 237-262**

**Elvin Talişinski - Nadirova Səkinə Eldarqızı**
**Mehmet Emin Rəsulzadənin Siyasi Görüşlərində Milli İdentiklik Məsələsinə Dair**
*On the Issue of National Identity In the Political Views of M.A. Rasulzade*
**ss. 263-275**

**Ilgar Niftaliyev**
**М.Э.Расулзаде о национальном уклоне в Азербайджане**
*Azerbaycan'daki Ulusal Önyargı Hakkında M.E. Resulzade*
**ss. 276-288**

**Aytən İmanova**
**XX. Yüzyılın Başlarında Ulusal Siyasi Düşünce Tarihinde Mehmet Emin Resulzade**
*M.A. Rasulzade In The History Of National Political Thought At The Beginning Of The 20th Century*
**ss. 289-308**

**Güler Qafqazlı**
**Mehmet Emin Resulzade'nin "Yeni Kafkasya" Yazılarına Dair**
*About the "New Caucasus" Writings of Mehmet Emin Rasulzade*
**ss. 309-317**

**Firdovsiyye Ahmedova**
**Mehmet Emin Resulzade - "Millî Diriliş" İdeolojisinden Milli Cumhuriyet'e Doğru**
*M.A. Rasulzadeh - From the ideology of "National Vitality" to the National Republic*
**ss. 318-337**

**Igor Turitsyn**
**Политик в эпоху мировых войн : на примере Мамед Эмина Расулзаде**
*Dünya Savaşları Döneminde Bir Politikacı: Mehmet Emin Resulzade Örneği*
**ss. 338-352**

**Sebahattin Şimşir**
**Mart 1918 Hadiseleri ve Resulzade**
*Events Of March 1918 And Resulzade*
**ss. 353-362**

**Natig Mammadzada**
**Несколько штрихов к политическому портрету Мамеда Эмина Расулзаде**
*Memmed Emin Resulzade'nin Siyasi Portresine Birkaç Dokunuş*
**ss. 363-379**

**Mehman Ağayev**
**Osmanlı Devleti ile Kafkasya Devletleri Arasında Yapılması Düşünülen İstanbul Konferansına (Haziran-Ekim 1918) Gönderilmiş Azerbaycan Murahhas Heyetinin Faaliyeti Hakkında Bazı Değerlendirmeler**
*Some Evaluations On The Activities Of The Azerbaijani Delegation Sent To The Istanbul Conference (June-October 1918) Between The Ottoman Empire And The Caucasus States*
**ss. 380-396**

**Yazım Kuralları**
*Writing rules*
**ss. 397-399**

*Araştırma Makalesi/Research Article*

# BENGİ

**Dünya Yörük-Türkmen Araştırmaları Dergisi**
*BENGİ World Journal of Yörük-Türkmen Studies*

*https://dergipark.org.tr/tr/pub/bengi*

**ISSN: 2717-6584**

## Mehmet Emin Resulzade'nin Dünya Görüşünde Dinin Önemi

*The Importance Of Religion In The World View Of M.A. Rasulzade*

**doi**: 10.58646/bengi.61713

**Geliş/Received:** 30 Mart 2024 **Kabul/Accepted:** 01 Mayıs 2024

**Pasha Guluzade***

**Özet**

Din, Türk toplumunu etkileyen faktörlerden biri olarak her zaman karşımıza çıkmaktadır. Türk toplumunun neredeyse her alanında kendini gösteren dini düşünce halk tarafından takdirle karşılanmıştır. Böyle bir durumda Türk düşünürünün din ile yüzleşmesi ya da din hakkında farklı bir görüş belirtmesi her zaman zor olmuştur. Sonuçta bu gibi durumlarda düşünürler bir anlamda halkla yüzleşme tehlikesiyle karşı karşıya kalabilmektedirler. Bir nebze bu tür sorunlardan kaçınmaya çalışan düşünürler, modernleşme sürecinde eski sistemi eleştirirken dini eleştirinin dışında tutmaya çalışmışlardır. Modernleşmenin halk tarafından iyi anlaşılması ve özümsenmesi için düşünürler, modern hayatın her aşamasına dini de katmak zorunda kalmışlardır. Türk düşünürü modernleşme sürecinde yenilik girişimlerini din ve ahlak üzerinden temellendirme yolunu seçmiştir. Bu nedenle düşünürler dine dayalı bir ahlaktan bahsetmeye özel önem vermişlerdir. Söz konusu süreçte dinin önemi ile ilgili konulara değinen düşünürlerden biri de Mehmet Emin Resulzade'dir. Düşünür, eserlerinde dinin Türk toplumundaki yerini yorumlamaya çalışmış ve mevcut düşüncede değişimlerin gerekliliğini ortaya koymuştur. Bu çalışmanın temel amacı Mehmet Emin Resulzade'nin dünya görüşünde dinin önemine dair görüşlerini tarihsel ve felsefi açıdan temellendirmeye çalışmaktır.

**Anahtar Kelimeler**: Din, Değişim, Düşünür, Modernleşme, Türk Toplumu.

* **Sorumlu Yazar/Corresponding author**: Dr., Azerbaycan Devlet Pedagoji Üniversitesi, e-posta: prquluzade@gmail.com. Orcid: 0000-0002-0456-0799.

**Atıf/Citation:** Guluzade, P. (2024). Mehmet Emin Resulzade'nin Dünya Görüşünde Dinin Önemi. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi, 2024 (2), 190-204.

**Xülasə**

Din türk cəmiyyətində hər vaxt öz təsirini göstərən faktorlardan biri olaraq qarşımıza çıxmaqdadır. Türk cəmiyyətinin demək olar ki, bütün sahəsində özünü büruzə verən dini düşüncə xalq tərəfindən də təqdir görmüşdür. Belə bir vəziyyətdə dinlə üzləşmək və ya ona dair fərqli fikir bildirmək türk mütəfəkkiri üçün hər zaman çətinlik yaratmışdır. Nəticədə mütəfəkkirlər bir mənada xalqı qarşı-qarşıya qalmaq təhlükəsi ilə üzləşə bilərdilər. Bir mənada bu kimi problemlərdən qaçmağa çalışan mütəfəkkirlər müasirləşmə prosesində köhnə sistemi tənqid edərkən, dini tənqid xaricində tutmağa çalışırdılar. Mütəfəkkirlər, müasirləşmənin xalq tərəfindən yaxşı bir şəkildə başa düşülməsi və mənimsənməsi üçün dini, həyatın hər hansı bir mərhələsinə əlavə etmək məcburiyyətində qalmışdır. Müasirləşmə prosesində türk mütəfəkkiri din və əxlaqdan hərəkətlə yenilik cəhdlərini əsaslandırmaq yolunu seçmişdir. Buna görə mütəfəkkirlər daha çox din əsaslı bir əxlaqdan bəhs etməyə xüsusi diqqət yetirmişlər. Sözü gedən prosesdə dinin əhəmiyyəti ilə bağlı məsələlərə toxunan mütəfəkkirlərdən biri də Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Mütəfəkkir öz əsərlərində dinin türk cəmiyyətindəki yerinə dair şərhlər verməyə çalışaraq bir növü mövcud düşüncədə yeniliklərə ehtiyac olduğunu göstərmişdir. Bu tədqiqatda əsas məqsəd, Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşündə dinə dair irəli sürdüyü fikirlərin tarixi və fəlsəfi aspektdən əsaslandırılmasına çalışmaqdır.

**Açar sözlər**: Din, Yenilik, Mütəfəkkir, Müasirləşmə, Türk Cəmiyyəti.

**Abstract**

Religion has always been one of the important factors in Turkish society. It has always been difficult for Turkish intellectuals to face the idea of religion, which can interfere with almost every aspect of life. In such a situation, it has always been difficult for the Turkish thinker to face religion or express a different opinion about it. As a result, the thinkers could face the danger of confronting the people in a sense. In a sense, thinkers trying to avoid such problems tried to keep religion out of criticism while criticizing the old system in the process of modernization. In the modernization process, Turkish intellectuals tried to legitimize the transformation through religion and morality. Morality, which is based on religion and accepted as an indissoluble part of religion, shows its effect at every stage of society. For this reason, intellectuals have given special importance to talking about a religion-based morality while evaluating it. Mahammas Amin Rasulzade was one of the intellectuals who referred to the subject of religion and morality in that period. In his works, the thinker tried to interpret the importance of religion in Turkish society and showed the need for innovations in the current thinking. The main goal of this study is to try to justify the views of Muhammad Amin Rasulzadeh on religion from a historical and philosophical aspect.

**Keywords**: religion, innovation, intellectual, modernization, Turkish society.

## Giriş

Müasirləşmə prosesində türk mütəfəkkirləri, Qərbdən odlu silah kimi bir çox yeniliklərin İslamın yayılmasına xidmət etdiyi üçün alınmasını müsbət qarşılayırdılar (Lewis, 2011:59). Qərbdən idxal prosesində dini dəyərlərə zərər verməməyə çalışırdılar. Nəticədə din, türk cəmiyyəti üçün əsas faktorlardan biri olaraq qəbul olunurdu. Müasirləşmək məqsədilə Qərbi model olaraq görən türk ziyalısı, dinin təsirini heç bir zaman görməzdən gəlməməyə çalışmışdır. İslahatlar zamanı dini mümkün qədər prosesdən kənarda tutmağa səy göstərirdilər. Müsəlmanlara görə İslam aləminin geri qalmasındakı səbəblər dinin özü ilə əlaqəli deyildi. Din özlüyündə mükəmməl idi amma, müsəlmanlar onun hökmlərinə uyğun hərəkət etmir və cəhaləti mənimsədikləri üçün geriləmək prosesi ilə qarşı-qarşıya qalmışdılar. Qısaca mövcud düşüncəyə görə müsəlmanlar İslamın əsas prinsiplərinə meyl etmək yerinə onlardan uzaqlaşdığı dərəcədə Qərbdən geri qalmışdı. Dinin, geriləmə prosesinə heç bir təsiri yox idi və buna görə də sözü gedən prosesə təsir edən faktorlardan kənarda tutulmalıydı.

Dövrün mütəfəkkirlərinə görə din özündə əxlaqiliyi də ehtiva etməkdədir. Əxlaq, insanları digər canlılardan ayıran ən əhəmiyyətli xüsusiyyətlərdən biri olaraq qəbul edilməkdədir. Bəşəriyyət əxlaq sayəsində irəliləyir. Əxlaqın olmadığı bir cəmiyyətdə insanın vəzifələrinin mövcudluğu mümkünsüzdür. Vəzifəsi olmayan insan isə heyvan kimi yaşamağa məhkumdur. Cəmiyyətlər və hökumətlər hüquqa, hüquq da əxlaqa əsaslanaraq formalaşmaqda və müvcudluqlarını davam etdirməkdədirlər. Dövrün mütəfəkkirlərindən Filibeli Ahmed Hilmi əxlaqı, səadətin bir qoruyucusu olaraq görməkdədir. Ona görə əxlaqın əhəmiyyəti cəmiyyət və fərdlərə yüklədiyi vəzifələrdən irəli gəlir. Cəmiyyətdə hər fərdin üzərinə düşən bir vəzifə var. Onun yerinə yetirilməsi zəruridir və bu zərurət əxlaq sayəsində təmin edilməkdədir. Bu fikirlər də din vasitəsilə əldə edilir və xalqa ötürülür (Şehbenderzade, 2009:49). Fərd bu dünyada etdiklərinin cavabını axirətdə verəcəyinə inanaraq, özünü yaşadığı cəmiyyətin bir parçası olaraq görməyə məcbur olur. Beləcə cəmiyyətdə müəyyən nizamın formalaşması reallaşmaqdadır. Din də məhz bu proseslərin əsas sütunlarından birini təşkil edir.

## 1. Türk Mütəfəkkirlərinə Görə Müasirləşmə Prosesində Din

Din ilə mədəniyyət arasında sıx əlaqə var. Mədəniyyət maddi, din isə əxlaqi baxımdan inkişafı ön planda tutur. Qərbin texnikasının və müsbət elmlərinin idxal edilməsində istəkli olan türk mütəfəkkirlər, xüsusilə tərbiyə, ailə, əxlaq kimi sahələrdə mövcud dəyər sistemlərini qorumağa üstünlük vermişlər. Buna görə əxlaqi inkişafın ən yüksək dərəcəyə çatdığı din olaraq qəbul edilən İslamın, tərəqqiyə mane olmadığı, əksinə onu dəstəklədiyi açıqlanmışdır. İslam

aləminə qarşı düşmənlərin çoxluğu müsəlmanların, hər vaxt güclü olmağını zəruri etməkdə və onları buna görə hazırlamalıdır. Güc iqtisadi meyarlarla olduğu qədər, elm, sənət, ticarət və əkinçilik kimi sahələrin tərəqqisi ilə də əlaqəlidir. Musa Kazım Efendiyə görə İslam, bu sahələrin tərəqqisini fərz buyurmuşdur. Məhz dinin yayıldığı ilk dövrlərdə İslamın prinsiplərinə uyğun yaşayan cəmiyyətdə tənbəllik olmamışdır. Müsəlmanlar mütəmadi olaraq tərəqqi etmiş və insanlığı yaşatmaq üçün çalışmışlar (Musa Kazım, 2011:128). Bu da öz növbəsində tərəqqini gətirmişdir. Dinin vacibliyinə toxunan mütəfəkkir, insanın ruhunun da ehtiyaclarının olduğunu və bu ehtiyacları din vasitəsilə qarşılandığını ifadə etmişdir.

Mədəniyyəti bir həyat tərzi olaraq şərh edən Ağaoğlu, onu həyatın bütününü, maddi və mənəvi hadisələrin hamısını əhatə etdiyini bildirir (Ağaoğlu, 2013: 19). Ona görə mədəniyyət geyimdən düşüncə tərzinə qədər bütün sahələri əhatə edir. Cəmiyyətdə mövcud vəziyyətdən xilas olmaq üçün iki yanaşma formalaşmışdır. Onlardan biri Qərbə doğru yönəlməyin vacibliyini vurğulayarkən, digəri ənənəviliyə meyletməyi əhəmiyyətli hesab edir. Əhməd Ağaoğlu da Avropaya yönəlmə tərəfdarı olduğunu bildirir. Ona görə əgər Qərbdən üz döndərilsə yox olma təhlükəsi yaşana bilər. Qərb mədəniyyətinin bütünlüklə idxalının daha doğru seçim olduğunu düşünən mütəfəkkir, bir mədəniyyəti mənimsəməyin şərtinin onu tam olaraq qəbul etməkdən keçdiyini ifadə edir. Yarımçıq alınan mədəniyyət cəmiyyətə heç bir fayda verə bilməz. Əgər Qərbdə elm və fən inkişaf edirsə bu onların yalnız elm sahəsindəki müvəffəqiyyətiylə deyil, bütün təşkilatlarıyla əlaqəlidir (Ağaoğlu, 2013: 23-24).

Dinsizlikdə səadət yoxdur və onun qazanılması cəmiyyətin dinə yaxın olması əhəmiyyətlidir. Türklər üçün səadətin yolu isə son din olan İslamdan keçir. Səadət nisbidir və onu maddi məsələlərlə əsaslandırmaq və ya əlaqələndirmək doğru deyil. Əxlaqın əhəmiyyətinə toxunan Filibeli Ahmed Hilmi, vicdan və mənəviyyatın cəmiyyətdəki roluna da diqqət çəkməkdədir. Çünki dinsiz olan insan etdiklərinə görə vicdan baxımından məsuliyyət daşımır. Belə olan halda insan daha çox öz mənfəətini düşünməyə meyledir. Bu ümumi mənfəətə zərər verə biləcəyi üçün bir mənada anarxiyanın meydana gəlməyinə imkân verməkdədir. Əgər dinsiz biri, insanı "inkişaf etmiş bir heyvan" olaraq görürsə, o zaman onun övladından, cəmiyyətdən və ya öz cinsindən yaxşılıq gözləməyə haqqı yoxdur (Şehbenderzade, 2009: 58). İnsanın cəmiyyət qarşısındakı vəzifələrinin varlığı məhz din vasitəsilə insana aşılanır.

Musa Kazım Efendiyə görə İslam dininin bütün ictimai qaydaları, insan təbiətinə və ağlın mühakimələrinə uyğundur. Lakin müəyyən müddət sonra ağıl və elmlə əlaqədar İslam qaydaları bir dərəcəyə qədər məzhəblərin ehtiyacları və alimlərin bir qisminin mənimsədiyi səhv anlayış səbəbilə zədələnməyə başlamışdır. Din tərəqqipərvər olduğu halda siyasi

rəhbərliyin səhv idarəsinə görə bu geriləmə yaşanmaqdadır. İslam bir millətin inkişafı və mədəniləşməsi üçün lazımlı olan üsul və əsasları əhatə etməkdədir (Musa Kazım, 2011: 123). Əhməd Ağaoğlu də Quran və şəriətin heç bir zaman yeniliyə mane olmadığını vurğulamaqdadır. Ona görə yeniliyə mane olan təbliğatçı şeyx və üləmalardır. Onlar şərhləriylə müsəlmanın müasir dövrə uyğun gələ bilməyəcəyini ifadə etmişlər (Ağaoğlu, 1985: 60). Qısaca gerçək bir mədəniyyətin meydana gəlməsi üçün dinə ehtiyac var və buna ən uyğun olan heç şübhəsiz İslamdır. Məsələn, İslam heç bir zaman iqtisadi olaraq zəngin olmağa qarşı çıxmamışdır. Burada əhəmiyyətli olan fərdin niyyətidir. Əgər o xeyirli işlər etmək üçün sərvət qazanırsa, o zaman Allah yolunda çalışır deməkdir (Ersoy, 2011: 361). Mütəfəkkirlər bir mənada iqtisadi inkişafın qarşısını da dinin almadığını, bunun əvəzinə bir qism şəxslərin öz mənafeləri üçün bu cür izahlar verdiyini söyləməyə çalışmışdır.

Qərbdəki ziyalılar, geri qalmışlıq səbəbi olaraq dini gördükləri üçün, türk ziyalılarının bir qismi də İslam cəmiyyətlərinin məhz din səbəbilə bu vəziyyətə gəldikləri fikrini mənimsəmişlər. Said Halim Paşa bu düşüncənin doğru olmadığını bildirməkdədir. İslam cəmiyyətinin geri qalmışlığı, baş vermiş hadisələrə dair məlumatın qeyri-kafiliyi ilə əlaqədardır. Bu gerilik əgər dinlə əlaqəlidirsə, o zaman İslam cəmiyyətində irəliləyişlərin səbəbləri nə idi? Çünki irəliləyişlərin yaşandığı dövrdə də din eyni idi. Mütəfəkkir, Avropa elm adamlarının görüşlərinin müsəlman ziyalılar üzərində təsirinin olduğunu ifadə etməkdədir. Türk ziyalısı, Qərbdəki düşüncələri olduğu kimi alıb şərh etmək və tətbiq etməyə daha çox üstünlük verirdi. (Said Halim,2003: 70-72). Bu onlara hadisələri öz istədikləri kimi şərh etmə imkânı vermişdir. Said Halim İslamda şəriət fanatikliyinin olmadığını söyləməkdədir. Şəriətdə fanatizm olduğu fikri, müsəlmanlıq deyil, xristianlığın özündə olan və bir çox coğrafiyalara yayılan inancdır (Berkes, 2013: 413). İslam aləminin geriləməsinin səbəblərini dində deyil, daxildə və xaricdə meydana gələn hərblər, qarışıqlıqlar, hökumətin zülm və istibdadı, İslam təriqətlərinin yaydığı xurafatlarda axtarmaq lazımdır (Seyyid Bey, 2011: 268). Çünki geriləmə dövrünə qədər İslam aləmi çox böyük əsərlər vermiş, ən yüksək mədəniyyət nümunəsi ortaya qoymuşdur. Bu da problemin dinin özündə deyil, onun hökmlərini fərqli şərh edənlərdə olduğunu göstərməkdədir. Qurandakı dünya işləriylə əlaqədar enən ayələr maddi səbəblərə görə reallaşmışdır. Biz də onların mənalarını çox yaxşı bilmədiyimiz üçün dini, həyatın bütün mərhələsinə daxil etmişik. Geri qalmağımızı dinlə əlaqələndirmək doğru deyil. Əgər bu vəziyyətdə olmağımızı dinlə əlaqələndirsək, o zaman insanın həyatının passivliyini qəbul etmiş olarıq. Halbuki din inkişaf qanunlarına uyğun bir şəkildə dəyişməkdədir (Ağaoğlu, 1985: 20).

Din insanı mənən təmin etməklə birlikdə, ona qalıcı dəyərlər verməkdədir. Yəni din insanı dəyər baxımından mədəniyyətdən daha yaxşı təmin etmək potensialına malikdir. Din mahiyyət etibarilə əxlaq, estetika və məntiqdən üstündür. Din insanı kamillik mərtəbəsinə yüksəltmə potensialı daşıyır. Din ictimai dəyər sistemlərinin faktorları olan iqtisadiyyat, elm, gözəllik və əxlaq dəyərlərini özündə əks etdirə bilir. İslam ictimai bir din olduğu üçün yalnız mənəvi deyil, dünyəvi sahəni özündə ehtiva edir. Yəni din yalnız fərdin axirətini deyil, eyni zamanda bu dünyada yaxşı bir şəkildə yaşaması və rifaha qovuşmasını da əhatə edə biləcək potensiala sahibdir. İslam bu xüsusiyyətinə görə dövlətdən ayrıla bilməz (Said Halim, 2004: 397). Cəmiyyətin həyat və idarəsində iştirak edir, onu nizamlayır. Said Halimə görə dini dövlətdən ayırmağa tərəfdar olanlar, bunun nəticəsinin İslamı ortadan qaldırmaq olduğunu düşünməməkdədirlər. İslahatlarla birlikdə dini əmrlər, müasir dövrün şərtlərinə görə yenidən şərh olunmalıdır.

Qərbdə 16 və 17-ci əsrlərdə dinə qarşı mübarizə ilə vicdan azadlığının əsası təmin edilmiş, 18-ci əsrdə isə bu mübarizə siyasi müstəviyə keçmiş və azadlıq qanunu mənimsənmişdir (Ağaoğlu, 1942: 41). Əvvəllər qərbdə din demək olar ki, həyatın bütün mərhələsinə təsir edirdi. Qərblilər, maddi və mənəvi həyatın hər sahəsinə müdaxilə edən dini öz çərçivəsində saxlamağı bacardılar. Eyni şey İslam üçün də keçərlidir. Quranda daha çox ibadətlə əlaqədar ayələr varkən, yalnız müəyyən zaman və müəyyən hadisələrə görə enən ayələrin hələ də öz təsirini qoruması doğru deyil. Ağaoğluna görə əgər Hz. Məhəmməd hicrətdən əvvəl dünyasını dəyişmiş olsaydı, Quran yalnız ibadətlə bağlı ayələrdən ibarət olacaqdı (Ağaoğlu, 2013: 29-30). İslam aləmindəki "ruhanilər" xristianlıqda edilənləri təkrarlamağa meyl etdilər. Xristianlıqda bu problem İncilin hər kəs tərəfindən oxunması və başa düşülməsiylə həllə qovuşdu. Yəni müqəddəs kitab fərqli dillərə tərcümə edildi. Nəticədə din artıq mənəvi həyatla məhdud bir vəziyyətə gətirildi (Ağaoğlu, 2013: 33). Xristianlıqla müqayisədə İslam müasir ehtiyacları qarşılamağa, tərəqqiyə bağlı olaraq insanın dünyaya baxışını dəyişdirməyə və həyatın hər sahəsinə hâkim olmağa uyğun bir dindir.

Ağaoğlu türklərin geriləmə səbəblərindən biri olaraq "məzhəb fərqliliyini, milli şüurun yoxluğunu və siyasi ayrılıqları" göstərməkdədir. Ona görə məzhəb fərqlilikləri ən çox türklərə təsir etməkdədir. Ərəblər və farslar arasında belə fərqliliklər olsa da onlar öz milli şüurlarını unutmamışlar. Türklər isə sözü gedən fərqliliklərə görə asan bir şəkildə düşmən ola bilməkdədirlər (Gündüz, 2007: 394). Müştərək hissiyyatın formalaşması dil və din faktorlarının təsiriylə meydana gəlir. İrq, ədəbiyyat, tarix, ənənə kimi faktorlar sonra gəlir (Ağaoğlu, 2011: 523). Din mənəvi rabitə kimi ilk zamanlar təsirli olsa da artıq öz təsirini itirmişdir. Çünki din

adamları onu müasir dövrdə faydalı bir şəkildə izah etməkdən acizdirlər (Ağaoğlu, 1942:47). Cəmiyyət olaraq inkişaf lazımdır. Cəmiyyətdə birliyin olmasının əhəmiyyətinə toxunan mütəfəkkir, bunu dəstəkləyən faktorlar olaraq din, fəlsəfə və ədəbiyyatı göstərir. Dinin cəmiyyət üzərindəki təsiri zəifdir. Çünki anlamadan oxunan ayələr, moizələr artıq heç kimdə həyəcan oyandırmamaqdadır. Dini mövzular xurafat və boş məlumatlarla dolmuşdur (Ağaoğlu, 2013:77). Bunlar da cəmiyyətdəki birliyi təmin etmək gücünə sahib deyil.

## 2. Məhəmməd Əmin Rəsulzadənin Dinin Cəmiyyətdəki Roluna Münasibəti

Rəsulzadəyə görə heç sübhəsiz din və dil cəmiyəti formalaşdıran ünsürlərin başında gəlir. Din müxtəlif irq, tayfa, qəbilə və cinsləri birləşdirən amil kimi qarşımıza çıxır. Bundan fərqli olaraq dil yalnız bir növdən olan insanları ətrafında birləşdirir. İnsanlar dinini rahatlıqla dəyişə bilsə də, dilini dəyişməsi üçün uzun müddətə ehtiyac var. Dil təbiidir və millətlə birgə formalaşa bilir. Millətsiz dil olmadığı kimi, dilsiz də millət ola bilməz (Rəsulzadə, 1913-a). Dil millətin formalaşması üçün yeganə deyil, mühüm faktordur. O millətin ən dəyərli sərvətidir. Bugün dil faktorunun yanında ənənə, tarix və din də özünü büruzə verir.

Din dildən sonra millətin rüknü üçün əhəmiyyətli ünsürdür. O, dil ilə birlikdə millətin formalaşmasına təsir edir. Hətta dilin qorunmasına da kömək edə bilir. Ermənilərin bir millət şəklində qalmalarına səbəb dinləridir. Onların dili bir məzhəbə məxsus olduğu üçün qorunub saxlanmışdır. Lakin türklərin dinə olan bağlılıqları onların millət olaraq özlərini dərk etmələrində bəzi çətinliklərin formalaşmasına gətirib çıxarmışdır. Xüsusilə Quranın başqa dillərə tərcümə edilmədən ərəb dilində qalması milli dilin inkişafına maneçilik təşkil etmişdir. Məhz bu səbəbdən türklər ərəb dilini müqəddəs hesab etmiş və ona ehtiramla yanaşmışdır. Beləcə öz dilini unutmağa başlamışdır. Mütəfəkkirlər öz əsərlərini ərəb dilində yazmağa çalışmışdır. Öz dillərində ayinlərin olmaması millətlərin dini-əxlaqi cəhətdən çətinliklərlə üzləşməsinə gətirib çıxarmışdır. Nəticədə xalq edilən dualardan heç bir şey anlamamışdır. Buna görə də İslamın əxlaqi keyfiyyətinin insanlara ötürülməsində problemlər yaranmışdır. Əgər din gündəlik həyatdan uzaqlaşdırılsa, onun cəmiyyət içərisindəki ruhu hissedilə bilməz. Məhz buna görə də bir çox ziyalı İslamın islahına ehtiyac olduğunu qəbul edir. İslah həm ümmətin, həm də millətin faydası üçün vacibdir (Rəsulzadə, 1914-b).

Dinin iki əsas tərəfi özünü büruzə verir: ibadət və müamələt. Birincisi sabitdir və bəndənin Allahla arasında olan prosesdir. İkincisi isə bəndələr arasındadır. Bunun isə zaman və məkana görə dəyişməsi mümkündür. Məhz bu səbəbdən ictihad qapısının bağlı olduğunu iddiası doğru deyildir. İctimai həyatlarında millətlərin daima ictihadlara ehtiyacı var. Təbii ki,

ictihadların əsaslandırılması lazımdır. Əgər belə olmasa, hər yerindən qalxan yeni fikir ortaya qoyar. İctihadın da tərəqqi etdiyini qəbul etməliyik. Lakin, yeni bir fikir söyləndiyi vaxt, hər yerdən "qoymayın din əldən gedir" sözləri eşidilir (Rəsulzadə, 1914-c). Bir-birini kafir elan edən, dinə xilaf edənlərin sayı hesabı olmur. Bu işin sonunda həqiqətdən məhrum olan xalq ən çox əziyyət çəkən tərəf olur.

Özünü bilən və istiqbal üçün müəyyən məfkurə formalaşdıraraq onun arxasınca gedən millətin böyük bir qüvvəsi var deməkdir. Yəni bir amala malik olan millətlər əhəmiyyət qazanacaq və dövlətin daxili siyasətinə təsir edəcəklər. Bunun üçün də millətlər özlərini bilməli, müəyyən bir amal ətrafında birləşməyi təmin edən məfkurəyə sahib olmalıdır (Rəsulzadə, 1915). Hər bir millətin azad yaşaması üçün dil, din və zamana istinadı vacibdir. Dil və milliyyət baxımından türk olduğumuza görə müstəqil türk ədəbiyyatı, mədəniyyəti, tarixinə malik olmaq məqsədimizdir. Müsəlmanlıq dinimizdir və bu beynəlmilliyətə səbəbiyyət verir. Yəni digər müsəlmanlarla eyni əxlaqa, dini tarixə sahibik. Zaman olaraq da elm və fənnin möcüzələr yaradan dövründə yaşayırıq. Əgər türk və müsəlman olaraq müstəqil qalmaq istəyiriksə dövrün elm və fənninə yiyələnməyimiz vacibdir. Sağlam, mətin və oyanıq məfkurəli milliyyətin formalaşması üçün bu üç əsasa ehtiyac vardır; türkləşmək, islamlaşmaq və müasirləşmək (Rəsulzadə, 1915). Müasir bir millət olmaq üçün din birliyi kâfi deyil. Milliyyəti meydana gətirmək üçün din, dil, ənənə və ədəbiyyat kimi ortaq dəyərlərə ehtiyac var.

Peyğəmbər və ondan sonra İslamın çatdığı coğrafiyalarda bərabərlik və milli hökumət tərzində bir idarə var idi. Bunlar əsas qəbul edilmiş və dəyişilmədiyi müddətcə İslamda tərəqqi və hərəkətlilik müşahidə edilirdi. Din öz zühur etdiyi mənbədən uzaqlaşdıqca təhrif olunmağa başlayır. Bu ümumi qaydadan İslam da öz payına düşəni aldı. Xürafat və mövhumatın yayılması dini öz cığırından çıxardı. İslamiyyət düşdüyü bu vəziyyətdən çıxmaq üçün çalışsa da hələlik bir nəticəsini görə bilmir. Lakin, bu yenidən müvəffəqiyyətin əldə edilməyəcəyi mənasına gəlmir. Son dövrlərdəki gedişat insanların yenidən İslamın həqiqətlərini dərk edəcəyinə, ruhi və əxlaqi olaraq canlanacağına ümid verir (Rəsulzadə, 1916). Dinin əhəmiyyətinə toxunan mütəfəkkir onun müsbət ilə birlikdə cəmiyyətdəki mənfi tərəflərini də bildirmişdir. Müsəlman dünyasında uşaqlıqdan öyrədilənlərin ümumi icmalın dünyaya düşmənçilik olduğunu görmək mümkündür. Dünya beş günlükdür və beşi də qaradır. Buna görə də bu dünyanı düşünməmək və onun üçün iş görməmək lazımdır. Mövcud "müsəlman tərbiyəsi"nə görə bizim dünyada hər hansı bir şeyə müvəffəq olmağımız çətindir. Buna görə dünya içi pisliklərlə dolu bir yerdir və müsəlmanın dünya üçün çalışmaması lazımdır. Belə bir düşüncəyə sahib millətin və ya cəmiyyətin inkişaf etməsi və müharibədə qalib gəlməsi mümkün deyildir. Əsl İslam dini isə

heç vaxt dünyaya düşmən olunmasını istəməz (Rəsulzadə, 1913-b). Bu həmin dövrdə din adamlarının insanlara anlatdıqlarının cəmiyyətin tərəqqisinə mənfi təsir göstərdiyinə dəlalət edir. Səhv anlatma və izah prosesi nəticəsində müsəlmanlar öz dinlərinin həqiqətlərindən uzaq bir şəkildə yaşayırlar.

Kərbəla hadisəsi ilə bağlı insanlar oradakılara qarşı edilmiş zülm üçün göz yaşı tökürlər. Lakin bu tip hadisələrdən dərs çıxarmaq lazımdır. Bir amal uğruna imam öz canından belə keçməyə razı olur və həqiqi bildiyindən dönmür. Biz isə onu məzlum bilib ağlamaqla yad etməkdən başqa bir iş görmürük. Hadisədən dərs çıxararaq onun kimi həqiqət yolunda çalışmayaraq, bəlkə də imamı məzarında narahat edirik. Onun etdikləri ehtiramla yad edilir və bunun qarşılığı göz yaşı ilə ödənilir. Əslində isə mahiyyəti dərk edərək hərəkət etməyin vacibliyini görməzdən gəlirik. Ağlamaq bəlkə də ruhi olaraq insanı rahatlığa çıxarsa da bu dünya üçün heç bir faydası yoxdur. Təbiət insana qarşı qəddardır və ağlamaqdan da nifrət edir. Nəticədə ağlamaq acizlik əlamətidir. Əgər bu zülmdən xilas olmaq istəyiriksə, ağlamaq əvəzinə fikri istiqamətə yönəlməyimiz lazımdır (Rəsulzadə, 1914-a). Rəsulzadə beləcə din tarixi baxımından baş vermiş hadisələrin insanlığa verdiyi mesajlar olduğunu bildirərək, ağlamaq əvəzinə onlardan ibrət alınmasının əhəmiyyətini vurğulamışdır.

Bununla birlikdə dinin siyasi vasitə kimi istifadə oluna biləcəyinə də diqqət çəkən mütəfəkkir, İran və Osmanlıda aldadıcı dini adlar daşıyan partiyaların mövcudluğunu dilə gətirmişdir. Onlar xüsusilə dini ön plana çıxararaq öz mənafelərinə uygun hərəkət etməyə çalışırlar. Avropa ilə müqayisədə bu ölkələrdəki insanlar dinə daha çox meylli olduğu üçün ona hörmətlə yanaşırlar. Bəziləri də peyğəmbərin qanunlarına yalancı əlavələr edərək xalqı istismar edirlər. Təbrizdə "İslamiyyə", İstanbulda isə "Məhəmmədiyyə" adları altında fəsad mərkəzləri formalaşdırırlar (Rəsulzadə, 2001-b:90-91). İranda Nəsrəddin şah taxt-tacını qorumaq üçün ona potensial təhlükə ola biləcək insanları cəzalandırır. Bunu edərkən də xalqın dini duyğularından istifadə edərək xaosu önləməyə çalışır. O etdiklərinin din naminə olduğunu bildirirdi. Hətta bəzi münafiq mollaların köməyindən də istifadə edirdi. Eyni şeyi Əbdülhəmid dövründə də Osmanlı yaşamışdı. Ona qarşı çıxanların şəriət istəmədiklərini əsas gətirərək cəzalandırırdı (Rəsulzadə, 2001-a: 152). Bu da insanların dini duyğularının istismarına və dinin cəmiyyətdəki əhəmiyyətinə ciddi xələl yetirməkdədir.

Din adamının gördüyü iş müqəddəsdir və bu məsələ mübahisəyə açıq ola bilməz. Halbuki siyasət elə deyil. Din daha çox digər dünya ilə əlaqədar olduğu üçün siyasətlə fərqi vardır. Buna görə din və dövlət işlərinin ayrı olduğunu qəbul etmək lazımdır. Allahın evini siyasi məsələlər üçün istifadə edərək qarğış və lənətlər yağdırılmasına da maneə olunmalıdır.

Din adamının əsas vəzifəsi tərəfsiz bir şəkildə xalqı doğru yola çəkməkdir. Din adamının bir təriqətə mənsub olması onun tərəfsizliyinə təsir etməkdədir. O da istər-istəməz siyasi mübarizə içərisinə girməkdədir. Cəmiyyətdə qarışıqlıq olduğu zaman üləma sülh və ya orta yolu seçməyə meyl etməlidir. Din adamının hansı firqənin haqlı olduğuna dair görüş bildirməsi doğru deyil (Resulzade, 2003: 93-94). Minbərə çıxan imam əgər fərdin dəstəklədiyi firqə ilə əlaqədar mənfi şərhlər etsə, o buna etiraz edəcəkdir. Bu etiraz isə başqasının reaksiyasına imkân verəcək və beləcə məscid ibadət yeri olmaqdan çıxacaqdır. Cəmiyyətdə məscidə olan hörmət azalacaq və din adamının prestiji zərər görəcəkdir. Din adamlarının siyasətdən uzaq tutulması lazımdır. Beləcə məscidlər də ibadət yeri olaraq qalmağa davam edər. Məscid xaricində imam öz siyasi fikirini ifadə etməkdə sərbəstdir. Lakin minbəri siyasət üçün istifadə etməməlidir (Resulzade, 2003:95). Rəsulzadə beləcə dinin siyasətdən kənarda qalmağının vacibliyini vurğulayaraq, onun mənəviyyata dair vəzifəsinin müqəddəsliyini ön plana çıxarmışdır. Halbuki din adamları dini millətin həmrəyliyi üçün istifadə edə bilərlər. Necə ki, çarın ruslaşdırma siyasətinə qarşı mübarizədə Kazan türklərinə din xadimləri kömək etmişdir. Din xadimləri cəmiyyətdə yüksək mövqeyə sahibdilər. Siyasi zümrəsi istila edilən millətlərdə məhz din xadimlərinin rolu böyük olur. Cəmiyyətə endirilən maddi və mənəvi zərbələrə qarşı gəlmək prosesində din adamları müsbət rol oynamışdır (Rəsulzadə, 1926). Cəmiyyətin öz mənəvi kimliyinin qorunmasında din adamları öz üzərilərinə düşən vəzifəni bilməli və ona görə xalqı yönəltməlidirlər.

Rəsulzadə dininin xalq tərəfindən doğru bir şəkildə başa düşülməsinin də əhəmiyyətini ifadə etmişdir. Buna görə hər xalqın öz dilində ibadətinin doğru olacağını vurğulamışdır. Nəticədə fərd nə dediyini başa düşür və anlayaraq qulluq edir. Din milli dili qəbul edərsə, müsəlmanlar arasında səthi birliyin yerini mənəvilik alacaqdır. İnsanlar artıq duaların mənasını başa düşəcəkdir. Milli dilin qəbulu İslamın da milli din kimi qəbuluna gətirib çıxaracaqdır. Əks halda fərdlərin dini olur və yaranan milli məsələləri İslamdan kənarda həll etməyə çalışırlar. Allah ilə münasibətlərimizdə öz dilimizin istifadəsinin doğru olmadığını demək isə milli dilə qarşı təhqir sayılır. Din milli dilimizi qəbul edərsə, orta məktəbdə ərəb dilini öyrənməyə ehtiyac olmaz və bu da uşaqların təhsilini asanlaşdırar. Beləcə daha əhəmiyyətli şeyləri oxumağa yönələr və daha çox məlumat əldə edərlər (Rəsulzadə, 1917-a). Söylədiyinin nə olduğunu bilmək hər bir fərd üçün şərtdir. Şəhadət gətirib onun mənasının nə olduğunu bilməyən biri, sadəcə sözləri təkrar etmiş olur. Buna görə də namazda heç olmasa Fatihənin mənasının bilinməsi lazımdır. Quran ləfzləri ilə birlikdə qorunub saxlanmışdır. Buna görə də namazda ərəb dilinin istifadəsinin digər bir missiyası ya Quranın mühafizəsi ilə əlaqədardır. Namaz və

bəzi dualarda ərəb dilinin saxlanılmasındaki məqsəd Peyğəmbərin öyrətdiklərinin müsəlmanlar arasında qalmasını təmin etmək üçündür (Rəsulzadə, 1917-b).

**Nəticə**

Dinin insanlar arasındakı təsirinin hər zaman olduğu bir cəmiyyətdə yaşayan mütəfəkkirlər, ictimai məsuliyyətləri və səadəti dinlə əlaqələndirərək açıqlamağa üstünlük vermişlər. Beləcə cəmiyyət qarşısındakı məsuliyyətin ağırlığını insanlara çatdırmaq istəmişlər. Qərbdən fərqli olaraq müasirləşmə prosesində İslamın heç bir maneə təşkil etmədiyi fikri mənimsənmişdir. Türk ziyalısı yeniliklərin cəmiyyət tərəfindən qəbul görməsi üçün xalqdan dəstək almaq ehtiyacı hiss etmişdir. Bu məqsəd üçün dini görüşlərə müraciət etmişdir. Çünki dini əsaslandırma olmadığı zaman xalqın yeniliklərə qarşı reaksiyasının müsbət olmayacağını düşünmüşlər. Məhz buna görə də o dövrün əsərlərində İslamın təhsilə, yeniliyə nə qədər əhəmiyyət verdiyi vurğulanmışdır.

Məhəmməd Əmin Rəsulzadə də dövrünün mütəfəkkirləri kimi dinin cəmiyyətdəki əhəmiyyətinə toxunmuşdur. Dinin xalq üzərindəki müsbət təsirlərinin olduğunu qəbul edən mütəfəkkir, beləcə dinin vacibliyini ifadə etmişdir. Obyektiv olaraq İslamı dəyərləndirməyə çalışaraq müsəlmanların Qərb qarşısında geri qaldığının dinlə əlaqəsi olmadığını bildirmişdir. Mütəfəkkir İslamın müasirliyə uyğun bir din olduğunu ön plana çıxarmışdır. Lakin, müəyyən adamların öz mənfəətləri üçün dindən istifadə edərək fərqli izahlar verməsi, xalqı səhv istiqamətləndirməsi insanların dinə olan münasibətinə mənfi təsir göstərmişdir. Xüsusilə xürafat və başa düşülməsi çətin olan ifadələrin yayğınlaşması fərdləri dinin özündən uzaqlaşdırmışdır. Nəticədə xalq müəyyən şəxslərin moziələrindəki izahlarını dinləməyə məcbur olmuşdur.

Dini doğru başa düşməmək istəz-istəməz əxlaq anlayışına da mənfi təsir etmişdir. Bununla birlikdə dinin doğru başa düşülməməsi tərəqqiyə də mənfi təsir göstərmiş və bir qisim insanların öz mənfəətləri üçün istifadəsinə imkân vermişdir. Xüsusilə siyasi məsələlərdə bu özünü büruzə vermişdir. Firqənin və onun tərəfdarlarının bir mənada lənətlənməsi, məscidlərdəki moizələrdə siyasi mesajlar verilməsi insanlar arasındakı həmrəylik duyğusuna zərər vermişdir. Belə olan halda İslamın həmrəylik prinsipi zədələnmişdir. Rəsulzadəyə görə məscidlərin siyasətdən kənarda tutulması lazımdır. Beləcə fərqli siyasi düşüncəyə sahib insanlar eyni dini duyğuya sahib olduqları üçün məsciddə yanaşı dura biləcəkdilər. Bu da cəmiyyətdə mövcud olan fərqliliklərin həmahəngliyini göstərəcəkdir. Rəsulzadə də digər mütəfəkkirlər kimi müsəlmanların Qərblə müqayisədə geridə qalma səbəblərinin dinin özündə

axtarılmamasının vacibliyini vurğulamışdır. Din obyektivliyini ön plana çıxaran mütəfəkkir onun insanlar üçün əhəmiyyətinin və cəmiyyətdə oynadığı rolun dəyərliliyini ifadə etmişdir. Məntiqi əsası olmayan və ya zəif olan dini izahlardan xilas olmağın əhəmiyyətini vurğulamışdır. Din milli kimliyin formalaşmasında əsas ünsürlərdən biri kimi qəbul edilmişdir. Xüsusilə dəyər sistemlərinin qorunması və mənəvi həyata edilən hücumlar zamanı din, insanların öz kimliyini qorumasına kömək edə biləcək potensiala sahibdir. Dinin bu kimi əhəmiyyətli və yararlı tərəflərinin mövcudluğunun ikinci planda tutularaq, başqa məqsədlər üçün istifadə edilməsinin doğru olmadığı bildirilmişdir. Tarixdə dini olaraq qəbul edilən hadisələrin və ya faicələrin yaşanmasının belə insanlığa dair bir mesajı var. Burada vacib olan o hadisələrin doğru bir şəkildə dərk edilməsi və xalqa həqiqətin başa çatdırılmasıdır. Bunlar edildiyi təqdirdə dinin cəmiyyətdəki əhəmiyyəti daha çox özünü göstərəcəkdir. Nəticədə din həqiqi olan öz missiyasını yerinə yetirmiş olacaqdır.

**Kaynakça**

Agayef, A. (2011). İslamda Dava-yı Milliyet (Babanzade Ahmed Naim`e Cevap). Türkiye`de İslamcılık Düşüncesi: Kişiler ve Metinler I. Haz: İ.Kara. İstanbul: Dergah yayınları.

Ağaoğlu, A. (1942). İhtilal mi, İnkilap mı. Ankara: Alaeddin Kıral basımevi.

Ağaoğlu, A. (1985). İslamiyette Kadın. Çev: H.A. Ediz, Ankara: Birey ve Toplum yayınları.

Ağaoğlu, A. (2013). Üç Medeniyet. Haz: Eğribel Ertan-Ufuk Özcan. İstanbul: Doğu kitabevi.

Berkes, N. (2013). Türkiye`de Çağdaşlaşma. İstanbul: YKY.

Ersoy, M.A. (2011). Sa`y ve Amelin Nazar-ı İslamdaki Mevkii. Türkiye`de İslamcılık Düşüncesi: Kişiler ve Metinler I. Haz: İ. Kara, İstanbul: Dergah yayınları.

Gündüz, M. (2007). II. Meşrutiyet`in Klasik Pradigmaları. Ankara: Lotus yayınları.

Lewis, B. (2011). Modern Türkiye`nin Doğuşu. Ankara: Arkadaş yayınları.

Resulzade, M.E. (2003). Kırk dokuzuncu Oturum. Mehmet Emin Resulzade`nin Meclis-i Mebusan Konuşmaları. Haz: S. Şimşir. İstanbul: IQ kültürsanat.

Rəsulzadə, M.Ə. (1913-a). Dil İctimai Mühüm Bir Amil. Şəlalə. S:27.

Rəsulzadə, M.Ə. (1913-b). Həyatı Sevməli. İqbal. S:399.

Rəsulzadə, M.Ə. (1914-a). Aşura. İqbal. S:790.

Rəsulzadə, M.Ə. (1914-b). Millətin bir rüknü də dindir. Dirilik. S:7.

Rəsulzadə, M.Ə. (1914-c). Yədi Bəyza. Bəsirət. S:9.

Rəsulzadə, M.Ə. (1915). Tutacağımız yol. Açıq söz. S:1.

Rəsulzadə, M.Ə. (1916). Mübarək mövlud. Açıq söz. S:78.

Rəsulzadə, M.Ə. (1917-a). İslam dini və ana dili. Açıq söz. S:413.

Rəsulzadə, M.Ə. (1917-b). İslam dini və ana dili. Açıq söz. S:414.

Rəsulzadə, M.Ə. (1926). Kazan türkləri. Yeni Qafqasiya. S:11.

Rəsulzadə, M.Ə. (2001-a). İran tarixçeyi-inqilabı: Nəsrəddin şah dövrü. Əsərləri II Cild (1909-1914). Haz: Ş. Hüseynov. Bakı: Şirvannəşr.

Rəsulzadə, M.Ə. (2001-b). Mühafizəkar və ya sosialist-mühafizəkar partiyaların tənqidi. Əsərləri II Cild (1909- 1914). Haz: Ş. Hüseynov. Bakı: Şirvannəşr.

Said Halim Paşa. (2003). Bütün Eserleri. Haz: N.A. Özalp. İstanbul: Anka yayınları.

Said Halim Paşa. (2004). Türkiye ve Hilafet. Ter: İ. Taşpınar. Hilafet Risaleleri 4. Cilt: II Meşrutiyet Devri. Haz: İ. Kara. İstanbul: Klasik yayınları.

Seyyid Bey. (2011). İçtihad ve Taklit. Türkiye`de İslamcılıl Düşüncesi: Kişiler ve Metinler I. Haz: İ. Kara, İstanbul: Dergâh yayınları.

Şehbenderzade Filibeli Ahmed H. (2009). İslam Tarihi, Ed: C. Zorlu, İstanbul: Ağaç yayınları.

Şeyhülislam Musa Kazım. (2011). İslam ve Terakki. Türkiye`de İslamcılık Düşüncesi: Kişiler ve Metinler I. Haz: İ. Kara. İstanbul: Dergâh yayınları.

Şeyhülislam Musa Kazım. (2011). Medeniyet-Din İlişkisi. Türkiye`de İslamcılık Düşüncesi: Kişiler ve Metinler I. Haz: İ. Kara. İstanbul: Dergâh yayınları.

*Mehmet Emin Resulzade Özel Sayısı*

*Araştırma Makalesi/Research Article*

# BENGİ

**Dünya Yörük-Türkmen Araştırmaları Dergisi**

*BENGİ World Journal of Yörük-Türkmen Studies*

*https://dergipark.org.tr/tr/pub/bengi*

**ISSN: 2717-6584**

## Mehmed Emin Resulzade'nin Yayınlarında 1905-1906 Ermeni-Azerbaycan Çatışması

1905-1906-cı İllər Erməni-Azərbaycanlı Münaqişəsi Mövzusu Məhməd Əmin Rəsulzadənin Publisistikasında

*The Topic Of The Armenian-Azerbaıjanı Conflict Of 1905-1906 In Mamed Emin Rasulzade's Journalism*

**doi**: 10.58646/bengi. 1461999

**Geliş/Received:** 05 Nisan 2024 **Kabul/Accepted:** 01 Mayıs 2024

**Fərhad CABBAROV** *

**Özet**

Bu makale, Güney Kafkasya'daki ilk etnik çatışma olan 1905-1906 ermeni-azerbaycanlı katliamlarının M.E.Resulzade'nin gazeteciliğinde ele alınışına adanmıştır. M.E.Resulzade'nin 1906 yılında periyodik basında yayınlanan bir dizi makalesinde, bu katliamların nedenleri ve gelişimi, olaylar sırasında Rus İmparatorluğu hükümetinin tutumu ile ilgili görüşleri analiz edilmiş ve karşılaştırmalar yapılmıştır. Makalede M.E.Resulzade'nin ermeni-azerbaycanlı çatışmasına o dönemde taşıyıcısı olduğu sol, sosyal-demokrat ve devrimci bir pozisyondan yaklaşması, sınıfsal, enternasyonalist tarafta dururken meydana gelen çatışmadan sadece Çarlık Rusya'sının zalim rejimini sorumlu tutması gibi konulara değinilmiştir.

**Anahtar Kelimeler:** 1905-1906 yılları, Ermeni-Azerbaycanlı Çatışması, Ermeni Terörü, Çarlık hükümeti, "Taşnaksutyun", Bakü, Şuşa.

* **Sorumlu Yazar/Corresponding author**: Doç.Dr., Milli Azərbaycan Tarixi Muzeyi, e-posta: farhadcabbarov@mail.ru. Orcid: 0009-0002-4930-7778.

**Atıf/Citation:** Cabbarov, F. (2024). Mehmed Emin Resulzade'nin Yayınlarında 1905-1906 Ermeni-Azerbaycan Çatışması. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi, 2024 (2), 205-219.

**Xülasə**

Məqalə Cənubi Qafqazda ilk etnik münaqişə olan 1905-1906-cı illər erməni-azərbaycanlı qırğınlarının M.Ə.Rəsulzadənin publisistikasında işıqlandırılması məsələsinə həsr olunub. 1906-cı ildə dövrü mətbuatda dərc olunmuş bir sıra məqalələrində M.Ə.Rəsulzadənin bu qırğınların səbəbləri, gedişi, hadisələr zamanı Rusiya imperiyası hökumətinin mövqeyi ilə bağlı mülahizələri təhlil olunub, müqayisələr aparılıb. Məqalədə M.Ə.Rəsulzadənin erməni-azərbaycanlı münaqişəsinə həmin dövr daşıyıcısı olduğu solçu, sosial-demokrat və inqilabi mövqedən yanaşması, sinfi, beynəlmiləlçi cinahda duraraq baş vermiş münaqişədə yalnız çar Rusiyasının istibdad rejimini günahlandırdığı kimi ziddiyyətli məqamlara toxunulub.
**Açar Sözlər:** 1905-1906-cı illər, Erməni-Azərbaycanlı Münaqişəsi, Erməni Terroru, Çar Hökuməti, “Daşnaksutyun”, Bakı, Şuşa

**Abstract**

The article deals with the elucidation of Armenian-Azerbaijani massacres of 1905-1906, the first ethnic conflict in the South Caucasus, in M.E.Rasulzade's journalism. Concerning the causes and course of the massacres, the position of the government of Russian Empire during the events have been analyzed and comparisons have been made. Contradictory points associated with Armenian-Azerbaijani massacres of 1905-1906 in his writings have been mentioned. The article touches upon contradictory points such as M.E.Rasulzadeh's approach to the Armenian-Azerbaijani conflict from the standpoint of a leftist, social-democrat and revolutionist, of which he was the bearer at that time and accusation of only the tyrannical regime of Tsarist Russia in the conflict, standing on the class and internationalist side.

**Keywords:** 1905-1906, Armenian-Azerbaijani Confcict, Armenian Terror, Tsarist Government, “Dashnaktsutsyun”, Baku, Shusha

## Giriş

1905-ci ilin fevralında Bakıda başlayan və tarixdə "erməni-müsəlman davası" kimi məşhurlaşan milli qırğınlar Cənubi Qafqazda ermənilərlə azərbaycanlılar arasında baş vermiş ilk irimiqyaslı münaqişə idi. İki il davam etmiş və minlərlə insanın həyatına son qoymuş, diyarın sosial-iqtisadi həyatına ağır zərbə vurmuş bu münaqişəni təşkil edən, onu həyata keçirən "Daşnaksutyun" partiyasının timsalında erməniliyin ən radikal hissəsi və erməni-qriqorian kilsəsi olmuşdu. Qırğınlar zamanı daşnakların əsas hədəfi "Böyük Ermənistan" ideyasının gerçəkləşməsində başlıca maneə olan Cənubi Qafqazın ən böyük xalqı – azərbaycanlılar idi. 1905-1906-cı illərdə Bakı, Yelizavetpol, İrəvan, Tiflis quberniyalarının müsəlman əhalisi misli görünməmiş terrora, zorakılığa məruz qalmış, öz yurd yerlərini tərk edərək, qaçqınlıq həyatını yaşamağa məhkum olmuşdu.

Erməni-azərbaycanlı münaqişəsi o dövrün mətbuatında daim diqqət mərkəzində olub, hadisələrə ilk qiymətlər də məhz qəzet səhifələrində verilirdi. Erməni və ermənipərəst mətbuatın bütün Rusiya miqyasında apardığı total dezinformasiya şəraitində Azərbaycan ziyalıları nəinki doğru informasiyanı cəmiyyətə çatdırmağa çalışır, eləcə də azərbaycanlıları və ümumilikdə müsəlmanları nüfuzdan salan yalançı ittihamları təkzib etməklə məşğul idilər. Bunun üçün əsas tribuna kimi yerli mətbuat və ilk növbədə Bakıdakı yeganə rusdilli Azərbaycan qəzeti – "Kaspi" seçilmişdir. Mətbuat səhifələrində hadisələrə qiymət verilir və onların səbəblərini müəyyənləşdirmək cəhdləri edilirdi. Qeyd etmək lazımdır ki, erməni müəlliflərindən fərqli olaraq, Azərbaycan publisistləri ilk vaxtlarda millətlərarası toqquşmalara qiymət verərkən kəskin aksentlərdən uzaq olmağa çalışırdılar. Əgər qarşı tərəf toqquşmaların "müsəlman fanatizmi"ndən qaynaqlandığını sübut etməyə çalışaraq, bunun üçün daim təhqiramiz və aşağılayıcı ifadələrdən istifadə edirdisə, azərbaycanlı müəlliflər, əksinə, iki xalq arasında ədavətin olmaması tezisini əsaslandırırdılar.

## 1. Qarabağ Qırğınları M.Ə.Rəsulzadə Publisistikasında

Öz imzasını müxtəlif mövzularla bağlı yazıları ilə artıq Azərbaycan mətbuatı səhifələrində təsdiq etmiş 21 yaşlı Məhəmməd Əmin Rəsulzadə də bu münaqişəyə biganə qalmamış, erməni-azərbaycanlı qırğınlarına dair ümumilikdə yeddi məqalə yazmışdı. Maraqlıdır ki, toqquşmaların başlandığı 1905-ci ildə M.Ə.Rəsulzadənin bu mövzuya dair bir məqaləsi də yoxdur, halbuki təkcə həmin il ərzində M.Ə.Rəsulzadənin yaşadığı Bakı şəhərində üç dəfə (fevral, avqust və oktyabr aylarında) qırğınlar baş vermişdi. Yəni, M.Ə.Rəsulzadə bilavasitə Bakı

qırğınlarının şahidi olsa da, bu hadisələr nədənsə onun publisistikasında hələ öz əksini tapmamışdı.

M.Ə.Rəsulzadənin bu mövzuda ilk məqaləsi yalnız 1906-cı ilin əvvəllində işıq üzü görür. Məhz bu vaxt Qarabağdan qorxulu xəbərlər gəlməyə başlamışdı. Yanvarın 4-də "İrşad" qəzeti Azad bəy Vəzirovun Şuşadan Bakıya göndərdiyi və Azərbaycan əhalisinin acınacaqlı durumunu tam çılpaqlığı ilə göstərən teleqramını dərc edir. Teleqramda deyilirdi: "Şuşa müsəlmanlarının əhvalı çox yamandır. Hər bir yol ay yarımdır ki, erməni quldur dəstələri tərəfindən bağlanıbdır. Azuqə gəlmir. Un, qənd və hər bir an lazım olan zəxirə [azuqə – *F.C.*] poçta ilə gəlir. Baqaidə [əsl – *F.C.*] aclıqdır. Acından tək-tək ölən vardır. Yekaterinodar və Xopyor polkundan [alayından – *F.C.*] iki yüz nəfər kazakların mühafizəsi ilə şəhərə gələn altmış furqon azuqəni Əsgəran səngərində ermənilər zəbt edibdirlər. Kazaklar heç bir iş görmürdülər. Polkun komandiri podyesaul Rıjanov dedi ki, Yekaterinodar polkunun komandiri əmr edibdir ki, kazaklar güllə atmasın və onların gözlərinin qabağında ermənilər furqonistləri soyub furqonları da, atları da apardılar. Erməni quldur dəstələri bütün o yerdə bildiklərinieyliyirlər. Bu dəstələr Malıbəyli kəndinin üstünə tökülüb bir neçə evi yandırdı və həmən dəstələr ştab-qvartira [qərargah – *F.C.*] olan Xankəndinin üstünə hücum edib kazakların gözünün qabağında orada olan müsəlmanların özlərini, arvadlarını və uşaqlarını doğradılar. Nəcəfqulu ağanın və həkim Mehmandarovun mülklərini yandırdılar. Şəhər müsəlmanlar sakin olan mərkəzdən bilmərrə [tamamilə – *F.C.*] ayrılıbdır. İşin nəticəsi müsəlmanlardan ötrü yamandır. Şəhərdə ermənilər müsəlmanları davaya çağıran kimi rəftar eyliyirlər..." (Vəzirov A., 1906: 1)[1]

Bu teleqramın dərc edildiyi günün ertəsi – yanvarın 5-də M.Ə.Rəsulzadənin "İrşad" qəzetində "Kənddə müsibət" adlı təlaş və həyəcan dolu məqaləsi işıq üzü görür. On bir aydır Cənubi Qafqazın "iki millətin qanları ilə əlvan olduğunu" söyləyən müəllif yazır: "...biz bir-birimizi öldürməkdən, malını qarət, əmlakını təhriqdən *(yandırmaq)*[2] usanmıyoruz. Heç bir tərəf öz qəbahətini qanmayıb kuhi-atəşfəşan kimi, gah sakitləşib, hayi gurlayır, ədavəti şöləvər ediriz." (Rəsulzadə, 1992-d:24). 1905-ci ilin son aylarında Gəncədə və Tiflisdə baş verən toqquşmalardan sonra cəmiyyətin sülhün bərqərar olacağına inandığını deyən M.Ə.Rəsulzadə indi də Qarabağda başlayan qırğınların bu ümidi puça çıxardığını vurğulayır: "İndi hər kəs əhvalata nikbinlik deyil, ziştbinlik ilə baxırlar. Çoxları sülh və müsalimətdən qəti-ümid edib, aləmi-ədavət və qisasda cövlan ediyorlar." Lakin cəmiyyətdəki bu pessimizm əhval-ruhiyyəsini

[1] Teleqram müəllifinin Azad bəy Vəzirov olması "İrşad" qəzetində göstərilməsə də, bu barədə arxiv sənədində məlumat verilir. Bax: A.Vəzirovun Əhməd bəy Ağayevə, "Kaspi" və "Həyat" qəzetlərinin redaksiyalarına teleqramı (tarixsiz) / Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: fond 484, siyahı 1, iş 47, vərəqlər 1-2.

[2] Mötərizə içində kursivlə verilən izahlar M.Ə.Rəsulzadənin əsərlərinin naşiri, mərhum professor Şirməmməd Hüseynova məxsusdur.

təsvir etməklə yanaşı M.Ə.Rəsulzadə həmçinin "Çarəmiz nədir? Müsaliməti haradan taparız?" suallarını verir və özü çıxış yollarını göstərir. Onun fikrincə, ilk növbədə qırğınların iqtisadi və siyasi nəticələrini nəzərə alıb hər iki millətin "qara cəmaəti arasında sülh və müsalimət mənfəətinə mitinqlər" təşkil etmək lazımdır." (Rəsulzadə, 1992-d: 24).

M.Ə.Rəsulzadənin cəmiyyətin məhz bu təbəqəsi arasında sülhü təşviq etmək üçün işləmək zəruriliyini qabartması heç də təsadüfi deyildi, çünki hadisələrin gedişatı göstərdi ki, qırğınlar zamanı qətl, qarət, yanğın və başqa zorakılıqlar məhz qara camaat tərəfindən törədilirdi və yalnız ziyalıların, din xadimlərinin işə qarışması nəticəsində hər iki xalqın aşağı təbəqələrini sakitləşdirmək mümkün olurdu.

M.Ə.Rəsulzadənin təklif etdiyi digər vasitələr qırğınlar zamanı zərərçəkmişlərə maddi yardımın göstərilməsi və mətbuatın qızışdırıcı məqalələr dərc etməkdən çəkinməsidir. İkinci məsələyə daha geniş toxunan müəllif yazır ki, erməni-müsəlman qırğınlarının bu qədər davam etməsinin səbəbkarı nifaq salan yazılar dərc etdirən naşirlər və yazıçılardır. Erməni müəllifi G.Çalxuşyanın 1906-cı ildə nəşr etdirdiyi və başdan-ayağa müsəlmanlara qarşı iftira və ittihamlarla dolu kitabını nəzərdə tutan M.Ə.Rəsulzadə yazır: "Hərhag "Erməni məsələsi və panislamizm" kimi kitablar əvəzində, məhəbbət və qardaşlığa çağıran risalələr nəşr etsə idilər, bu qədər nahaq qanlar tökülməyib, bu qədər evlər, xanimanlar bərbad olub viran qalmaz idi..." (Rəsulzadə, 1992-d: 24-25).

M.Ə.Rəsulzadə bu məqaləsində ilk dəfə qırğınların səbəbkarının da adını çəkmişdir, onun fikrincə, "erməni-müsəlman əlaqəsinə zərb-hərəkət verən idareyi-müstəbiddeyi maziyyə" olub, yəni münaqişənin səbəbkarı imperiya hökumətinin müstəbid idarəçiliyidir. Bütün sonrakı yazılarında o, bu fikri müdafiə edəcək, o dövrün bir çox müəllifləri kimi rus istibdadını, məmurları "şeytan" adlandıraraq, iki xalqı vuruşduran, onlar arasında nifaq salanları tənqid edəcək. Məsələn, "İrşad"ın 31 may 1906-cı il tarixli "Yenə də müsibətmi?!" adlı məqaləsində o, İrəvanda başlamış qırğınlara toxunaraq, onları da hökumət təxribatı ilə əlaqələndirib yazır: "Qan içməyi adət edən bu "şeytan" xədəmələrinə bu qədər də tökülən məsum qanlar görünür ki, kifayət etməyib, görünür ki, xəraba sevən bu bayquşlar vətəni-məlufumuzu bilmərrə xak ilə yeksən etmək istəyirlər." (Rəsulzadə, 1992-i: 44).

Erməni-azərbaycanlı qırğınlarında ardıcıl olaraq Rusiya imperiyasının hakim dairələrini tənqid edən M.Ə.Rəsulzadə başqa bir məqaləsində münaqişənin qarşı tərəfinə – ermənilərə də ittihamlar ünvanlamışdır. "İrşad"ın 4 iyul 1906-cı il tarixli sayında dərc olunan "İki nüktə" məqaləsində o, yazırdı: "Bu iki milləti barışdırmaq arzusunda olanların cümləsinə lazımdır ki, hər iki millətin füqərayi-kasibəsini qüvvətləndirib, daşnaksutyun kimilərin əlindən xilas

etsinlər. Böylə olmaz isə cümlə əhli-kəsəbənin sülhpərvər olmasından hərgiz danışmaq olamaz." (Rəsulzadə, 1992-c: 51-52). M.Ə.Rəsulzadə əslində burada "Daşnaksutyun" partiyasının erməni cəmiyyətinə təsir gücünü, onun qriqorian kilsəsi ilə birləşərək ekstremist, terrorçu fəaliyyətə rəhbərlik etdiyini vurğulayırdı. Milli qırğınlar zamanı daşnak dəstələri ağır silahlardan istifadə edərək, müsəlmanların yaşadığı əraziləri tutur, onlara iqtisadi zərər vurur, əhalini yaşayış yerlərindən qovurdular. Özünün silahlı qüvvələrini yaradan "Daşnaksutyun" partiyası qırğınlar zamanı 100 minə yaxın adamı səfərbərliyə almış və onların saxlanılmasına 100 min rubl sərf etmişdi.

M.Ə.Rəsulzadənin daşnakların ünvanına yazdığı sözlərə dərhal cavab gəldi. Tiflisdə çıxan erməni "Alik" qəzeti M.Ə.Rəsulzadənin "İki nüktə" məqaləsinə etiraz edərək, müsəlman ziyalılarını rus hökumətilə əlbir olub erməniləri məhv etmək planının məhz daşnaklar tərəfindən puç edildiyini yazır və belə nəticə çıxarırdı ki, M.Ə.Rəsulzadə və digər ziyalılar "gördülər ki, bütün erməniləri qırmaq üçün qabaqca daşnaksutyunu puç etmək lazım gəliyor." (Rəsulzadə, 1992-c: 56). M.Ə.Rəsulzadə də öz növbəsində erməni müəllifinin bu çıxışını cavabsız qoymur və "İrşad"ın 21 iyul 1906-cı il tarixli sayında "Daşnaksutyunçuya rəddiyyə" adlı məqaləsində onu "panislamist", "müsəlman feodalizminin bir layiqli nümayəndəsi" adlandıran "Alik" qəzetinə etirazını belə ifadə edir: "Yenə köhnə zurna! Hər vaxt bir kəs daşnaksutyunçulara müqabil durur isə, o saat daşnaksutyunçuların nəzərində Sultan Həmid, panislamizm və müsəlman feodalizmi mücəssəm oluyor." (Rəsulzadə, 1992-b: 58).

## 2. M.Ə.Rəsulzadə Rusiya Hakim Dairələrinin Qırğınlarda Rolu Haqqında

M.Ə.Rəsulzadənin erməni-azərbaycanlı qırğınları mövzusunda ən sərt məzmunlu iki yazısı "Dəvət-Qoç" qəzetində nəşr olunmuşdu. Bakıda Azərbaycan və erməni dillərində çıxan sosial-demokrat yönümlübu qəzetin 19 iyul 1906-cı il tarixli sayında dərc olunan "Mərəzimizin çarəsi" məqaləsində M.Ə.Rəsulzadə, – bir ildən artıqdır ermənilərlə müsəlmanlar arasında "şeytanın" əməli nəticəsində "fitnə toxumu düşüb, özünə müsaid bir zəmin tapdığı üçün göyərib, nəşvü-nüma *(inkişaf)* etməkdədir" (Rəsulzadə, 1992-e: 19-20) – deyə hadisəyə diqqət çəkir. Lakin, erməni-müsəlman qırğınına geniş tərif verməyəcəyini vurğulayaraq müəllif cəmiyyəti hadisələrdən nəticə çıxarmağa, gələcəkdə bu cür qırğınların baş verməməsi üçün yollar axtarmağa çağırır: "İndi olan olub, keçən də keçib, gələcəyə çarə axtarılmalıdır... Fikr etməlidir ki, nə etmək lazımdır ki, bir də vətənimiz qan ilə əlvan olmasın, yəni bimənа tökülən qardaş qanı ilə boyanmasın?!.. Hər bir naxoşluğun, mərəzin illətini, səbəbini bilməmiş, ona hərgiz çarə etmək olmaz." (Rəsulzadə, 1992-e: 20). Bunun üçün M.Ə.Rəsulzadə "sülh və müsalimət ilə yaşayan iki milləti barışdırıb, əvvəlki halətə gətirməkdən ötrü" "bəla", "mərəz"

adlandırdığı erməni-müsəlman qırğınlarının səbəbini tapmağı gərəkli hesab edir. M.Ə.Rəsulzadə iki xalq arasında baş verən hadisələrin səbəbini "cümlə Rusiyanı qanlı bir girdab içinə buraxan" istibdadda görür və oxucularına belə bir sualla müraciət edir: "Cənnət misal Qafqazı böylə cəhənnəmə döndərən haman Rusiyanın qeyri şəhərlərini məsələn: Odesi, Kişinyovu, Ukraynanı xunalud *(qanlı)* edən Rusiya istibdadi-qəddaranəsini kim tanımıyor?!" Bu zaman M.Ə.Rəsulzadə Qafqazı idarə edənləri xəyanətkar əməllərdə günahlandıraraq onların bir neçəsinin adını da çəkir: "Zira ki, naqaşidzeləri, əlixanovları, qoloşşapovları, lyutskiləri[3], pivovarovları və qeyrilərini görüb də razı olmaq yaramaz." (Rəsulzadə, 1992-e: 20).

Burada haşiyə çıxaraq qeyd etmək lazımdır ki, M.Ə.Rəsulzadənin xatırladığı məmurların heç də hamısının erməni-müsəlman qırğınları zamanı oynadıqları rolu birmənalı qiymətləndirmək olmaz. Belə ki, Qarabağ və Zəngəzur bölgələrinin general-qubernatoru V.N.Qoloşapov istisna olmaqla, Bakı qubernatoru M.A.Nakaşidze də, Naxçıvan qəzasında xüsusi hərbi birləşmənin rəhbəri general M.Əlixanov da, Qazax qəzasında xüsusi hərbi birləşmənin rəhbəri general V.N.Levitski də, Şuşa qəzasnın rəisi M.İ.Pivovarov da bəzi hallarda obyektiv mövqe tutaraq, erməni terroruna qarşı mübarizə aparmış, M.A.Nakaşidze və M.Əlixanov isə hətta bu mövqelərinə görə ermənilərin törətdiyi sui-qəsd nəticəsində həlak olmuşlar (Cabbarov,2022: 40-43, 54; Джаббаров,2018: 552-556). Göründüyü kimi, M.Ə.Rəsulzadə istər mülki, istərsə də hərbi məmurların hamısına eyni qiyməti verir, bu da həmin dövrdə hökumətə müxalif siyasi qüvvələrə, o cümlədən M.Ə.Rəsulzadənin təmsil etdiyi sosial-demokratlara xas olan cəhət idi.

M.Ə.Rəsulzadə solçu qüvvələrin qırğınların ilk günlərindən başlayaraq irəli sürdüyü versiyanı əsas götürərək, münaqişənin imperiya hökuməti tərəfindən törədilən təxribat olduğu, bununla da hər iki xalqın diqqətini ölkədə başlayan inqilabdan yayındırmaq məqsədi daşıdığı qənaətini bölüşürdü: "Bürokratlar Rusiya inqilabi-kəbirindən rəhayab *(xilas olan, qurtulan)* olub, xilaslıq tapmaq üçün biçarə rəiyyəti bir neçə vaxtda təhti-təzyiq və təkdirdə saxlamaq üçün olmazın hiylələr edib, hər bir ərzəl işlərə tənəzzül etdilər. İki milləti bir-biri ilə vuruşdurub, nahaq qanlar işində inqilabı qərq etmək istədilər..." (Rəsulzadə, 1992-e: 20).

Qeyd etmək lazımdır ki, M.Ə.Rəsulzadənin öz yazılarında ardıcıl olaraq müdafiə etdiyi bu tezis həmin dövrdə erməni-azərbaycanlı qırğınlarından bəhs edən digər azərbaycanlı müəlliflərin mövqeyindən fərqlənir. Məsələn, dövri mətbuatda mövzuya dair məqalələrlə çıxış edən Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Rəhim bəy Məllikov, Eynəli bəy Sultanov,

[3] Kitabda səhv verilib, Levitski olmalıdır (general-mayor V.N.Levitski Qazax qəzasına göndərilən hərbi birləşmənin komandiri idi).

Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov, Azad bəy Vəzirov, Firidun bəy Köçərli və b. birmənalı olaraq erməni-azərbaycanlı toqquşmalarının səbəbini hökumətin təhrikçiliyində deyil, erməni inqilabi partiyalarının terrorçu fəaliyyətində görürdülər. M.Ə.Rəsulzadənin millərlərarası toqquşmaların təşkilində "Peterburqun əli"nin olması tezisi üzərində dayanması, fikrimizcə, onun həmin dövrdə sosial-demokrat baxışları ilə əlaqədar idi. Belə ki, sosial-demokratlar qırğının ilk günlərindən etibarən hökumət əleyhinə kəskin bəyanatlar verərək, hadisələrdə birbaşa dövləti günahkar elan etmişdilər. Birinci Bakı qırğınlarından dərhal sonra - 1905-ci il fevralın 12-də Tiflisdə sosial-demokratların, eserlərin, gürcü "sakartvelo"çuların, həmçinin erməni hnçakçıları və daşnaklarının birgə bəyannaməsi buraxılmışdır. Bəyannamədə bildirilirdi ki, hökumət inqilabi dalğanın qarşısını almaq və zəifləyən mövqelərini qoruyub saxlamaq məqsədi ilə bir milləti başqa millətin üzərinə saldırır, "...muzdlu quldur dəstələri yaradır, Kişinyovda, Qomeldə və başqa şəhərlərdə yəhudi qırğınlarını təşkil edir, indi isə Qafqazda xeyli müxtəlif millətin yaşadığını bilərək, burada da həmin üsula əl atır. Bu məqsədlə çarın nökərləri Bakı qırğınını təşkil etdilər: müsəlman əhalisinin geriliyindən və cəhalətindən istifadə edib, onu əvvəlcədən silahlandırıb müdafiəsiz və silahsız ermənilərin üstünə göndərdilər. Onlar müsəlmanların tam cəzasız qalacaqlarına söz verdilər və budur, Bakıda Kişinyov dəhşətlərini geridə qoyan faciə baş verir. Beş gün ərzində qan axır... Fəryad və ağlaşma şəhəri bürüyür. Polis tərəfindən qızışdırılan müsəlman qaragüruhu elə vəhşiliklər törədirdi ki, türklərin törətdikləri bunların yanında heç nədir..." (Галоян, 1969: 76).

Həmin gün RSDFP-nin Tiflis və Bakı komitələrinin birgə bəyannaməsi də çıxmışdır. İ.V.Stalin tərəfindən yazılan bəyannamədə deyilirdi: "Və budur, çar hökuməti öz taxt-tacını möhkəmləndirmək üçün "yeni" üsul fikirləşir. O, Rusiya millətləri arasında nifaq salır, onları bir-birinin üstünə saldırır, proletariatın vahid hərəkatını hissələrə parçalamağa və həmin hissələri bir-biri ilə vuruşdurmağa çalışır, yəhudi, erməni qırğınları törədir və s. Bunların hamısı qardaş qırğını vasitəsi ilə Rusiya millətlərini bir-birindən ayırmaq, onları zəiflədib hərəsini ayrı-ayrılıqda asanlıqla məğlub etmək üçündür!.. Onlar – çar hökumətinin agentləri şüursuz türkləri dinc ermənilərin üstünə təhrik edirdilər! Onlar – çar hökumətinin nökərləri müsəlmanlara silah və güllə paylayırdılar, polislərə və kazaklara türklərin geyimini geyindirib ermənilərin üstünə göndərdilər! İki ay ərzində onlar – çarın nökərləri bu qardaş qırğınını hazırlayır və nəhayət, öz vəhşi məqsədlərinə çatdılar..." (Джаббаров, 2018: 376).

Göründüyü kimi, hər iki bəyannamədə azərbaycanlıların çar administrasiyasının təhriki ilə hərəkət etdiyi, onların fevral qırğınının əsas səbəbkarları olduğu iddia olunurdu. Bütov bir xalqı avamlıqda və cahillikdə ittiham edən, onu qaniçən və cinayətkar dəstə rolunda qələmə verən rus, erməni və gürcü partiyaları qırğının əsas günahkarı olan erməniləri müdafiəsiz,

silahsız qurbanlar kimi təqdim edirdilər. Birinci bəyannamə isə daha bir cəhəti ilə maraq kəsb edir: sosial-demokratlar və eserlərlə birgə onu erməni şovinist partiyaları – “Hnçak” və “Daşnaksutyun”, yəni münaqişə tərəflərindən birinin maraqlarını ifadə edən siyasi qüvvələr də imzalamışlar. Sözsüz ki, burada hadisələrə heç bir obyektiv yanaşmadan söhbət gedə bilməzdi. Belə təsəvvür yaranır ki, bəyannaməni imzalayan partiyalar heç də bitərəf görünmək, erməniləri və azərbaycanlıları sülhə çağırmaq niyyətində deyildilər, əksinə, onlar ixtilafları daha da qızışdırmaq və bundan yararlanıb hökumətlə mübarizəni genişləndirmək istəyirdilər.

Məqalədə hər iki bəyannaməyə belə geniş diqqət yetirməyin səbəbi M.Ə.Rəsulzadənin hadisələrə nə üçün məhz bu mövqedən yanaşdığının, digər azərbaycanlı ziyalılardan fərqli olaraq ermənilərin hadisələrdə rolu haqqında bir kəlmə belə yazmadığının səbəbini aydınlaşdırmaq cəhdi ilə əlaqədardır. Görünür ki, M.Ə.Rəsulzadənin həmin dövr bölüşdüyü siyasi baxışları onun baş verənləri məhz bu cür qiymətləndirmək mövqeyinə gətirib çıxarmışdır. Lakin proseslərin obyektiv tədqiqi belə qənaətə gəlməyə imkan verir ki, hökumətin iki milləti vuruşdurmaqla öz gizli məqsədlərinə çatmaq niyyəti haqqında irəli sürülən tezislər qırğınların səbəblərini dərindən təhlil etməyə mane olur, hadisələrin günahkarı olan erməniləri bir növ kölgədə qoyur, digər tərəfdən isə həm onların, həm də terrora məruz qalmış azərbaycanlıların günah və məsuliyyət dərəcəsini bərabərləşdirirdi. Bununla belə, etnik münaqişədə çar hökumətinin məsuliyyətini tamamilə inkar etmək fikri də qəbuledilməzdir. Belə ki, ermənilərlə azərbaycanlılar arasında münasibətlərin 1905-ci ildə qanlı silahlı münaqişəyə çevrilməsi səbəblərindən biri (bəlkə də ən başlıcası) elə Rusiyanın apardığı genişmiqyaslı siyasət idi. Məhz Rusiya hakimiyyəti uzun onilliklər qonşu ölkələrin erməni əhalisinin Cənubi Qafqazda kütləvi məskunlaşmasına, diyarın iqtisadi, siyasi və mədəni həyatında möhkəmlənməsinə şərait yaratmış və bunu əksər hallarda azərbaycanlıların hüquq və maraqlarının tapdanması hesabına etmişdi. İmperiya uzun müddət ermənilərin diyarda ağalıq etməsinə göz yumur, Osmanlı dövlətindəki erməni separatizminə maddi və mənəvi dəstək verirdi. Nəticədə isə mövqelərini gücləndirən ermənilər artıq zorakı metodlarla Cənubi Qafqazda da maksimal üstünlüyə nail olmağa qərar verdilər.

Bununla belə, hökumətin Cənubi Qafqazda digər yerli əhaliyə nisbətən ermənilərə daha üstün şərait və şərtlər yaratması heç də birmənalı olaraq erməni-müsəlman qırğınlarının məhz hökumət tərəfindən təşkil olunmasına dəlalət etmir.

“Mərəzimizin çarəsi” məqaləsinin dərc olunduğu “Dəvət-Qoç” qəzetinin növbəti – 20 iyul 1906-cı il tarixli sayında M.Ə.Rəsulzadənin mövzu ilə bağlı daha bir yazısı çıxır. “Bəlayi-əzim” sərlövhəli məqaləsində müəllif Dövlət dumasının buraxılmasından sonra Rusiyada

irticanın yenidən baş qaldırdığına işarə edərək, Qafqazda qırğınların növbəti dalğasını məhz bununla əlaqələndirir, təxribatçıların "gözəl Qafqazı cəhənnəmə döndərməyə, onu yenə də nahaq qanlara boyamağa" başladığını vurğulayır və konkret ad da çəkir – "qoloşşapovlar və onun həməfkarları hərəkət etdilər." (Rəsulzadə, 1992-a: 21). Şuşadan dəhşətli xəbərlərin gəldiyini bildirən M.Ə.Rəsulzadə general-mayor V.N.Qoloşapovun buraya sülh missiyası ilə göndərildiyini sərt tənqid edərək, generalın həmin missiyanı özünəməxsus tərzdə həyata keçirdiyinə işarə edir: "Qoloşşapov da "sülhçü"lüyünü büruzə verib, toplar, tüfənglər, atəşlər ilə sülh etməyə başlamışdır... Atəş, güllə, xəncər, top, tüfəng – bularmıdır sülh aləti? Yağ odu söndürsə, Qoloşşapov ilə də top, tüfənglər ilə sülh çıxarıb narə-ədavəti *(silahlı ədavəti)* söndürərlər." (Rəsulzadə, 1992-a: 22).

M.Rəsulzadə bu məqaləsində V.N.Qoloşşapova birbaşa müraciət edir: "Ey vicdansız Qoloşapov! Bəsdir, bəsdir içdiyiniz insan qanları, bəsdir iki milləti bir-birilə çalışdırıb, sonra hər ikisini də badi-fənaya verdiyiniz! Bu qədər insafsızlıq, vəhşilik olmaz ki, siz edirsiniz!!.. Bu yazıq, sərnigün millətlərdən nə istiyorsunuz. Bunlara nə vermisiniz ki, ala bilmiyorsunuz? İnanın ki, bir vaxt millət mühakiməsinin qabağında durub, tutduğunuz işlərdən sual-cavab olunacaqsınız! Qorxun o gündən ey cəlladlar, ey insan qanına ətşan *(susamış)* olanlar!" (Rəsulzadə, 1992-a: 22).

M.Ə.Rəsulzadənin Qarabağın və Zəngəzur bölgələrinin general-qubernatoru təyin edilən V.N.Qoloşapovu sərt tənqid etməsi əbəs deyildi. Rus generalının münaqişə tərəflərinə eyni cür yanaşmaması, qərəzliliyi, ermənilərin törətdiyi cinayətlərin cəzasız qoyulması və əksinə, azərbaycanlılara qarşı sərt münasibət sonuncuların haqlı etirazlarına səbəb olurdu. 1906-cı ilin iyulunda Azərbaycan ictimaiyyətinin bir qrup nümayəndəsi (Məhəmmədağa Şahtaxtlı, Ömər Faiq Nemanzadə və b.) baş nazir P.A.Stolıpinə müraciət edərək V.N.Qoloşapovun "erməni inqilab komitəsi tərəfindən idarə olunduğu" üçün onun Şuşadan geri çağırılmasını xahiş etdilər (Cabbarov, 2022: 115). Analoji xahişlə P.A.Stolıpinə müraciət edən şuşalılar və Yevlax bəyləri də V.N.Qoloşapovu yalnız şəhərin müsəlman hissəsini atəşə tutmaqda günahlandırırdılar (Cabbarov, 2022: 115). Gəncənin nüfuzlu din xadimi, axund Məhəmmədəli Pişnamazzadə isə H.Z.Tağıyevin adına göndərdiyi teleqramda qeyd edirdi: "nə qədər ki Qoloşapov Şuşadadır, sakitlik gözləmək çətin olacaq." Yelizavetpolluların general-qubernatoru dəyişdirmək xahişi ilə canişinə yazdıqları teleqramlar barədə məlumat verən axund xahiş edirdi ki, H.Z.Tağıyev də eyni məzmunda müraciət ünvanlasın (Cabbarov, 2022: 116). Azərbaycanlıların general-qubernator haqqında aramsız şikayətləri, nəhayət ki, öz nəticəsini verdi və 1906-cı il avqustun sonunda V.N.Qoloşapov vəzifədən kənarlaşdırıldı.

M.Ə.Rəsulzadə "Bəlayi-əzim" məqaləsini sadə insanlara, azərbaycanlılarla ermənilərin "həqiqi sülhpərəst olan füqərayi-kasibə" təbəqəsinə xitabı ilə tamamlayır, onları ayılmağa, səslərini qaldırmağa, etiraz etməyə, "şeytan"ın əlində alət olmamağa çağırır. Maraqlıdır ki, müraciət konkret sosial təbəqəyə – fəhlələrə, kasıblara ünvanlansa da, məhz bu sosial təbəqənin "həqiqi sülhpərəst" adlandırılması sual doğurur, çünki erməni-azərbaycanlı qırğınlarının bütün mərhələlərində məhz aşağı təbəqələr hadisələrin ən fəal iştirakçıları və qırğınların əsas icraçıları idilər. Barışıq, sülhyaratma missiyasını bütün hallarda yalnız ziyalılar, din xadimləri öz üzərlərinə götürürdülər və qırğınların baş verdiyi bütün regionlarda bu belə idi. Görünür, M.Ə.Rəsulzadənin bu misraları yazmaqla tamam başqa məqsədi olub – o, sadə xalqa səslənməklə onu yuxarı təbəqənin əlində alət olmamağa çağırıb, dinc birgəyaşayışa dəvət edib. Məqalənin dərc edildiyi "Dəvət-Qoç" qəzetinin həmin nömrəsində M.Ə.Rəsulzadənin "Növhə" adlı şeiri də çap olunmuşdu. Şeirdəki iki bənd diqqəti cəlb edir:

"...Hökumət mayeyiifsad *(fitnə salma)*,
Ki, qan içməklədirmötad *(vərdiş edilmiş)*.
Bu cəngi eylədi icad,
Ki, etsin bizləri bərbad...
Qədim qonşu, iki millət,
Dolanmış mehrlə hər vəqt.
Nə üz verdi ki, bu hörmət,
Mübəddəl *(dəyişdirilmiş, əvəz edilmiş)* oldu bərxirəd *(fikir)*?" (Rəsulzadə, 1992-g:23).

Göründüyü kimi, M.Ə.Rəsulzadə yenə də qırğınları hökumət tərəfindən qurulan fitnə adlandıraraq, hər iki millətin bu vaxtadək həmişə mehriban yaşadığını vurğulayır və dolayısı ilə onları vuruşduran üçüncü qüvvənin olmasına işarə edir. Qırğınların yenicə başladığı vaxtlarda bu qiymətləndirmə, yəni azərbaycanlılarla ermənilərin əvvəllər sülh və əmin-amanlıq şəraitində yaşaması və hansısa "qara qüvvələr"in hər iki milləti vuruşdurması, düşmən etməsi fikri hardasa anlaşılan idi. Lakin qırğınların daha geniş, daha qanlı və amansız xarakter aldığı 1906-cı ildə bu fikrin təkrarən səsləndirilməsi, ermənilərin qırğınlarda açıq-aşkar həm təhrikedici, həm təşkilatçı, həm icraçı rolunun üzərindən sükutla keçilməsi və ənənəvi "üçüncü qüvvə", "şeytan", "qara əllər" versiyasının təkrarlanması M.Ə.Rəsulzadənin solçu qüvvələrə xas olan qiymətləndirmə ilə həmfikir olduğunu bir daha təsdiq edir.

## 3. M.Ə.Rəsulzadə Qırğınların Nəticələri Və Dərsləri Haqqında

1906-cı ilin sonlarına yaxın Cənubi Qafqazda ermənilərlə azərbaycanlılar arasında qırğınlar və nifaq nisbətən səngiməyə başlamışdı. Bu cəhəti qeyd edən M.Ə.Rəsulzadə

"Təkamül" qəzetinin 16 dekabr 1906-cı il tarixli nömrəsində "Şeytan işinin nəticəsi" adlı məqaləsində yazırdı: "İki millətin ağaları və rəisləri, burjua kirvələr, bəylər və xanların arasında olan rəqabəti-iqtisadiyyə ilə hazırlanmış bir zəmində hökumət dəsti-qəddaranəsilə edilən erməni-müsəlman hadiseyi-facianəsi lillahülhəmd *(allaha şükür)* intihayə üz qoymaqdadır. Hər iki millətin ümumi arasında sülhpərəstlər artıb, millət xainlərinin, iki camaatin çəkişməsində, dalaşıb vuruşmasında öz səadət və rifahını düzəldən müftin və fəsadçıların arzu və istədiklərinin xilafi olaraq, hər iki tərəf də ataş və qılıncdan əl cəkib... İndi hər bir türk və erməni keçmiş qara günləri yadına salıb, o əqilsizlik, o vəhşaniyyət, o düşmənin hiyləsinə allanıb, öz əli ilə özünə quyu qazdığı məlanətli, nifrətli dövrü ürək yanğısı, cigərsuzişi ilə yad etməkdədir." (Rəsulzadə, 1992-h: 71).

M.Ə.Rəsulzadənin bu məqaləsində bir hissə xüsusi maraq kəsb edir. O, yazır: "..."şeytan" əlilə yapılan erməni-müsəlman müqatiləsi...bizə bir böyük səfalət, tükənməz fəlakət, yaddan çıxarılmayan rəzalət və həlakətyetirməkdədir. Budur, Qarabağ dağılmış, Zəngəzur talan olunmuş, yüzlərcə erməni və müsəlman kəndləri yağmaya getmiş, əkinəcəkləri əkməyə nə vaxt olub, nə də yerə səpməyə dən tapılmış. Minlərlə binəvalar çöllərdə qalıb "acından öldük, soyuqdan qırıldıq, eyinsanlar bizə imdad!" – deyə fəryadlarını asimana bülənd ediyorlar... Budur "şeytan" işinin nəticəsi! Budur "millətçiliyin" səmərəsi, budur müxtəlif maskalar altında gizlənən firqələrin zalimanə qəti-rəhmanə işləri!" (Rəsulzadə, 1992-h: 72). M.Ə.Rəsulzadə bu sözlərlə hökumətlə yanaşı ilk dəfə qırğınların baş verməsində dolayısı ilə, ad çəkmədən erməni millətçilərini də günahlandırır, sosial-demokratların inkar etdiyi "millətçiliyi" tənqid edir.

M.Ə.Rəsulzadə qırğınlardan zərər çəkmişlərə ianə toplamağın, yardım göstərməyin zəruriliyini vurğulayır. Amma təkcə bununla kifayətlənməməyi, hökumətdən də kömək göstərilməsinin tələb edilməyin zəruriliyini əsaslandırır: "Belə bir məqamda hökumətin borcudur ki, əhaliyə kömək edib onun dadına çatsın. Hökumət fəqət bundan ötrüdür ki, camaatə dar gündə kömək edib onu hər bir xətalardan mühafizə etsin. Lakin bizim hökumətimizdən bu vaxtadək camaatə nisbət bir kömək, bir ianə görünməyib və gözlənmir. Gərək biz camaat, biz Qafqaz camaati, vətənimizin səadət və gələcəyini nəzərə alıb, hökumətdən istəyək ki, bu fəlakətzadələrə töycünü bağışlamaqla onlara əkmək üçün dən verməklə, ucuz qiymət ilə məişət ləvazimatı satmaqla və ümumi işlər açmaqla kömək etsin!!" (Rəsulzadə, 1992-h: 73).

Nəhayət, M.Ə.Rəsulzadənin erməni-azərbaycanlı qırğınlarına dair sonuncu, "Milliyyət məsələsi" adlı məqaləsi "Təkamül" qəzetinin 16 dekabr 1906-cı il tarixli sayında dərc olunur. Bu məqalədə də M.Ə.Rəsulzadə özünün inqilabi ruhlu mövqeyinə sadiq qalaraq çar mütləqiyyətini baş vermiş qırğınların əsas təşkilatçısı sayır və həmin dövr bütün mətbu

çıxışlarında olduğu kimi hədəf seçdiyi Rusiya istibdadının milli məsələdə də ən qədim və köhnə üsullarından birini istifadə etdiyinə diqqət çəkərək yazır ki, imperiya "özünə tabe olan millətləri bir-biriləyağılaşdırıb və tutuşdurub və bununla müxtəlif millətlər arasında ziddiyyət və düşmənçilik salıyordu." (Rəsulzadə, 1992-f: 73). Belə ki, M.Ə.Rəsulzadəyə görə: "Hökuməti-mütləqə, yəni istibdad hökuməti, polisənin köməyi ilə qətl və qarətlər düzəldib cəmaətin əclaflarını Cənubi Rusiyada yəhudilərin, Qafqazda müsəlman və ermənilərin üstünə qalxızdı. Hökumət bu siyasəti ilə istiyordu ki, həmin bu üsul ilə çomaq və qorxu idarəsinin üzərinə cəmaət qəlbində olan nifrət və narazılığı yadlarından çıxarıb, məxluqi bir-birlərinə məşğul edərək özü asancasına tamam millətlərin üstündə sual və cavabsız hökm sürsün." (Rəsulzadə, 1992-f: 74).

**Sonuç**

Beləliklə, Azərbaycanın XX əsr tarixində baş vermiş ən faciəli hadisələrdən biri – 1905-1906-cı illər erməni-azərbaycanlı qırğınları dövrün digər mühüm hadisələri kimi Məhəmməd Əmin Rəsulzadənin publisistikasında öz əksini tapmışdır. Milli münaqişənin səbəb və gedişinə dair birmənalı, bəzən ziddiyyətli yanaşmaları ilə bərabər M.Ə.Rəsulzadə bu mövzuya həsr etdiyi məqalələrində Cənubi Qafqazda mövcud olan milli, sosial, siyasi problemləri göstərmiş, xalqlar arasında sülhün və əmin-amanlığın ardıcıl tərəfdarı kimi çıxış etmişdir.

**Kaynakça**

Cabbarov, F. (2022). *Qarabağda və Zəngəzurda ilk erməni-azərbaycanlı münaqişəsi (1905-1906).* Bakı: Təhsil.

Rəsulzadə, M.Ə. (1992-a). Bəlayi-əzim. *Əsərləri. I cild.* Toplayanı, tərtib və transliterasiya edəni Şirməmməd Hüseynov. Bakı: Azərnəşr.

Rəsulzadə, M.Ə. (1992-b). Daşnaksutunçuya rəddiyyə. *Əsərləri. I cild.* Toplayanı, tərtib və transliterasiya edəni Şirməmməd Hüseynov. Bakı: Azərnəşr.

Rəsulzadə, M.Ə. (1992-c). Kənddə müsibət. *Əsərləri. I cild.* Toplayanı, tərtib və transliterasiya edəni Şirməmməd Hüseynov. Bakı: Azərnəşr.

Rəsulzadə, M.Ə. (1992-d). İki nüktə. *Əsərləri. I cild.* Toplayanı, tərtib və transliterasiya edəni Şirməmməd Hüseynov. Bakı: Azərnəşr.

Rəsulzadə, M.Ə. (1992-e). Mərəzimizin çarəsi. *Əsərləri. I cild.* Toplayanı, tərtib və transliterasiya edəni Şirməmməd Hüseynov. Bakı: Azərnəşr.

Rəsulzadə, M.Ə. (1992-f). Milliyyət məsələsi. *Əsərləri. I cild.* Toplayanı, tərtib və transliterasiya edəni Şirməmməd Hüseynov. Bakı: Azərnəşr.

Rəsulzadə, M.Ə. (1992-g). Növhə. *Əsərləri. I cild.* Toplayanı, tərtib və transliterasiya edəni Şirməmməd Hüseynov. Bakı: Azərnəşr.

Rəsulzadə, M.Ə. (1992-h). Şeytan işinin nəticəsi. *Əsərləri. I cild.* Toplayanı, tərtib və transliterasiya edəni Şirməmməd Hüseynov. Bakı: Azərnəşr.

Rəsulzadə, M.Ə. (1992-i). Yenə də müsibətmi?! *Əsərləri. I cild.* Toplayanı, tərtib və transliterasiya edəni Şirməmməd Hüseynov. Bakı: Azərnəşr.

Vəzirov, A. (1906). Qarabağ əhvalatı. *İrşad.* S:14.

Галоян, Г.А. (1969). Сила интернационального единства (к событиям в Закавказье в начале 1905 года). *Историко-филологический журнал.* S:1.

Джаббаров, Ф (2018). *Армянский экстремизм на Южном Кавказе: вторая половина XIX- начало XX вв.* Баку: TEAS Press.

BENGİ
Dünya Yörük-Türkmen Araştırmaları Dergisi
BENGİ World Journal of Yörük-Türkmen Studies
https://dergipark.org.tr/tr/pub/bengi
ISSN: 2717-6584

# Mehmet Emin Rasulzade Düşününde Kafkasya Birliği ve Ermeniler

## Caucasian Union and Armenians In the Thought of M.E. Rasulzade

**doi**: 10.58646/bengi. 1462015

**Geliş/Received:** 30 Mart 2024 **Kabul/Accepted:** 01 Mayıs 2024

**Sevindzh Alieva***

**Özet**

Mehmed Emin Resulzade'nin doğumunun 140. yıl dönümünde, onun ülke tarihindeki rolü ve faaliyetlerine ilişkin sorular yeniden gündeme gelmiştir. Onun Azerbaycan Demoktratik Cumhuriyeti, Ermeniler ve Kafkasya Birliği`ne olan yaklaşımıdaha çok ilgi çeken konulardandır. Özellikle Ermenistan ve Azerbaycan arasındaki ilişkiler, cumhuriyetlerin tanınması, Kafkasya'da Konfederasyon kurgusu meselesinde Ermenilerin eleştirisini görmek mümkündür. Fakat onların eleştirilerinin gerekçesiz olduğunu belirtmek gerekmektedir. Resulzade'yi Nazi Almanyası ile işbirliği yapmakla suçladılar ve bundanbaşka suçlayacak veya eleştirecek bir şey bulamadılar. Böyle asılsız varsayımlar elbette ciddiye alınmamalıdır. Peki Resulzade neden Ermenilerin bu tepkilerine odak noktası olmuştur? Bunun için 20. yüzyıl Azerbaycan tarihine dair önemli bir kaynak olan Mehmed Emin Resulzade'nin kendi eserlerine bakmak gerekmektedir. Eserlerde onun Ermenilere ve Ermeni meselesine ve Kafkasya'nın birleştirilmesine yönelik planlarını görebiliriz. Tüm bu konular çalışmada tartışmaya açılmaktadır.

**Anahtar Kelimeler**: Resulzade, Azerbaycan, Kafkasya Birliği, Ermenistan.

---

* **Sorumlu Yazar/Corresponding author**: Prof.Dr., Azerbaijan State Pedagogical University, e-posta: sevincaliyeva2000@gmail.com. Orcid: 0000-0003-0374-8551.

**Atıf/Citation:** Alieva, S. (2024). Mehmet Emin Rasulzade Düşününde Kafkasya Birliği ve Ermeniler. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi, 2024 (2), 220-236.

**Abstract**

On the 140th anniversary of Mehmed Emin Resulzade's birth, questions regarding his role and activities in the country's history have come to the fore again. His approach to the Azerbaijan Democratic Republic, Armenians and the Caucasus Union are among the issues that attract more attention. It is possible to see the criticism of the Armenians, especially on the issues of relations between Armenia and Azerbaijan, the recognition of these republics, and the Confederation fiction in the Caucasus. However, it should be noted that their criticisms are unjustified. They accused Resulzade of collaborating with Nazi Germany and found nothing else to blame or criticize. Such unfounded assumptions of course should not be taken seriously. So why did Resulzade become the focal point of these reactions of the Armenians? For this, it is necessary to look at Mehmed Emin Resulzade's own works, which are an important source on the history of 20th century Azerbaijan. In his works, we can see his plans for Armenians, the Armenian issue and the unification of the Caucasus. All these issues are brought up for discussion in the study.

**Keywords**: Rasulzade, Azerbaijan, Caucasus Union, Armenia.

## Giriş

20. yüzyılın başında Rusya İmparatorluğu'nun sosyo-ekonomik, politik, ulusal-kültürel sorunları daha da şiddetli hale geldi.Ulusal farkındalık, siyasi hareketlilik, mevcut durumdan genel memnuniyetsizlik ve toplumun ileri gelen kesiminin yeni hukuki devlet modelleri kurgulama, mevcut toplum modelinde değişiklikler gerçekleştirme arzusunda bir artış gözlemlenmektedir. Buna toplumdaki sosyo-politik eğilimlerin oluşmasını, aydınlanma hareketinin ve reform ıslahatlarının ortaya çıkmasını (19. yüzyılın ikinci yarısı - 20. yüzyılın başı) ve kapitalist ilişkiler ve burjuva-demokratik reform taleplerinin ortaya çıkışını eklediğimizde ülkenin geldiği durum daha iyi anlaşılacaktır.

Bu süreçler, büyük Rusya İmparatorluğu'nun valiliklerinden biri olan Kafkasya'yı da etkiledi. Kafkasya'nın uzun ve kanlı işgali, reform girişimleri, sömürgeleştirme ve Ruslaştırma politikalarının uyumsuzluğu 20. yüzyılın başlarında etkisini göstermeye başladı. Bütün bunlar, önde gelen ulusal halk figürlerini mevcut koşulları modernleştirmenin yollarını aramaya zorladı. Eğitim sisteminin modernleştirilmesi ihtiyacı ortaya çıktı. Ulusal basının oluşturulması, ulusal eğitim kurumlarının açılması, ulusal dillerin öğretilmesi konusu, Müslüman halklar ile Hıristiyanların eşit haklara yönelik çağrıları ve özgürlük talepleri giderek daha fazla dile getirildi. Güncel sorunlar tartışıldı ve yayımlar aracılığıyla siyasal, toplumsal ve ulusal düşünce şekillenmeye başlandı. Halkta milli duygular uyandı.

Kafkasya'nın Müslüman milletleri arasında bağımsızlık için ulusal kurtuluş mücadelesi düşüncesini oluşturan ve daha sonra buna öncülük eden önde gelen halk figürleri işte bu koşullar altında büyüdü. Bu ulusal liderlerden biri de Mehmed Emin Resulzade'ydi.

Resulzade, 1904 yılında kurulan ilk Azerbaycan siyasi birliği "Hümmet"in kurucularından biridir. Bu örgüt Rus okullarında okuyan Azerbaycanlı gençlerden oluşmaktaydı. "Örgütümüzün mensuplarında milli duyguları uyandırmaya çalıştık, anadilimizi, edebiyatımızı inceledik, Çarlığı kötüleyen şairlerimizin eserlerini okuduk, işçiler arasında devrimci ve ulusal içerikli broşürler dağıttık." (Свентоховский, 2001: 18). M.E. Resulzade, Rus İmparatorluğu'nun temellerini sarsan 1905-1907 devrimine katılanlardan biriydi. RSDİP (Rusya Sosyalist Demokrat İşçi Partisi) ve Hümmet'in beş bölgesel örgütünün toplantısına katıldı.

Aralık 1906-Mart 1907'de Bakü'de "Tekamül" adında bir Müslüman gazetesini çıkardı. Resulzade, devrin pek çok düşünürü gibi fikir ve kanaatlerini sadece gazete yazılarıyla değil, sanatıyla da dile getirmiştir.Şiirler ve oyunlar yazdı.1908 yılında "Karanlıktaki Işıklar" adlı oyunu sahnelendi ve diğer "Nagehan Bela" adlı oyunun çalışmaları tamamlandı.

Resulzade kendisinin de belirttiği gibi her türlü ilerlemenin temel kaynağı olan milli şuurun uyanmasına büyük önem veriyordu. O, 1913 yılından itibaren Müsavat partisinin ideoloğu oldu.

Şubat devrimi sonrasında Rusya Demokratik Cumhuriyeti'nin federalizminden bahseden M.E. Resulzade, Rus devletinin evrensel değerlere ve onu oluşturan ulusların gelişim özgürlüğüne dayanması gerektiğini belirtmekteydi. M.E. Resulzade'ye göre bağımsız bir Azerbaycan için milli bağımsızlık gerekliydi. Bu düşüncenin altında demokratik ulusal devlet inşası yatmaktaydı.

ADC (Azerbaycan Demokratik Cumhuriyeti), Müslüman Doğu'da dinin devletten ve ayrılmasına dayanan ilk cumhuriyet oldu. O dönemin halkının dini bilincini de hesaba katarsak, bu ancak M.E. Resulzade'nin önderlik ettiği milli seçkinlerin Avrupa demokratik standartlarına olan sadakatiyle mümkündü (Абасов, 2001: 287).

Resulzade'in hizmeti, terakki ve milli kimlik kavramının geliştirilmesiydi. "Millet" kavramı, dini bir topluluk olan "ümmet" kavramından farklıdır: "dil, din, edebiyat, tarih ve geleneklerle birleşmiş bir insan topluluğudur. "Millet, M.E. Resulzade'nin haklı olarak belirttiği gibi, farklı bir toplumun en üst seviyesidir.

M.E. Resulzade'nin sosyalist görüşlerden ayrılışı sürgünde bulunduğu döneme denk gelmiş ve memleketine döndüğünde "İkbal" ve "Yeni İkbal" gazetelerinin sayfalarında yayınlanan yazılarla bunu belirtmiştir.

Resulzade, Türkçe`yi yabancı kelimelerden arındırılmış bir dil olmasını istiyordu. Hatta gazetelerin bu dilde basılmasına özen göstermekteydi (История общественно-культурного реформаторства на Кавказе и в Центральной Азии, 2012: 185, 276, 297, 300). M.E. Resulzade, bilim ile din arasında hiçbir fark olmadığını savunmakta, milli kültür ile millet kavramlarını eşit olarak görmekteydi.Ulusal kültürü küresel kültürün bir parçası olarak kabul ediyordu. M.E. Resulzadey'e göre Müslüman halkların kültürel geri kalmışlığının nedeni, tüm kültürlerin birliğini sağlayan ve dünyanın geri kalanından izole olmasına yol açan dini algıların sağlam dini temellerden ayrılmasında görüyordu. O, halk kültürünün ulusal sınırlar içinde

kalmaması gerektiğine, diğer milletlerin kültürleriyle sürekli etkileşim halinde olması gerektiğine inanıyordu. Düşünür, laik eğitim veren yeni usul okulların da kurucularındadır. Resulzade, hem Doğu hem de Rus ve Avrupa edebiyatını ve kültürünü bilmeyi söylüyordu. Aynı zamanda milli şair ve yazarlarımızı yetiştirmek ve incelemek gerektiğini dedüşünüyordu (Расулзаде, 2010: 27).

A. Hüseyinzade ve Ziya Gökalp'in Türk halkının modernleşmesine ilişkin görüşleri, M.E. Resulzade'nin çıkardığı, Azerbaycan milli düşüncesinin ve Türklüğünün ana propaganda organı olan "Açık Söz" gazetesinin ilk sayısında verilmişti. M.E. Resulzade, ütopik Turan düşüncesinden vazgeçerek ortak kültürel Türk değerlerine odaklanmayı tercih etmekteydi.M.E. Resulzade köklü demokratik değişimlerin destekçisiydi (Азербайджанская Демократическая Республика (1918-1920). Парламент, 1998: 40).

**1. Kafkasya Birliği**

M.E. Resulzade, Moskova'da düzenlenen Birinci Tüm Rusya Müslümanları Kongresi'nde Müsavat partisinin başkanı olarak konuşma yapmış ve Rusya Demokratik Cumhuriyeti'nin federal ilkelerinden bahsetti. Nisan 1917'de Kafkas Müslümanlarının Birinci Kongresi'nde bölgesel özerklik taleplerini dile getiren kişi de M. E. Resulzade'ydi. Ve bu düşünce başarılı oldu.Moskova Kongresi'nin ardından sadece Kuzey Kafkasya'da değil, Azerbaycan'da da önemli bir olay yaşandı. 12 Mayıs'ta Gence'de Türk Federalist Partisi'nin kuruluş toplantısı yapıldı. 3 Haziran 1917'de federalistler ile Müsavat partisinin birleşmesiyle Türk Demokratik Federalist Fırkası Müsavat kuruldu. Kabul edilen bildirgede kitlelerin ekonomik ve sınıfsal çıkarlarının yanı sıra Türk halklarının ve Rusya'nın diğer halklarının ulusal ve kültürel özlemlerinin korunması gibi konular yeni partinin amacı olarak verilmişti. Rus kamuoyuna göre Türk milliyetçi örgütünün oluşumu Türkiye'nin çıkarları ve Türkçülük düşüncesiyle ilintiliydi. Müsavat`ın 1. Kurultayında (26-31 Ekim, Bakü) M.E. Resulzade, Müsavat Türk Demokratik Federalist Partisi Merkez Komite Başkanlığına seçildi (Алиева, 2013: 25-33).

Tüm Rusya Kurucu Meclisi'ne milletvekili seçildi.Ocak 1918'de Kurucu Meclis'in Bolşevikler tarafından feshedilmesinin ardından Transkafkasya'dan gelen milletvekilleri Tiflis'te toplandılar ve Şubat 1918'de M.E. Resulzade'nin de katıldığı Transkafkasya Seymi'ni kurdular. 26 Mayıs'ta Gürcistan heyeti, Seym'i terk ettiğini ve bağımsız bir devlet kurduğunu duyurdu. 27 Mayıs'ta Müslüman fraksiyonunun olağanüstü toplantısında M.E. Resulzade

başkanlığında Geçici Milli Şura kuruldu.28 Mayıs 1918'de Milli Şuranın ilk toplantısında Azerbaycan`ın cumhuriyetçi siyasi yapıya sahip bağımsız demokratik bir devlet olduğu ilan edildi.Başbakan F.H. Hoyski başkanlığında Azerbaycan Cumhuriyeti Birinci Hükümeti kuruldu.Resulzade 28 Mayıs 1918'de Azerbaycan Halk Cumhuriyeti'nin oluşması sürecini başlatmasına rağmen lideri seçilemedi. Şunu da belirtelim ki, Bakü dahil Azerbaycan topraklarının bir kısmının, Azerbaycan Cumhuriyeti'nin bağımsızlığını tanımayan ve onu tehdit eden Bakü Halk Komiserleri Sovyeti'nin (Bakü Komünü) kontrolü altındaydı.

M.E. Resulzade, hükümet ve parlamentonun aldığı tüm kararlarda ve güncel tüm tartışmalarda aktif rol aldı.Mesela Türk birliklerinin davet edilmesi, ADC'nin başkentinin Bakü'ye taşınması, Bakü Devlet Üniversitesi'nin açılması, ulusal nitelikli kadro yetiştirilmesi ve bilimin geliştirilmesi, Azerbaycan dilinin devlet dili olarak ilan edilmesi vb.

M.E. Resulzade, Kafkasya'nın Azerbaycan, Gürcistan, Ermenistan ve Kuzey Kafkasya'yı içerecek bir birlik devleti altında birleştirilmesini desteklemekteydi (Азербайджан, 1918: № 33). 1918-20 yıllarında Kafkasya'daki devlet kurumlarının birleştirilmesi yönünde çeşitli fikirler ortaya çıktı. O dönemde düşünür şunları söylemişti:" Azerbaycan'ı Kafkasya'nın konfedere bir parçası olarak, Azerbaycan, Ermenistan ve Kuzey Kafkasya'yı da içermesi gereken bir birlik devleti olarak hayal ediyorum..." (Азербайджан, 1918: № 33).

M.E. Resulzade, ADC`nin Kızıl Ordu'nun tarafından işgalinden sonra tutuklandı (Мамед ЭминРасулзаде. Сборник произведений и писем, 2010: 9, 19). Halk Komiserliği başkanı İ.V.Stalin'in emriyle M.E. Rasulzade serbest bırakıldı ve Moskova'ya gönderildi. 29 Kasım 1920'de M. E. Resulzade, Stalin'in tavsiyesi üzerine Halk Komiserliği'nde basın komiseri olarak işe başladı. Bununla birlikte o, Halk Komiserliği'ne bağlı Moskova Şarkiyat Enstitüsü'nde Farsça dersleri veriyordu.

1922 yılında M.E. Resulzade gizlice Petrograd'dan Finlandiya'ya, oradan Fransa'ya, sonra da Türkiye'ye kaçtı.M.E. Resulzade, İstanbul'da "Azerbaycan Cumhuriyeti" kitabını yayınladı (1923). 1923-27 yıllarında M.E.Resulzade'nin editörlüğünde İstanbul'da "Yeni Kafkasya" dergisi yayımlandı.Moskova'nın protestolarının ardından dergi kapatıldı ve M. E. Resulzade Avrupa'ya gitti. Bir süre Varşova ve Berlin'de yaşadı. Müsavat Partisinin Dış Temsilciliğine ve Milli Azerbaycan Merkezi Başkanı oldu.O, uluslararası örgüt

“Prometheus”un bir üyesiydi ve burada Rusya’nın zulmettiği milletlerin temsilcilerinden biriydi (Расулзаде, 2010: 9, 19).

M.E. Resulzade sürgünde Kafkas Konfederasyonu fikrini savunmaya devam etti.1922 yılının sonlarında İstanbul’a dönen M.E. Resulzade, Kafkasya’nın birleştirilmesi konusunda Türk hükümetinden destek almaya çalışıyordu.Ona göre “siyasi ve hatta daha fazla ekonomik fırsatlara sahip bağımsız bir Kafkasya, uluslararası dünya siyaseti açısından büyük önem arzedecektir.” (Расулзаде, 1930: 62).

M.E. Resulzade, Türk hükümetine Kafkasya muhacirlerini koordine etmeyi önerdi. Ekim 1924’te İstanbul’da Kafkas göçmenlerinden tarafından Kafkas Federalistleri Komitesi kuruldu. Ekim-Kasım 1924’te Paris’te Azerbaycan, Gürcistan ve Kuzey Kafkasya temsilcileri Kafkas Konfederasyonu şeklinde bir devlet birliğinin kurulması yönünde karar kabul etti. Ermeniler ise bu fikri tartışmayı bile reddetti. Ekim 1924’te İstanbul’da Kafkas Konfederalistleri Komitesi kuruldu. Hatta bir noktada bu düşünceye Türk makamlarında da ilgi uyandırmayı başardı. Ancak Türk-Sovyet ilişkileri ısındıkça, özellikle iki ülke arasında 17 Aralık 1925’te dostluk ve tarafsızlık anlaşması imzalandıktan sonra Ankara bu konuya olan ilgisini tamamen kaybetti. O andan itibaren M.E. Resulzade, Kafkasya’nın birleşmesi düşüncesiyle ilgilenen Avrupalı temsilciler ile aktif olarak işbirliği yapmaya başladı (Алиева, 2020: 14-18).

Komite daha sonra Paris’e taşındı.Kafkasya ve Ukrayna halklarının savunmasına yönelik yayın organı olan “Prometheus” dergisinin ilk sayısı orada çıktı.Bu dergi Haydar Bammat’ın Paris’teki dairesinde derlenmiş ve adını onun kişisel girişiminden almıştır. Haziran 1925’te Paris Kafkas Komitesi, birleşik bir Kafkas Komitesi’nin kurulmasına önayak oldu. Nihayet 15 Haziran 1926’da İstanbul’da Kafkas İstiklal Komitesi (KİK) kuruldu.Komitenin üyeleri bunlardı: M.E. Resulzade, M. Vakilov (Azerbaycan’dan), Said Şamil ve Alihan Kantemir (Kuzey Kafkasya’dan), N. Ramişvili ve N. Magalaşvili (Gürcistan’dan). M.E. Resulzade’nin anılarında “Kafkas İstiklal Komitesi’nin İstanbul’da örgütlendiği ve buna Kafkas Konfederasyonu fikrini savunan Azerbaycan’ın temsilcilerinin aktif olarak katıldığı” söylenmektedir (Расулзаде, 2010: 140). Türk yönetiminin sergilerdiği tavır nedeniyle komite, faaliyetlerini Paris’e taşıdı.14 Temmuz 1934’te Brüksel’de düzenlenen Kafkas halkları konferansında Kafkas Halkları Konfederasyonu’nun kurulmasına ilişkin anlaşma imzalandı.

1930 yılında Resulzade, “Kafkas Dağlıları” dergisinde yayınlanan “Kafkas Birliği Sloganı Altında” başlıklı makalesinde şunları söylemektedir:” Kafkas halklarının birliği ve Kafkas Konfederasyonu’nun bağımsızlığı fikrinin uygulanmasının gerekliliğine dair tam anlayışımız, nihai zaferimizin kesin garantisidir.”

Ocak-Şubat 1935’te Paris’te Prometheus hareketinin Kafkasyalıların yönetim organının reformu üzerine bir konferans toplandı. KİK kaldırıldı ve Kafkas Konfederasyonu Konseyi (KKK) kuruldu (bir tür sürgündeki pan-Kafkasya hükümeti). Başkanlık Divanı, üç Kafkas cumhuriyetinin her birinden bir temsilciyi içeriyordu (Azerbaycan’dan M.E. Resulzade).

M.E. Resulzade ve onun gibi düşünenler Avrupa ülkelerinin yardımına güvenmekteydiler. Resulzade, Kafkasya siyasi göçünden oluşan tek bir koalisyon oluşturmaya çalışmaktaydı. O, Gürcü ve Kuzey Kafkasyalı siyasi muhacirlerle birlikte 11-16 Aralık 1952 tarihleriarasında Münih’te bir Pan-Kafkasya konferansı düzenledi. Tüm muhacir örgütlerinin faaliyetleri 1934 Kafkas Cumhuriyetleri Konfederasyonunun Kuruluşuna İlişkin Pakt’ın ana hükümlerine göre yönlendirildiğini belirtmek gerekir (Балаев, 2009: 196-197, 208, 215-216; Абуталыбов, 2011: 30-35).

M.E. Resulzade ömrünün sonuna kadar tüm Kafkasya’nın birleştirilmesi fikrini destekledi. Fikirlerini sadece makale ve kitaplarında dile getirmekle kalmıyor, aynı zamanda Avrupa’da bu konuda konuşmalar da yapıyordu.

M.E. Resulzade, Azerbaycan’ın ve tüm Kafkasya’nın bağımsız yaşamasının ve kalkınmasının gerekliliğini göstermeye çalışmaktaydı (Расулзаде, 2010: 13-14, 22, 31).Kafkasya’nın kaderini ve Kafkasya’da Türklüğün ortaya çıkışını anlatıyordu.Çarlığı ve tiranlığı devirme, hak ve özgürlük talep etme fikri böyle doğdu.M.E. Resulzade, “Türklerin birleşmesi fikrinin Azerbaycan’ın Kafkasya Konfederasyonu’na girmesine engel olamayacağına” inanıyordu (Расулзаде,1930: 7). Aynı zamanda Azerbaycanlılar da ayrı bir ulusal devlet kurmaya çalışıyordı.

M.E. Resulzade, kendisinin ve arkadaşlarının Rus halkına karşı hiçbir düşmanlığının olmadığını, hatta onlar için “iyi dileklerde” bulunduğunu vurguladı.O, “bizi kendi arabasına bindirmeye zorlayacak ve hayatlarımızı istediğimiz şekilde inşa etmemizi ve kültürel gelişimimizi engelleyecek Rus emperyalizminin düşmanıydı.”Rusya’ya sadakat Kafkasya’nın bağımsızlığıyla bağdaşmıyordu (Расулзаде, 1930: 4, 8-9).

Hatırlayalım ki Ekim 1917'den sonra Kafkasya bölgesinin önde gelen temsilcileri Güney ve Kuzey Kafkasya'da bağımsız siyasi kurumların oluşmasında aktif rol almışlardı. Ancak Kafkas Konfederasyonunun kurulması amacıyla yapılan görüşmeler sonuçsuz kaldı.Tarihigelişmeler, Kafkasya'nın ilk devlet yapısı olan Transkafkasya Seymi'nin 20. yüzyılın başında uyumsuzluğunu göstermiştir.Kafkasya konferansına yönelik girişimler bile Azerbaycan ile Ermenistan, Ermenistan ile Gürcistan arasındaki toprak anlaşmazlıkları nedeniyle başarısızlıkla sonuçlandı.Gürcülerin Azerbaycan'a yönelik toprak iddialarına rağmen Denikin tehlikesi nedeniyle 16 Haziran 1919'da Azerbaycan ile Gürcistan arasında askeri-savunma konusnda anlaşması imzalandı.

Birleşme projeleri yalnızca Azerbaycan ile Dağlı Cumhuriyeti arasında tartışıldı, ancak tarihi olaylar nedeniyle tam hayata geçirilemedi. Gerçi bu iki devleti birbirine bağlayan projeler defalarca hazırlandı.Kafkasya'nın geri kalan devlet ve siyasi kurumlarının Kafkasya bölgesinin birleşmesi için en azından teorik bir proje ortaya koyamaması, bu cumhuriyetlerin çöküşünü önceden belirledi.Ancak Kafkasya'nın birleşmesi ve bağımsızlığı kurgusu, Kafkasya muhacirleri arasında tartışmalı da olsa uzun süre müzakere konusu olmuştur.Sonuçta her cumhuriyet birer birer düştü.Birleşme fikri, M.E. Resulzade'nin hayatı boyunca savunduğu güvenlik ve bağımsızlık amacını koruyabilen güçlü, bağımsız bir devletin yaratılması anlamına geliyordu.

1928'de Varşova`da, Rusya'dan gelen ulusal muahcir gruplarından oluşan bir topluluk - Rusya'nın Ezdiği Halklar Birliği "Prometheus", kuruldu (merkezi Paris'). Önce M.E. Rasulzade, ardından da Kuzey Kafkas Dağlıları Halk Partisi'nden Tausultan Şakmanov buraya liderlik etmişti (Расулзаде, 2010: 140).

Amerikan Senatosu'nun 23 Nisan 1929 tarihli özel komisyon tasarısına göre, Amerika Birleşik Devletleri Başkanı, "Kafkas cumhuriyetlerinin (Gürcistan, Azerbaycan ve Kuzey Kafkasya) ulusal hükümetlerine, geçici olarak görev yapmak zorunda kalacak bir diplomatik temsilci atayabilirdi fakat onların topraklarını Bolşeviklerin işgali altındaydı."(Расулзаде, 2010: 140).

14 Temmuz 1934'te Brüksel'de Kafkas halklarının bir konferansı düzenlendi. Azerbaycan'ı M.E. Resulzade ve A. Topçubaşov, Kuzey Kafkasya`yı Çulikov, Şakmanov ve Sunjev temsil etti. Kafkas Halkları Konfederasyonu'nun kurulmasına ilişkin anlaşma imzalandı. Belgede varılan anlaşmanın şu noktaları açıklandı:

1) Konfederasyona dahil tüm cumhuriyetlerin çıkarına olacak dış politika, ilgili yetkilere sahip kurum tarafından uygulanacaktır.
2) Konfederasyonun sınırlarının savunulması, genel komuta altındaki milli ordulardan oluşan silahlı kuvvetlerine emanet edelecektir.
3) Anlaşmaya imza atanlar arasındaki tüm anlaşmazlıklar, tahkime veya kararları bağlayıcı olan Konfederasyon Yüksek Mahkemesine götürülecektir.
4) Anlaşmaya taraf olanların oluşturduğu uzman komite, Konfederasyon tüzüğü taslağını hazırlamaya başlayacak ve bu taslak kongrede tartışmaya sunulacaktır.

Başkanlık Divanı'nda Azerbaycan (M.E. Resulzade), Gürcistan (K. Jordaniya) ve Kuzey Kafkasya'dan (M.G. Sunjev) temsilciler yer aldı.

1939 yılında Alman hükümeti Berlin'de Dr. Ahmeteli'nin önderliğinde "Gürcü Bürosu"nu kurdu. Daha sonra "Kafkasya Bürosu" adını aldı. Almanya'da "Özgür Kafkasya" planı hazırlandı.15 Nisan 1942'de Almanya'nın "eşit müttefiki" statüsünü alan Ermenistan, Gürcistan, Azerbaycan ve Kuzey Kafkasya halklarının Özgürlük Komiteleri kuruldu. "Kafkasya" Reichscommissariat'ına şunların dahil edilmesi planlandı:

- Gürcistan ve Azerbaycan SSC,
- Stavropol bölgesi,
- Tüm Kuban,
- Kabardey-Balkar ve Terek'e komşu bölgeler - Çeçenistan-İnguşetya,
- Kabardey-Balkar ve Dağıstan.

Ağustos 1942'de Çeçenistan-İnguşetya'da Sovyet yönetimine karşı ayaklanmalar başladı. Bundan önce bölgede 1920-30'lu yıllarda da ayaklanmalar gerçekleşmişti.

Mahirbek Şeripov (1943'te öldürüldü) liderliğindeki Çeçen isyancılar Sovyetler Birliği'ne savaş ilan etti.Kasım 1941'de Kabardey-Balkar, Kuzey Osetya, Çeçenistan-İnguşetya ve Dağıstan topraklarında isyanlar ve protestolar başladı.Ocak 1942'de Çeçenistan lideri Hasan İsrailov'un (Terloyev) önderliğinde, Kafkasya'da özgür Federal Cumhuriyet yaratmak amacıyla askeri-siyasi bir örgüt kuruldu - Kafkas Kardeşlerin Özel Partisi (Alman mandası altındaki Kafkasya kardeş halkları). Kuzey Kafkasya halklarının temsilcilerinden Kuzey Kafkasya topraklarına asker gönderilmesi planlandı (Абрамян, 2006: 19-132). Fakat

Alman askeri yönetiminin planlarında Kafkasya bölgesindeki durum dikkate alınmadı.Kafkasya'nın pek çok halkı faşistlerle işbirliği yapmakla suçlanarak baskılara maruz kaldı ve yaşadıkları yerlerden sürüldü.Aynı zamanda Kafkasya halkları, İkinci Dünya Savaşı zamanı faşizme karşı mücadelede eşi benzeri olmayan bir kahramanlık gösterdi.

Alman temsilciler uzun süredir Resulzade'yi kendi taraflarına çekmeye çalışıyorlardı. Altı aylık konuşmalardan sonra ona Dresden'de profesörlük teklif ettiler.Türk gazeteci Uğur Mumcu, Almanların Resulzade`yi ne parayla, ne şöhretle, ne de mevkiyle ele alamadıklarını yazmaktaydı.Resulzade'nin Almanlarla işbirliğini kabul etmesinin tek şartı Azerbaycan'ın bağımsızlığıydı.Ancak Almanlar buna hiçbir şekilde razı olmadılar ve Berlin'e yeni siyasi muhacirlerin gelişini organize ederek Resulzade'yi onlardan uzaklaştırma politikası yürüttüler (Балаев, 2009: 254-256).

1947 yılında M.E. Resulzade Türkiye'ye taşındı.Ankara'daki Azerbaycan Milli Merkezi'nin başkanlığını yaptı. 1949 yılında Resulzade Azerbaycan Kültür Derneği`ni organize etti.1952'den itibaren "Azerbaycan" yıllığını yayınlamaya başladı.18 Aralık 1952'de M.E. Resulzade, Münih'te düzenlenen konferansın ve Azerbaycan Milli Merkezi'nin başkanı olarak konuşma yaptı.

1920-30'lu yıllarda M.E. Resulzade, "Yeni Kafkasya", "Azeri Türk", "Odlu yurt", "Azerbaycan yurt bilgisi", "Kurtuluş", "Azerbaycan" dergileri, "Bildiriş" ve "İstiglal" gazetelerini yayınladı."Asrımızın Siyavuşu" (İstanbul, 1922), "Azerbaycan Şairi Nizami" (Ankara, 1951), "Azerbaycan Cumhuriyeti" (İstanbul, 1922), "Çağdaş Azerbaycan Edebiyatı" (Berlin, 1936) "Azerbaycan Kültür Gelenekleri" (Varşova, 1938), "Rus Edebiyatından Örnekler" tercüme kitabı (İstanbul, 1912), M. Gorkin'in hikâyelerinin tercümeleri (Bakü, 1914), "Demokrasi" kitabı (Bakü, 1914) ), 1917) "Panturanizm ve Kafkasya Problemi" (Paris, 1930), "Çağdaş Azerbaycan Tarihi" (Ankara, 1951), "Stalin'le Konuşmalardan Hatıralar" (Ankara, 1954) ve bunlar gibi birçok eser yayınlamıştır.

1938-39 yıllarında M. E. Rasulzade'nin "Azerbaycan'da Sovyet Terörü ve Ulusal Direniş" (1938) başlıklı iki makalesi "Prometheus" dergisinde yayımlandı ve metni "Das Problem Aserbeidschan" (Berlin, 1938) adlı kitabında yer aldı. Azerbaycan'ın ulusal bağımsızlığı fikrinin sadık hizmetkarı 6 Mart 1955'te Ankara'da vefat etti.

## 2. Ermeni Meselesi

Resulzade, "Azerbaycan Cumhuriyeti" adlı eserinde Bakü Halk Komiserleri Sovyeti Başkanı ve dışişleri komiseri Stepan Şaumyan hakkında şunları yazmıştır:"Şaşırtıcı olan, müsavat ideolojisi konusunda tehditkar bir tavır alan Bolşevik hükümetinin Transkafkasya temsilcisi Şaumyan'ın, işgal altındaki Türkiye topraklarında Ermenistan'ın özerklik ilanına ilişkin Lenin tarafından imzalanan kararnameyi cebinde taşımasıdır. Bu fermana göre Şaumyan, "mazlum Ermeni halkının yüzyıllardır kurguladığı milli fikri hayata geçirmek için" Ermeni örgütlerine yardım sağlamayı taahhüt etmişti. Büyük olasılıkla, Şaumyan'ın elindeki bu belgenin etkisiyle, Şehir Duması'ndaki Kurucu Meclis'i dağıtan Bolşevikleri makineli tüfekler ve bombalarla tehdit eden Taşnaksutyun'un partisi, şimdi onlarla yakın temasa geçerek askeri bir ittifak kurdu.Şaumyan başkanlığındaki Bakü İşçi ve Asker Şurası, Ermeni alaylarının ve Taşnaksutyun partisinin yardımını sağladı ve Müslüman örgütlere karşı acımasız taktiklere başladı.Önlerinde serbestçe dolaşan Ermeni alayı askerlerini ve Müslüman alayını örgütlemek için Tiflis'ten gelen subayların polislerce gözaltına alındığını gören Müslüman halk, doğal olarak öfkelenmek zorunda kaldı.Nihayet gün geçtikçe büyüyen ve 17 Mart'tan 21 Mart'a kadar süren 1918 olaylarının sebebi haline gelen bu provokatörün attığı kıvılcımla bölge ateşlendi." (Расулзаде, 2010: 48).

Böylece M.E. Resulzade, Bolşevik liderini açıkça Ermeni askerleri ve Taşnaklarla işbirliği yapmakla suçladı ve onları 1918'deki kanlı Mart olaylarının tetikleyicileri olarak nitelendirdi. Resulzade, Bolşeviklerin Ermeni alaylarının da katılımıyla Bakü ve birçok vilayette 10 bine yakın Müslümanı öldürdüğünü belirtti. O, Ermenileri "Rusya'nın Türklere karşı geleneksel müttefikleri" olarak nitelendirdi. Eserinde Sovyet tarihçiliğinin iddia ettiği gibi Mart olaylarının sınıfsal niteliğine ilişkin tezi tamamen reddetmiştir.Resulzade, bu olayları açıkça "savunmasız Müslümanların acımasızca katledilmesi" olarak değerlendirdi. Olayları şöyle anımsıyordu: "Toplar, makineli tüfekler, Ermeni askerlerinin yaylım ateşi, uçaklar, savaş gemilerinden atılan ateşler; her şey Müslümanların yaşadığı bölgeleri hedef alıyordu. Adetaüzerlerine ateş yağdı, cehennem indi." (Расулзаде, 2010: 49). Resulzade daha 1921 yılında Azerbaycan'da ve Türkiye'de yaşanan olaylar arasındaki bağlantıya dikkat çekmişti. Ona göre kanlı katliam, Ermeniler tarafından "Rus birliklerinin işgal ettiği Türk topraklarında, ardından Kars bölgesi ve Erivan ilinde" Müslümanlara karşı gerçekleştirildi.

Resulzade'ye göre Yüzbaşı Movsesian ve General Areşev'in Kars bölgesinde Müslümanlara karşı yaptığı katliamlar, Dünya Savaşı sırasında (1915) Rus Kazaklarının yaptığı dehşetleri unutturmuştur.Resulzade, benzer haberlerin Erivan vilayetinden de geldiğini belirtmektedir. Kanıt olarak da Transkafkasya Seymi'nin Erivan'daki olayları araştırmak ve mağdurlara yardım sağlamak üzere gönderdiği heyet başkanının raporunu göstermektedir. İbrahim Ağa'nın aktardığı raporda, Ermenilerin 211 Müslüman köyünü yok ettiği, mülteci sayısının 100.000'e ulaştığı belirtilmektedir. Düşünür bu olayın tesadüfi değil, Ermeni ulusal çoğunluğunun sağlanmasına yönelik özel bir plana göre gerçekleştirildiğinin altını çizmektedir (Расулзаде, 2010: 49).

Resulzade ayrıca Transkafkasya Seymi'nin Ermeni temsilcilerinin davranışları hakkında da bilgi vermektedir. Eserinde, Ermeni askeri Amazasp Avetisov ve Rus topçu Petrov'un Şamahı, Salyan, Lenkeran, Guba, Navai ve Kürdemir'in Müslüman halkına neler yaşattıkları ayrıntılı olarak anlatılmaktadır. Gence tehlikedeydi. Resulzade, Karabağ Ermenilerinin Bakü Bolşevikleriyle birleşerek tüm Azerbaycan'ı ateşe vermek için tek bir plan hazırladıklarını yazmaktaydı. Şaumyan'ın gazetesinden alıntı yapıyordu: "Özerklik elde edeceksiniz ama yıkım olacak." Yani Bolşevikler ve Ermeniler, Azerbaycan Müslümanlarının özerkliğine karşı birleşik cephe olarak hareket etmekteydiler.

Trabzon'da Transkafkasya hükümeti ile Türk tarafı arasındaki görüşmede Türkler Dünya Savaşı'nda önceki sınırların kabul edilmesini teklif etti. Müslümanlar temsilciler Brest-Litovsk`a uyacaklarına dair tutum sergilediler. Buna göre Transkafkasya hükümeti, askeri tazminat karşılığında bir zamanlar Ruslar tarafından Türklerin elinden alınan üç ilden vazgeçmek zorunda kalacaktı.Zaten Kars, Ardahan ve Batum Brest-Litovsk Antlaşması gereği Bolşevik hükümeti tarafından Türkiye'ye verilmişti. Ermeniler ve Gürcüler "Savaşsız Türkiye'ye teslim olmayacağız" dediler.Bu durumda Müslümanların durumu çok zordu. Durumun ciddiyetinin farkına varan Trabzon barış heyeti, Ermeni, Gürcü ve Türk temsilcilerinin oy birliğiyle Türkiye'nin ültimatomunu tartışmaya açtı.Ancak Gürcü Menşeviklerin ve Ermeni Taşnakların çoğunlukta olduğu Seym savaş kararı aldı. Konferans sona erdi, savaş başladı ve heyet Tiflis'e döndü.Ancak heyet yoldayken savaş fiilen sona erdi ve Türkler kazandı. Gegeçkori hükümeti düştü ve yerine barışsever (Çhenkeli) kabine geldi. Batum'da yeni görüşmeler başladı (Расулзаде, 2010: 53-55). Resulzade, Transkafkasya

birliklerinin yenilgisine ve teslim olmasına Türkiye'den nefret eden Ermenilerin sebep olduğunu açıkça ifade etti.

Resulzade, Bolşeviklerin ve Taşnakların Kafkas Müslümanlarına karşı yaptıkları zulümlere Transkafkasya Seymi`nin tepkisizliğini de göz ardı etmedi.Resulzade, Nuri Paşa komutasındaki Türk birliklerinin Müslüman halkın özgürleştirilmesindeki yardımını detaylı bir şekilde anlattı. Resulzade Direktuvarın (Sentrokaspi diktatörlüğüne atıfta bulunarak - Temmuz 1918'de Baksovyet'in istifasından sonra Bakü'nün Nuri Paşa komutasındaki Kafkas İslam Ordusu tarafından ele geçirilmesine kadar Bakü'de faaliyet gösteren hükümet) İngilizlerin Bakü'ye davetini ve Almanların Türk birliklerinin Gürcistan üzerinden Bakü'ye ilerlemesini geciktirmesini detaylı bir şekilde tasvir ediyordu. Bu nedenlere göre Bakü'nün kurtuluşunun 15 Eylül'e ertelendiğini yazıyordu.

Resulzade'nin "Azerbaycan Cumhuriyeti" adlı eserinde de 7 Aralık 1919'da Azerbaycan Parlamentosu'nun açılmasının engellenmesinde Ermenilerin rolü anlatılmaktadır. Resulzade, Ermeni örgütünün düşmanlığının ve inatçılığının çok açık olduğunu belirtmektedir. Hükümet başkanı F.H. Hoyski, Müsavat partisi ve Milli Şura`da çoğunlukta olan sol grup liderleriyle birlikte Rusların ve Ermenilerin hükümete katılabileceğini söylediler. Resulzade, İngiliz işgal komutanlığının Azerbaycan hükümetiyle tam bir mutabakat içinde olduğunu belirtmektedir. Azerbaycan Parlamentosu'nda sadece 85 milletvekili vardı. 10 yer Ermeniler, geri kalanı ise Türkler, Ruslar vb. Aitti (Расулзаде, 2010: 69).

Resulzade, İngilizlerin önderliğiyle Nahçıvan ve Karabağ'ın Azerbaycan'la idari ilişkisinin tanınmasına ilişkin anlaşmanın sağlandığının mümkün olduğunu kaydetmektedir (Расулзаде, 2010: 64). Ermeniler İngilizlerin bu tutumunun beğenmediler. "Bugüne kadar İngiliz komutanlığını öven Rusya ve Ermenistan basını, bir gün önce taptıklarılarına karşı kaba bir şekilde hakaret etmeye ve küfretmeye başladı." (Расулзаде, 2010: 54-55). Birinci Dünya Savaşı sırasında Ermeni gruplar Rus ordusunun bir parçası olarak faaliyet gösteriyor ve bu nedenle kendilerini İngilizlerin müttefiki olarak görüyorlardı.Ermeniler, İngilizlerin Kafkasya'ya davet edilmesinden yanaydı ve "Ermeni meselesinde" onların desteğini umuyorlardı. Ancak İngilizler, Ermenilerin umutlarını yerine getirmeyerek onların öfkeli tepkisine neden oldu.

Resulzade ayrıca, Azerbaycan parlamentosunun İngiliz komutanlığından, Biçerahov'un Rus birliklerinin ve müttefik güçlerin parçası olmayan ve kamu düzenini bozmaktan başka bir

fayda sağlamayan Ermeni birliklerinin Azerbaycan'dan çekilmesi yönündeki talebini kabul ettiğini belirtmektedir. Bu nedenle Biçerahov alayı 48 saat içinde Bakü'den ayrılmalı ve Ermeni birliklerini dağılmalıydı (Расулзаде, 2010: 64).

M.E. Resulzade, pan-Kafkasya entegrasyonu ve Kafkas Konfederatif Birliği'nin kurulmasına yönelik çeşitli projeleri açıkça desteklemekteydi (Абуталыбов, 2011: 12). Bilindiği üzere Ermeniler 1918-19'da güney cumhuriyetlerinin konferanslarını boykot etmişlerdi. 16 Haziran 1919'da Azerbaycan-Gürcistan arasında Savunma Antlaşması'nın imzalanmasının sonra Ermenistan hükümetine de benzer bir antlaşma teklif edildi. Fakat onlar bu teklifi reddettiler. Azerbaycan parlamentosu, Ermeni siyasetçilerin isteksizliğine rağmen Ermenistan'la mevcut sorunlara barışçıl bir çözüm bulunmasını umuyordu. Bu amaçla 25 Nisan 1919'da Tiflis'te düzenlenen Transkafkasya konferansına katılmış, 1920'de Bakü'de Ermenistan-Azerbaycan konferansını organize etmiştir. Bu konferansta Azerbaycan hükümeti, Transkafkasya Cumhuriyetlerini yabancı güçlerden korumak için Transkafkasya Konfederasyonu`nun kurulmasını önerdi (Расулзаде, 2010: 75). Ancak Ermeniler her zamanki gibi birleşme girişimlerini protesto ettiler.

Hatta muhaceretteki Ermeni temsilcileri Azerbaycanlılara yönelik saldırılar devam etmiş ve Türklere karşı birbiri ardına çeşitli eserler yayınlamışlardır. M.E. Resulzade Azerbaycan halkının çıkarlarını savunarak onlara karşı çıkıyordu.Zarevand'ın "Türkiye ve Panturanizm" ve A. Khondkaryan'ın "Türkiye'nin Hizmetinde" adlı eserlerini eleştirdi.Bu eserlerde, Türk-Tatar ayrılıkçılarının asıl hedefinin hayatlarını düzenlemek değil, Rusya'yı bırakıp Türkiye'ye katılmak olduğu belirtilmektedir (Расулзаде, 1930: 3). Resulzade ise her zaman Azerbaycan Cumhuriyeti'nin bağımsızlığı fikrini savunmaktaydı.

Resulzade, eserlerinde Kafkasya'daki Müslüman halklara karşı yapılan adaletsizlikleri de göstermiştir.Ermeni ve Gürcülerin Çarlık döneminde askerlik yaptığını, dolayısıyla fiziki varlıklarını korumaya yönelik modern askeri yöntemlere aşina olduklarını belirtmiştir. Müslümanlar ise Hanlıklar döneminde kullandıkları savunma yöntemlerini bile unutmuşlardır. 1918-20'de çok sayıda Hıristiyan albay ve general vardı.Buna karşılık Azerbaycanlı subaylar parmakla sayılabilecek kadar azdı (Расулзаде, 2010: 66).

Ermeni kilise okulları ve Gürcü soylularının teşkilatlarına bağlı milli okullar uzun yıllar Ermeni ve Gürcü eğitimini yaygınlaştırırken Müslümanlara böyle bir ayrıcalık tanınmamıştı.

Milli eğitim, eski usulle özel okullarda ve cami medreselerindeki öğretimle sınırlıydı (Расулзаде, 2010: 60).

Resulzade, Azerbaycanlıların ayrı bir milli devlet yaratmaya çalıştıklarını sürekli vurguladı.Dolayısıyla bunu ancak "Rus emperyalizminin gönüllüleri veya Rusya'nın köleleri" algılayamazdı (Расулзаде, 1930: 8). Düşünür, Ermenilerin Rus yurtseverliği, sadece Rus edebiyatını ve basınını fetişleştirmeleri karşısında şaşırdığı ifade ediyordu. M.E. Resulzade, Ermenileri Rus emperyalizmini savunmakla suçladı.Rusya`daki Ermenileri, Türkiye'deki Ermenilerle aynı kaderin beklediğini belirtti. M.E. Resulzade, Ermenilerle Farsların Türkiye'ye karşı bilinçsiz düşmanlığa ve komşularına karşı düşmanlığa dayanan "Aryan birleşmesi" konusuna da şüpheyle bakmaktaydı. Ermenilerin Rusya'dan ayrılarak İran'a katılması düşününün de onu şaşırttığını vurgulamıştı (Расулзаде, 1930: 11).

**Sonuç**

Resulzade hayatı boyunca Azerbaycan halkının ve Azerbaycan Cumhuriyeti'nin bağımsızlığı için çabaladı. Aynı zamanda Kafkasya entegrasyonu fikrini de desteklemiş, manevi ve etik potansiyeli nedeniyle Ermenilerin Kafkas Konfederasyonu projelerine katılmasına hiçbir zaman karşı çıkmamıştır.Ermenilerin Azerbaycan Parlamentosu'na katılımına ve Cumhuriyetin yönetimi altındaki yaşamlarına karşı da konuşmamıştır. Fakat Azerbaycan'ın bağımsızlığına ve devletine karşı çıkan Ermeni milliyetçilerinin tutumu yapıcı değildi.

Kısaca Mehmed Emin Resulzade milliyetçi değildi, hayatı boyunca Rusya'nın tüm tutsak halklarını, özellikle Kafkasya halklarını ortak düşman olan Bolşevizme karşı birleşmeye çağırmıştı.

## Kaynakça

Абрамян Э. (2006). Кавказцы в Абвере. Москва.

Азербайджан, 12 ноября (30 октября) 1918, № 33.

Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. (Документы и материалы) (1998). Баку: Азербайджан.

Айдын Балаев (2009). Мамед Эмин Расулзаде (1884-1955). Москва: Издательство «Флинта».

Али Абасов (2001). Ислам в современном Азербайджане: образы и реалии, Азербайджан и Россия: общества и государства. Москва.

Алиева Севиндж (2013). Планы по объединению Кавказа и позиция М.Э.Расулзаде// Роль России в исторических судьбах народов Кавказа. Материалы международной научной конференции (26-27 февраля 2013 г., г. Махачкала). Махачкала: АЛЕФ.

Алиева Севиндж (2020). Мамед Эмин Расулзаде о дашнаках// Qafqazşünasların 2-ci Beynəlxalq Forumu 2nd International Forum Of The Caucasus Studies Scholars, 23-24 May / May, 2019, Bakı / Baku, 1-CiKitab, Bakı.

История общественно-культурного реформаторства на Кавказе и в Центральной Азии (XIX - начало XX века) (2012). Самарканд.

Мамед Эмин Расулзаде (2010). Сборник произведений и писем/ Сост., предисл. и примеч. С.Исхаков. Москва: Флинта.

Рамиз Абуталыбов (2011). Мамед Эмин Расулзаде и Кавказская Конфедерация. Москва: Изд-во социально-политическая мысль.

Расулзаде М.Э. (1930). О Пантуранизме В связи с кавказской проблемой. С предисловием Н.Жордания. Париж: К.Н.К.

Расулзаде Мамед Эмин (2010). Азербайджанская Республика, Расулзаде Мамед Эмин. Сборник произведений и писем/ Сост., предисл. и примеч. С.Исхаков. Москва: Флинта.

Свентоховский Тадеуш (2001). Становление национальной идентичности в Азербайджане, Азербайджан и Россия: общества и государства. Москва.

Araştırma Makalesi/Research Article

# BENGİ

**Dünya Yörük-Türkmen Araştırmaları Dergisi**

*BENGİ World Journal of Yörük-Türkmen Studies*

*https://dergipark.org.tr/tr/pub/bengi*

**ISSN: 2717-6584**

## Tarih ve Kimlik Meselesi Bağlamında Mehmet Emin Resulzade ve Milli Devlet Kuruculuğu

Məhəmməd Əmin Rəsulzadə və Milli Dövlət Quruculuğu ("Tarix Və Şəxsiyyət" Məsələsi Kontekstində)

*Muhammed Emin Rasuolzade And National State Building (In The Context Of The Issue Of "History And Individual")*

**doi**: 10.58646/bengi. 1462163

**Geliş/Received:** 31 Mart 2024 **Kabul/Accepted:** 01 Mayıs 2024

**Kamran Novruz İsmayılov***

**Özet**

Makalede kişiliğin tarihteki yeri ve rolü konusuna kısaca değinilmekte ve her kişiliğin tarihteki yeri ve rolünün ancak içinde yaşadığı ve faaliyet gösterdiği ortamın koşulları dikkate alındığında anlaşılabileceği vurgulanmaktadır. Kişiliğin tarihteki rolü büyük ölçüde kalabalığın örgütlenmesine bağlı olsa da liderin aynı zamanda bu kalabalığın çıkarlarının ifadesi olarak hareket edebilmesi ve onu yönlendirebilmesi gerekir. Ancak çoğu durumda sosyal süreçlerin gelişim yönü liderin kişisel özelliklerine bağlıdır. Bu açıdan bakıldığında tarihin çalkantılı dönemlerinde belirleyici olan kişilik, en zor koşullarda ise belirleyici olan ise önde gelen kişilerdir.

Muhammed Emin Resulzade, sadece Azerbaycan'da değil, ilerici sosyo-politik görüşleri ve siyasi faaliyetleriyle Türk dünyası tarihinde ebedi bir sayfa açmış seçkin bir şahsiyettir. 1918 yılında Resulzade, Azerbaycan'ın ilk milli devleti olan Cumhuriyetin kurulmasında ve

* **Sorumlu Yazar/Corresponding author**: Doç.Dr., AMEA Tarix İnstitutu, e-posta: ismayilov-kamran@mail.ru. Orcid: 0000-0001-5486-7126.

**Atıf/Citation:** İsmayılov, K.N. (2024). Tarih ve Kimlik Meselesi Bağlamında Mehmet Emin Resulzade ve Milli Devlet Kuruculuğu. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi, 2024 (2), 237-262.

Azerbaycan milletinin siyasi varlığının tesis edilmesinde çok değerli hizmetlerde bulunmuştur. Azerbaycan milli demokratik hareketinin ve milli devletçiliğinin teorik ilkelerini geliştiren ve bu devletin kurulması sürecine doğrudan öncülük eden tek kişi oydu. Bu açıdan bakıldığında Muhammed Emin Resulzade sadece Azerbaycan'ın değil, dünya tarihinin olağanüstü şahsiyetlerinden biri olarak kabul edilebilir.

Muhammed Emin Resulzade, Azerbaycan'ın milli devlet yapılanmasının ana isimlerinden biriydi ve Cumhuriyetin ilk başkanı seçildi. Cumhuriyetin var olduğu yıllarda ülkenin önde gelen siyasi gücü olan Müsavat Partisi'nin ve Meclis'in Müsavat grubunun başkanı olarak demokratik devlet sisteminin kurulmasında aktif rol aldı. M.A. Resulzade, devlet inşasında yakın katılımın yanı sıra gazetecilik faaliyetlerini de sürdürmüş ve Azerbaycancılık ideolojisinin teorik ve bilimsel temellerinin hazırlanmasında önemli rol oynamıştır.

**Xülasə**

Məqalədə tarixdə şəxsiyyətin yeri və rolu məsələsinə qısa nəzər salınır və vurğulanır ki, hər bir şəxsiyyətin tarixdə yeri və rolu yalnız yaşadığı və fəaliyyət göstərdiyi mühitin şərtləri nəzərə alındıqda dərk edilə bilər. Tarixdə şəxsiyyətin rolu kütlələnin mütəşəkkilliyindən çox asılı olsa da lider həm də bu kütlənin maraqlarının ifadəçisi rolunda çıxış etməyi və onu yönəltməyi bacarmalıdır. Lakin, bir çox hallarda ictimai proseslərin inkişaf istiqaməti məhz liderin şəxsi xüsusiyyətlərindən asılı olur. Bu baxımdan məhz şəxsiyyət tarixin təlatümlü çağlarında müəyyənedici amilə çevrilir, ən çətin şərtlərdə məhz görkəmli şəxslər həlledici söz sahibinə çevrilirlər.

Məhəmməd Əmin Rəsulzadə mütərəqqi ictimai-siyasi baxışları, siyasi fəaliyyəti ilə təkcə Azərbaycanda deyil, bütün türk dünyasının tarixində əbədi səhifə açmış görkəmli şəxsiyyətdir M.Ə. Rəsulzadə 1918-ci ildə Azərbaycanın ilk milli dövlətinin - Cümhuriyyətin yaradılmasında, Azərbaycan millətinin siyasi varlığının təsbit edilməsində əvəzsiz xidmətlər göstərmişdir. O, həm Azərbaycan milli demokratik hərəkatının və milli dövlətçiliyinin nəzəri prinsiplərini işləyib hazırlamış, həm də bu dövlətçiliyin bərqərar olunması prosesinə bilavasitə rəhbərlik etmiş tək səxsiyyət olmuşdur. Bu baxımdan Məhəmməd Əmin Rəsulzadəni təkcə Azərbaycanın deyil, dünya tarixinin fenomenal şəxsiyyətlərindən biri hesab etmək olar.

Məhəmməd Əmin Rəsulzadə Azərbaycanın milli dövlət quruculuğunun əsas simalarından biri olmuş, Cümhuriyyətin ilk rəhbəri seçilmişdir. Cümhuriyytin mövcudluğu illərində ölkənin aparıcı siyasi qüvvəsi olan Müsavat partiyasının və Parlamentin Müsavat fraksiyasının sədri kimi o demokratik dövlət sisteminin bərqərar olunmasında fəal iştirak etmişdir. Dövlət quruculuğunda yaxından iştirak etməklə yanaşı M.Ə.Rəsulzadə publisistik fəaliyyətini də davam etdirmiş, Azərbaycançılıq məfkurəsinin nəzəri-elmi əsaslarının hazırlanmasında mühüm rol oynamışdır.

**Açar sözlər:** Tarix Və Şəxsiyyət, Məhəmməd Əmin Rəsulzadə, Dövlət Quruculuğu, Azərbaycan Cümhuriyyəti, Azərbaycançılıq Məfkurəsi.

**Abstract**

The article takes a brief look at the issue of the place and role of personality in history and emphasizes that the place and role of each personality in history can be understood only if the conditions of the environment in which it lives and operates are taken into account. Although the role of the personality in history is highly dependent on the organization of the crowd, the leader must also be able to act as the representative of the interests of this crowd and direct it. However, in many cases, the direction of development of social processes depends on the personal characteristics of the leader. From this point of view, it is the personality that becomes the determining factor in the turbulent times of history, and in the most difficult conditions, it is the prominent people who become the decisive ones.

Muhammad Amin Rasulzadeh is an outstanding person who opened an eternal page in the history of the Turkic world not only in Azerbaijan, but with his progressive socio-political views and political activities. In 1918, Rasulzade rendered invaluable services in establishing the first national state of Azerbaijan - the Republic, and establishing the political existence of the Azerbaijani nation. He was the only person who developed the theoretical principles of the Azerbaijani national democratic movement and national statehood, and directly led the process of establishing this statehood. From this point of view, Muhammad Amin Rasulzadeh can be considered one of the phenomenal personalities of not only Azerbaijan, but also world history.

Muhammad Amin Rasulzade was one of the main figures of Azerbaijan's national state building and was elected the first head of the Republic. During the years of existence of the republic, he actively participated in the establishment of the democratic state system as the chairman of the Musavat party, the leading political force of the country, and the Musavat faction of the Parliament. In addition to closely participating in state building, M.A. Rasulzade also continued his journalistic activities and played an important role in the preparation of the theoretical and scientific foundations of the ideology of Azerbaijanism.

**Key words**: History and Individual, Muhammad Amin Rasulzadeh, State Building, Azerbaijan Republic, Ideology of Azerbaijanism.

## Giriş

Tarixi proseslərin gedişatına bir çox amillər təsir göstərir. Bu amillər arasında ictiasi-siyasi fəaliyyətlə məşğul olan şəxsiyyət amili mühüm yer tutur. Şəxsiyyətin tarixin gedişinə təsiri onun arxalandığı kütlənin sayından və mütəşəkkilliyindən birbaşa asılıdır. Buna görə də görkəmli şəxsiyyət qeyri-adi istedadla yanaşı, kütləni arxasınca aparmaq üçün həm də təşkilatçılıq qabiliyyətinə malik olmalıdır. Heç bir ictimai-siyasi qüvvə, təşkilat, qrup əgər öz siyasi liderinə malik deyilsə, qarşısına qoyduğu məqsədlərə çata bilməz. Lakin istedad və qabiliyyət də bəzi hallarda kifayət etmir. Bunun üçün cəmiyyətin inkişafı gedişində bu və ya digər şəxsiyyətin həll etməli olduğu vəzifələr də gündəlikdə durmalıdır. Görkəmli şəxsiyyətlərin tarix səhnəsinə çıxması obyektiv şərtlərlə, müəyyən ictimai ehtiyacların yetişməsi ilə şərtlənir. Belə ehtiyaclar məhz tarixin həlledici anlarında yaranır. Tarixi proseslərin gedişinə nəzər salarkən istər istəməz şəxsiyyətin bu proses və hadisələrdə rolu haqqında suallarla üzləşməli olursan. Təhlil etmək üçün müraciət etdiyin tarixi hadisənin baş verməsi qaçılmaz idimi, şəxsiyyətin iştirakı olmadan da bu hadisələr, dəyişiklər baş verəcəkdimi? Aydındır ki, tarixi yaradan insanlardır. Bu isə öz növbəsində tarix fəlsəfəsinin əbədi problemi olan qanunauyğunluqla təsadüfin qarşılıqlı əlaqəsi problemini ortaya çıxarır ki, bu problem də birbaşa tarixdə şəxsiyyətin rolu məsələsi ilə əlaqədardır.

Əsas hissə: Müasir elm tarixi hadisələrin qabaqcadan təyin olunması İfatallğı) ideyasını rədd edir və gələcəyin çox sayda alternativlərdən ibarət olmasını qəbul edir. Bu baxımdan tarixdə şəxsiyyətin rolu həmişə aktual olmuşdur. Tarixdə bir çox dəyişikliklərin və hadisələrin baş verməsinin müəyyən şəxsiyyətlərin fəaliyyəti ilə bağlı olduğunu inkar etmək mümkün deyildir. Buna görə də şəxsiyyətlərin rolu bir sıra tarixi məqamlarda müstəsna əhəmiyyət kəsb etməyə başlayır. Kritik anlarda məhz liderlərin fəaliyyəti müxtəlif alterrnativlərin və meyllərin taleyini həll edir. Bununla yanaşı liderlərin fəaliyyəti və müvəffəqiyyətləri də hadisələrin cərəyan etdiyi zamanın xüsusiyyətləri ilə şərtlənir.

Bu baxımdan əlbəttə, Azərbaycan xalqının İ Dünya müharibəsinin sonlarında yaranan qlobal dəyişiklərə, xüsusən Rusiya imperiyasının çöküşündən sonra regionda yaranmış geosiyasi dəyişikliklərə nə dərəcədə hazır olub olmaması tarixçiləri daim düşündürən məsələdir. Bu kontekstdə M.Ə.Rəsulzadə və onun məsləkdaşlarının fəaliyyətinin olmayacağı təqdirdə bu dəyişikliklərin hansı istiqamətdə gedəcəyi və Azərbaycan xalqı üçün hansı nəticələrə gətirib çıxaracağı ilə bağlı suallara cavab vermək çətin olardı.

Tarix elminin əsas konsepsiyalarından biri də tarixi asılılıqdır. Bu konsepsiyaya görə bütün hadisə və proseslər konkret tarixi şəraitdən asılı olub, yalnız onların baş verdiyi spesifik tarixi kontekstə izah oluna bilər. Tarixi asılılıq (şərtilik) konsepsiyasına görə hər bir dövrün öz spesifik xüsusiyyətləri mövcuddur ki, bu xüsusiyyətlər təfəkkür tərzini, dəyərləri, sosial münasibətləri və siyasi strukturları şərtləndirir. Bununla yanaşı, tarixi asılılıq determinizm və ya nəticənin əvvəlcədən bəlli olması anlamına gəlmir, bu, hər şeydən əvvəl tarixdə müxtəlif amillərin qarşılıqlı əlaqəsinin mövcudluğunu göstərir. Tarixi asılılıq prinsipi tarixi hadisələrin baş verdiyi konkret zamanın və məkanın siyasi, iqtisadi, coğrafi, mədəni və sosial şərtlərini hökmən nəzərə alınmasını tələb edir. Lakin şəxsiyyət təkcə müəyyən şərtlər daxilində fəaliyyət göstərmir, həm də bu şərtləri meydana gətirir. Bu baxımdan Azərbaycan Cümhuriyyətinin təşəkkül tapmasını təkcə dünyada və regionda baş vermiş ictimai-siyasi prosesləri deyil, daha geniş tarixi kontekstdə, o cümlədən Azərbaycanın bu hadisədən əvvəl təqribən 50 illik inkişaf tarixinin şərtlərini nəzərə almadan dərk etmək mümkün deyildir. Bu şərtləri müəyyən mənada "yaradan" da elə Azərbaycanın o zamankı tarixi şəxsiyyətləri olmuşlar.

G. Plexanov hesab edirdi ki, şəxsiyyətin rolu və onun fəaliyyət hüdudları yaşadığı cəmiyyətin mütəşəkkilliyindən birbaşa asılıdır. Yalnız ictimai münasibətlərin imkan verdiyi zaman və məkan daxilində şəxsiyyətin xarakteri inkişafın əsas amilinə çevrilir [17, c. 322]. Deməli, hər bir şəxsiyyətin tarixdə yeri və rolu yalnız yaşadığı və fəaliyyət göstərdiyi mühitin şərtləri nəzərə alındıqda dərk edilə bilər.

Böyük insanların tarixdə rolunu şişirdən volyuntarist konsepsiya tərəfdarları şəxsiyyətlərin tarixin gedişini istədikləri kimi dəyişdirməyə qadir olduqlarını iddia edirlər. Məsələn, ingilis filosofu Tomas Karleyl dünya tarixini böyük insanların bioqrafiyası kimi təsəvvür edirdi. Kütlə isə əksər hallarda böyük əlində alət kimi çıxış edir.
Determinist-fatalist nəzəriyyə isə əksinə, şəxsiyyətin tarixdə yaradıcı rolunu inkar edərək, hər şeydə taleyin hökmünü axtarır.

Marksizm də tarixin qanunlarının invariantlığını iddia edərək bu qanunların istənilən şərtlər daxilində gerçəkləşdiyini, buna görə də tarixdə şəxsiyyətin rolunun şişirdilməsinə qarşı çıxırdı. Marksizmin ən görkəmli nəzəriyyəçilərindən biri olan G. Plexanov görə şəxsiyyət tarixin qaçılmaz gedişinə öz fərdi izini qoya bilər, lakin tarixin qanununu dəyişə bilməz, əgər hətta tarixdə mühüm rol oynamış şəxsiyyət olmasaydı belə, onu hökmən başqası əvəz edəcəkdi və eynilə həmin tarixi rolu yerinə yetirəcəkdi.

L.Novak hətta görkəmli şəxsiyyətlərin belə tarixi prosesdə böyük rol oynadığını qəbul etmir və qeyd edir ki, əgər dahi şəxsiyyətin tarixi prosesin digər amilləri, parametrləri ilə yolları

kəsişmirsə, bir fərd olaraq bu şəxsiyyət öz özlüyündə tarixi prosesin gedişinə təsir göstərmək iqtidarında deyildir (Nowak, 2009: 82).

Lakin bu iki ifrat nəzəriyyələrdən başqa üçüncü yanaşma da var. Bu yanaşmanın ifadəçilərindən olan H.Rapoport 1899-cu ildə yazırdı ki, şəxsiyyət tarixi inkişafın həm səbəbkarı, həm də məhsuludur (Раппопорт, 1899:47).

Tarixdə şəxsiyyətin və kütlənin qarşılıqlı münasibətləri məsələsi olduqca mürəkkəb fəlsəfi problemdir. Aydındır ki, tarixidə şəxsiyyətin rolu o zaman artır ki, kütlə onun arxasınca gedir, özü də mütəşəkkil və yekdil qüvvədir. Lakin bunun üçün lider həm də bu kütlənin maraqlarının ifadəçisi rolunda çıxış etməyi və onu yönəltməyi bacarmalıdır. Bu baxımdan şəxsiyyətin (liderin) gücü bir sıra hallarda bu şəxsiyyətin təmsil etdiyi təşkilatın və qrupun gücündən asılı olur. Adətən, öz tərəfdarlarını daha sıx birləşdirən lider uğur qazanır. Lakin, əlbəttə bu o faktı da inkar etmir ki, bir çox hallarda ictimai qüvvənin istiqaməti məhz liderin şəxsi xüsusiyyətlərindən asılı olur. Bu baxımdan məhz şəxsiyyət tarixin təlatümlü çağlarında müəyyənedici amilə çevrilir, ən çətin şərtlərdə məhz görkəmli şəxslər həlledici söz sahibinə çevrilirlər. Deməli, şəxsiyyətin rolu kütlə və liderlərin vahid qüvvəyə çevrildiyi anda daha yüksək olur. S.Huk «Tarixdə qəhrəman. Hüdudların və imkanların tədqiqi" əsərində belə bir nəticəyə gəlir ki, şəxsiyyətin fəaliyyəti həqiqətən yaşadığı mühitin şərtləri və cəmiyyətin xarakteri ilə məhdudlaşır, digər tərəfdən isə şəxsiyyətin rolu cəmiyyətdə inkişafında alternativlərin ortaya çıxdığı zaman mühüm dərəcədə artır. S.Huk tarixdə təsadüflərə və ehtimallara, onların şəxsiyyətin rolu ilə əlaqəsinə böyük əhəmiyyət versə də, bütün tarixin təsadüflər dalğası kimi təqdim edilməsi cəhdlərinə qarşı da çıxır. O qeyd edir ki, bir çox alternativlərin olduğu şəraitdə daha doğru alternativin seçilməsi də çox zaman məhz liderin (liderlərin) keyfiyyətindən, qətiyyətindən asılı olur. Doğrudan da 1918-ci ildə Azərbaycan xalqının qarşısında bir neçə alternativlər mövcud idi: Rusiyanın tərkibində muxtariyyət statusu; Cənubi Qafqaz konfederasiyonu; Osmanlı dövləti ilə birləşmək; Sovet Rusiyasının tərkib hissəsinə çevrilmək; despotik idarə üsulu altında yaşamaq və ən nəhayət, demokratik, dünyəvi respublika yaratmaq. Azərbaycanın o vaxtkı tarixi şəxsiyyətləri məhz sonuncu variantın xalqın ümdə maraqlarına cavab verdiyini dərk edərək bütün İslam şərqində ilk demokratik dövlətin əsasını qoymaqla, həm də alternativlər seçimində şəxsiyyətlərin rolunun mühümlüyünü isbat etmiş oldular.

Şəxsiyyətin dövlətlərin yaranması prosesində də rolu mühüm əhəmiyyət kəsb edir. Hazırda dünya ictimai elmində (tarix, fəlsəfə, sosiologiya) bu istiqamətdə bir sıra diqqəti cəlb edən tədqiqatlar işıq üzü görmüşdür. Bu planda siyasi antropologiyanın neoevolyusionist

istiqamətinin nümayəndələri olan M.Salinz, E.Syervis, R.Karneyro, H.Klassen kimi müəlliflərin dövlətin yaradılmasında tarixi şəxsiyyətlərin rolu haqqında bir çox maraqlı mülahizələri mövcuddur. Son vaxtlar alternativ, kontrfaktual tarix nəzəriyyəsi geniş yayılmağa başlamışdır. [Гринин, 2011]. Bu nəzəriyyə mövcud olmayan sssenarilər şəraitində hipotetik alternativləri tədqiq edir və "bu və ya başqa şəxsiyyət olmasaydı nə baş verə bilərdi, proseslər hansı istiqamətdə inkişaf edə bilərdi?" kimi suallara cavab tapmağa çalışır. Araşdırılan problemlə bağlı məsələn, bizim üçün maraqlıdır: əgər Rusiya imperiyası dağılmasaydı və ya Osmanlı dövləti I Dünya savaşında qalib gəlsəydi Azərbaycanın taleyi necə olacaqdı? və s.

Müxtəlif şəraitlərdə şəxsiyyətin rolu ilə bağlı mülahizələr belə bir ideyaya əsaslanır ki, bu rol müxtəlif şərtlərdən və vəziyyətlərdən, həmçinin hadisələrin baş verdiyi yerin və zamanın, eləcə də şəxsiyyətin fərdi xüsusiyyətlərindən asılı olaraq nəzərə çarpmaz və ya böyük ola bilər Məsələn, totalitar (avtoritar) və demokratik cəmiyyətlərdə şəxsiyyətin rolu müxtəlifdir. Cəmiyyət çox da möhkəm və sabit deyilsə və cəmiyyətin köhnə dayaqları daha çox sarsılıbsa, ona ayrı-ayrı şəxsiyyətlər daha çox təsir göstər bilərlər. Demokratik cəmiyyətlərdə isə əksinə, alternativlərin mövcudluğu, dəyişikliklərin mümkünlüyü, hakimiyyət qollarının bir birinə nəzarət etmələri və bir-birilərindən asılılığı şəraitində şəxsiyyətlərin rolu daha az gözə çarpır. Başqa sözlə, şəxsiyyətin rolu ilə cəmiyyətin sabitliyi və möhkəmliyi tərs mütanasibdir. Azərbaycan Cümhuriyyətinin siyasi liderinin kim olması ilə bağlı indiyədək davam edən mübahisələr də məhz bu kontekstdən dəyəndirilməlidir. Çünki yuxarıda qeyd edildiyi kimi, cümhuriyyətdə demokratiyanın, çoxpartiyalılığın və hakimiyyət bölgüsünün reallığı şəraitində hansısa siyasi xadimin şəriksiz lider statusuna iddia etməsinə əslində yer qalmırdı.

Tarixin mürəkkəb, dəyişkən dönəmlərində şəxsiyyətlərin rolu, fərdi keyfiyyətləri bəzən həlledici amilə çevrilir. İnqilabi dəyişiklərdən, köhnə qaydaların süquta uğramasından sonra şəxsiyyətlərin qeyri-sabit, amorf cəmiyyətə təsiri bir sıra hallarda nəzarətsiz, proqnozlaşdırılmayan xarakter da ala bilər. Hakimiyyətdə möhkəmləndikdən sonra iqtidar cəbhəsində liderlər arasında siyasi mübarizə və qarşıdurma da başlaya bilər.

Azərbaycan Cümhuriyyətinin təcrübəsi aşağıdakı fəlsəfi aforizmin həyatiliyini də sübut etdi: "cəmiyyətlər doğulanda məhz liderlər respublikanın institutlarını yaradırlar. Daha sonra isə institutlar liderləri yaradırlar". Doğrudan da milli dövlət quruculuğu prosesində Cümhuriyyət həm də öz gənc liderlərini ortaya çıxardı ki, onlar Azərbaycanın yeni siyasi elitasını təşkil etdilər.

Liderlər arasında qarşılıqlı münasibətlər, həm də dövlətin və ölkənin gələcək inkişaf yollarının (alternativlərin) seçilməsi ilə də bağlı ola bilər. Şəxsiyyətin rolu burada da müstəsna dərəcədə

böyük ola bilər. Cümhuriyyətin istər yaranış dövründə, istərsə də son aylarında siyasi partiyalar və liderlər arasında dövlətin gələcəyi, xarici oriyentasiya məsələsi ilə bağlı yaranmış ziddiyyətlər bunun bariz sübutudur. Əgər Cümhuriyyətin ilk günlərində Osmanlı hərbi dairələrinin təzyiqi nəticəsində yaranmış siyasi böhrandan ("ilhaq" məsələsi) kompromis yol tapılaraq çıxmaq mümkün olsa da, Cümhuriyyətin süqutu ərəfəsində Sovet Rusiyası ilə münasibətlər əksinə, siyasi elitada dərin qarşıdurma yaratmış və bu qarşıdurmanın yaratdığı hakimiyyət böhranı əslində dövlətin süqutunun əsas səbəblərindən biri olmuşdu.

## 1. Məhəmməd Əmin Rəsulzadə: Milli Dövlətçiliyə Aparan Yol

Məhəmməd Əmin Rəsulzadə ideoloji baxışları, publisistik, ictimai-siyasi fəaliyyəti haqında çox yazılıb. Bu tarixi şəxsiyyətin Azərbaycanın milli dövlətçilik tarixində yeri və rolu ilə bağlı da kifayət qədər tədqiqatlar aparılıb. Xüsusən 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Cümhuriyyəti dövründə M.Ə. Rəsulzadənin geniş siyasi fəaliyyəti də bu dövrün tarixi ilə maraqlananlar üçün sirr deyil. Bununla yanaşı elə indinin özündə də Cümhuriyyətin yaradılmasını kollektiv fəaliyyətin məhsulu hesab edərək Azərbaycan dövlətçiliyinin təşəkkülündə M.Ə. Rəsulzadənin roluna və xidmətlərinə kölgə salmaq, "Cümhuriyyət liderləri arasında ayrı-seçkilik salmaq olmaz" iddiası ilə milli hərəkatda və dövlət quruculuğunda liderlik mövqeyini sarsıtmaq cəhdləri ilə üzləşirik. Əlbəttə, Cümhuriyyətin bərqərar olmasında, milli dövlətin otuşdurulmasında, bütövlükdə "Azərbaycan millətinin siyasi varlığının təsbit edilməsində" (M.Ə.Rəsulzadə) F.X.Xoyski, Ə.M.Topçubaşov, N.Yusifbəyli başda olmaqla dövrün ictimai-siyasi xadimləri, ziyalıları əvəzsiz xidmətlər göstərmişlər. Bu şəxsiyyətlərin hər birinin dövlətçilik tariximizdə öz yeri, öz mövqeyi vardır. Lakin öz fəaliyyətində milli demokratik hərəkatın və milli dövlətçiliyin nəzəri prinsiplərini işləyib hazırlamış və bu dövlətçiliyin bərqərar olunması prosesinə bilavasitə rəhbərlik etmiş tək səxsiyyət, heç şübhəsiz, Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Ümumiyyətlə, dünya tarixi yeni dövlətin ideoloji əsaslarını hazırlayaraq bu dövlətin quruculuğunda da iştirak etmiş tək-tük şəxsiyyət tanıyır. Ağıla Sovet Rusiyasının banisi Vladimir Lenindən başqa kimsə gəlmir. Bu baxımdan MƏR təkcə Azərbaycanın deyil, dünya tarixinin fenomenal şəxsiyyətlərindən biridir desək ifrata varmarıq.

Hələ XX əsrin əvvəllərindən başlayaraq M.Ə.Rəsulzadə publisistik fəaliyyəti ilə böyük bir məfkurənin – milli inkişaf, milli dirilik məfkurəsinin əsas prinsiplərini ortaya qoymuş, eyni zamanda coşqun ictimai-siyasi, təşkilatçılıq fəaliyyəti ilə Azərbaycanın gələcək siyasi elitasının formalaşmasında müstəsna rol oynamışdır. Bir qədər sonra Müsavat partiyasının Azərbaycan milli-demokrati hərəkatının aparıcı qüvvəsinə çevrilməsində M.Ə.Rəsulzadənin 1913-cü ildə

bu partiyaya rəhbər seçilməsi həlledici rol oynadı. “Dirilik” məcmuəsində “Milli dirilik” silsilə məqalələrində o təkcə inkişafın ideoloji-nəzəri konsepsiyasını ortaya qoymadı, eyni zamanda milli idealların əməli gerçəkləşdirilməsi üçün konkret vəzifələri müəyyənləşdirdi.

Məhz millətin ümdə arzu və ümidlərinin ifadəçisi olması, eləcə də liderlik qabiliyyəti M.Ə.Rəsulzadəni hələ 1917-cil il Fevral inqilabından əvvəl, tarixi hələ XIX əsrin ortalarından A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi ilə başlamış, sonra isə Ə.b.Hüseynzadə, Ə.b.Ağayev, Ə.M.Topçubaşov, N.Nərimanov və başqa ziyalılarımız tərəfindən daha da inkişaf etdirilmiş yenişəlmə hərəkatının şəriksiz liderinə çevirmişdi. Xalqın mədəni-mənəvi həyatında baş verən mütərəqqi dəyişikliklər onda milli hisslərin oyanmasında, milli şüurun inkişafında və bütün bunların məntiqi nəticəsi olaraq milli hərəkatın yaranmasında mühüm rol oynadı. Məhz bu dövrdə Şimali Azərbaycanda millətləşmə prosesi sürətlənərək milli hərəkatın tədricən ümmətçilikdən milliyyətçilik mərhələsinə keçməsinə şərait yaratdı ki, bu prosesdə aparıcı sima heç şübhəsiz M.Ə.Rəsulzadə olmuşdur. Hələ 1915-ci ildə dünyanın xəritəsinin hökmən dəyişəcəyini, Azərbaycan türk millətinin də bu dəyişikliyə hazır olmasının zəruriliyini bildirən M.Ə.Rəsulzadə bunun üçün ilk növbədə çağdaş dövrün mütərəqqi elmi, fəlsəfi fikri ilə silahlanmağı, “zamanə adamı” olmağı əsas şərt hesab edirdi. O zamankı siyasi senzuranın sərt qadağalarına baxmayaraq M.Ə.Rəsulzadənin “sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq”, “türk və müsəlman olaraq müstəqil yaşamaq” sözləri əslində milli müstəqillik uğrunda mübarizəyə çağırış oldu. 1918-ci ildə Cümhuriyyət quruluşlu milli dövlətin meydana gəlməsi əslində bu çağırışın əmələ keçməsinin,  Azərbaycanda milli hərəkatın ideoloji mahiyyətinə çevrilmiş “Azərbaycançılıq” ideologiyasının həyatiliyinin məntiqi nəticəsi idi. Bu ideologiyanın şəriksiz banisi isə M.Ə.Rəsulzadədir. Azərbaycan Cümhuriyyətinin yaranması Azərbaycançılıq uğrunda aparılan çoxillik mücadilənin, milli dövlət idealının özünütəsdiqi idi. 1917-ci il Fevral inqilabından sonra Azərbaycan istiqlal məfkurəsi Azərbaycanın muxtariyyəti şüarı altında, konkret siyasi proqram şəklində meydana atıldı.

Fevral inqilabından sonra cərəyan edən proseslər əslində müstəqil dövlətin yaradılması yolunun tərkib hissəsi oldu. Xüsusən Qafqaz müsəlmanlarının Bakı qurultayı və Rusiya müsəlmanlarının Moskva qurultayı, bu qurultaylarda qəbul edilmiş qərarlar M.Ə.Rəsulzadənin təkcə Azərbaycan türklərinin deyil, bütün Rusiya türklərinin milli siyasi, mədəni ehtiyaclarının ideoloquna çevrildiyini təsdiq etdi. Ümumiyyətlə, adı çəkilən qurultayların materialları M.Ə.Rəsulzadə bir tarixi şəxsiyyət kimi səciyyələndirilməsi baxımından qiymətli mənbələrdir. M.Ə.Rəsulzadənin qurultayda demokratik dövlət idarəçiliyi, insan azadlıqları, qadın hüquqları, dövlət-din münasibətləri, maarif, mədəniyyət, dil, etnos, millət məsələləri ilə bağlı irəli sürdüyü

ideyalar bu gündə öz aktuallığını saxlamaqdadır. Məhz onun irəli sürdüyü "demokratik federativ respublika" və "milli-məhəlli muxtariyyət" prinsipləri Rusiyanın dövlət quruculuğunun ən münasib forması olaraq qəbul edilmişdi.

1917-ci ilin coşqun hadisələri M.Ə.Rəsulzadə bir siyasi xadim olaraq yeni keyfiyyətlərini üzə çıxardı. Qısa zamanda onun rəhbərlik etdiyi Müsavat Partiyası Azərbaycanın və Cənubi Qafqazın ən güclü siyasi təşkilatlarından biri olaraq milli hərəkatın aparıcı qüvvəsinə çevrildi. 1917-ci ilin iyununda Türk Ədəmi Mərkəziyyət Partiyasının Müsavat Partiyası ilə bir siyasi partiyada (Türk Ədəmi Mərkəziyyət partiyası Müsavat) birləşməsi zamanı siyasi nüfuzu nəzərə alınaraq M.Ə.Rəsulzadə birləşmiş partiyanın lideri seçilmişdi. Həmin ildə keçirilmiş seçkilərin, o cümlədən yerli hakimiyyət orqanlarına, Bakı Sovetinə və Ümumrusiya Müəssislər Məclisinə seçkilərin nəticələri də bu partiyanın siyasi həyatda öz mövqe tutduğunu təsdiq etdi. Azərbaycan milli hərəkatına qarşı aparılan güclü əks təbliğata, şəhər əhalisinin milli tərkibinin uyğunsuzluğuna baxmayaraq Bakı sovetinə keçirilən seçkilərdə (1917-ci ilin oktyabrı) Müsavat partiyası bütün seçicilərin 40 faizinin səsini qazanaraq birinci yer tutmuşdu [16]. Həmin ilin noyabrında Ümumrusiya Müəssislər Məclisinə keçirilmiş seçkilərin nəticələri isə Müsavat partiyasının təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqaz müsəlmanları arasında aparıcı siyasi qüvvə olduğunu göstərdi. Baxmayaraq ki, seçki komissiyaları və məntəqələri əsasən iri şəhərlərdə, qəza və dairə mərkəzlərində yaradılmış, böyük kənd kütlələri faktik olaraq seçki prosesindən kənarda qalmışdı səsvermənin nəticələrinə görə bütün Cənubi Qafqaz üzrə gürcü menşevikləri seçicilərin 26,9% (11 yer), Müsavat partiyası və müstəqil demokratik qrup 25.1 % (10) səs topladılar [15,. Заседание восемнадцатое, 19 февраля 1918 года, s.5]. Bütövlükdə Azərbaycan siyasi qüvvələrinin topladıqları səslərin əksəriyyəti (66,5%) Müsavatın payına düşürdü (müqayisə üçün "Müsəlman sosialist bloku" 17.25%, menşevik Hümmət 9.1%, İttihad isə 7.7 % səs toplamışdı) [13, c.87-88]. Bölgələrdə əhalinin əksəriyyəti də Müsavat partiyasına səs verdi. Maraqlıdır ki, M.Ə.Rəsulzadə Müəssislər Məclisinə namizədliyi Fərqanə vilayətinin müsəlmanları tərəfindən irəli sürülmüşdü ki, bu da onun bütün Rusiya türkləri arasında olan nüfuzundan xəbər verirdi.[2] Müsavat partiyasının 1917-ci ilin oktyabrında keçirilmiş I qurultayı M.Ə.Rəsulzadə liderliyini bir daha təsdiq edərək onu MK-nin sədri seçdi. Qurultayda partiyanın qəbul etdiyi qərarlar, proqram M.Ə.Rəsulzadə bilavasitə iştirakı ilə hazırlanmışdı.

M.Ə.Rəsulzadəyə olan hörmətin bariz nümunəsi idi ki, qurultayı acmaq üçün Rəyasət heyətinə çıxdıqda nümayəndələr onu sürəklə alqışladıqlarndan natiq bir neçə dəqiqə gözləməli olmuşdu (Açıq söz, 1917: №599) Partiya liderinin nəzərincə, bizim amalımız başqalarına hakim

olmaq, başqalarını əzmək deyil, özümüzün rifah və səadətlə yaşamamız və əsir millətlərlə bərabər bəşəriyyətə üzv, hamı ilə bərabər mədəni və mütərəqqi bir millət olmaqdır. (Rəsulzadə, 2013:378).

Qurultayda "Tırzi-hökumət və şəkli idarə komissiyası" adından çıxış edən M.Ə.Rəsulzadə Rusiya dövlətinin milli –məhəlli muxtariyyət əsasında qoşma xalq cümhuriyyəti kimi təşkilinin, Azərbaycanın isə bu demokratik cümhuriyyətdə milli-ərazi muxtariyyəti kimi yer almasının vacibliyini göstərmişdi. Bu zaman M.Ə.Rəsulzadə Azərbaycan muxtariyyətindən bəhs edərkən açıq şəkildə "həmən Irəvan, Gəncə və Bakı quberniyaları ilə sair Zaqafqasiya uyezd və mahallarından bəhs olunuyor" deyə yazırdı (Açıq söz, 1917: №635).

Lakin bolşevik çevrilişi Rusiyanın demokratik əsaslarla yenidən qurmaq imkanlarına son qoyduqdan sonra o vaxtadək əsas şüarı "qoşma xalq cümhuriyyəti" və "Azərbaycanın muxtariyyəti" olan Azərbaycan milli hərəkatı öz məqsədlərinə yenidən baxmalı oldu.
1918-ci ilin əvvəllərində Cənubi Qafqaz regionunu idarə etmək üçün yaradılmış hakimiyyət strukturlarının – Komissarlığın və Seymin təşkilində M.Ə.Rəsulzadənin və onun sədri olduğu Müsavat partiyasının fəal iştirak etdiyinin şahidi oluruq. Komissarlığın tərkibində M.Ə.Rəsulzadə rəhbərliyi ilə Müsəlman (Azərbaycan) milli fraksiyası təsis edilmişdi. 1918-ci ilin fevralın 23-də Cənubi Qafqazdan Rusiya Müəssislər Məclisinə seçilmiş deputatlardan ibarət olan ali hakimiyyət orqanı yaradıldı. Seymin tərkibində yaradılmış və M.Ə.Rəsulzadənin başçılıq etdiyi Müsəlman milli fraksiyası faktik olaraq qanunverici orqanda Azərbaycan xalqının kollektiv təmsilçisi funksiyasını yerinə yetirirdi.

M.Ə.Rəsulzadə Seymin üç aylıq mövcudluğu dövründə Azərbaycan fraksiyası Cənubi Qafqazda dövlət və yerli hakimiyyət strukturlarının yaradılmasında, anarxiya və millətlərarası qarşıdurmanın aradan qaldırılmasında müharibə və sülh məsələlərinin nizamlanmasında, sosial-iqtisadi problemlərin həllində yaxından iştirak etmiş, M.Ə.Rəsulzadənin özü isə diyarın Rusiyada ayrılaraq müstəqil hala gətirilməsi, federativ dövlət kimi bərqərar olması üçün bütün səyləri göstərmişdir. Bəzi hallarda hətta Azərbaycan xalqının maraqlarına tam cavab verməsə də (bu xüsusən Türkiyə ilə münasibətlər məsələsində özünü göstərirdi) Fraksiya Cənubi Qafqaz xalqlarının həmrəyliyi və birliyi naminə ümumi mövqedən çıxış etməyi zəruri hesab edirdi. M.Ə. Rəsulzadə Seymin ilk iclaslarından Cənubi Qafqazın müstəqil dövlət kimi elan edilməsini, Seymin isə ali qanunverici orqan kimi öz səlahiyyətlərini dəqiq müəyyənlşdirilməsini tələb etmişdi. O yaranacaq hökumətin bütün Cənubi Qafqaz xalqlarını təmsil edən koalision əsaslarla təşkilini təklif edirdi. (Закавказский Сейм, 1918: 27-28). Aprelin 9-da (aprelin 22) Seymdə Cənubi Qafqazın müstəqilliyi məsələsi müzakirə olunarkən

M.Ə.Rəsulzadə iki dəfə çıxış edərək Cənubi Qafqaz xalqlarının Rusiya imperializminə qarşı birgə mübarizə aparmaları və əmin-amanlıq şəraitində yaşamaları üçün dərhal müstəqilliyin elan edilməsi təşəbbüsünü dəstəkləmişdi (Закавказский Сейм, 1918:11). Məhz Azərbaycan fraksiyasının təkidli mövqeyi sayəsində Seym həmin gün Cənubi Qafqazın müstəqilliyinin və Cənubi Qafqaz Demokratik Qoşma (Federativ) Respublikasının yaradılmasını elan etmişdi.

Seymin Azərbaycan fraksiyasını narahat edən əsas məsələ Türkiyə ilə müharibənin davam etməsi ucbatından möhkəm sülh müqaviləsinin bağlanmaması idi. Bolşeviklərlə Türk hökuməti arasında bağlanmış Brest-Litovsk sülh sazişini (3 mart 1918) sülh sazişini tanımaqdan imtina edən Cənubi Qafqaz hökumətinin gürcü-erməni tərkibi ("Gegeçkorinin savaş kabinəsi" – M.Ə.Rəsulzadə) hərbi əməliyyatları davam etdirməklə bölgənin gələcəyini təhlükə altına almışdı. M.Ə.Rəsulzadənin aprelin 9-da (aprelin 22-də) Seymin iclasına Trabzonda Türkiyə ilə sülh danışıqlarının davam etdirilməsi, hərbi əməliyyatların dərhal dayandırılması və möhkəm sülhün bağlanması ilə bağlı layihə təqdim etdi. Lakin çoxluq bu təklifi qəbul edilmədiyindən (Закавказский Сейм, 1918: 70) hərbi əməliyyatlar davam etdirilmiş və birləşmiş gürcü-erməni qoşunları məğlubiyyətə uğramışlar. Yalnız bundan sonra Seym yeni sülh danışıqlarına (bu dəfə Batumda) razılıq verməyə məcbur olmuşdu. Sülh danışıqlarının aparılması üçün yaradılmış nümayəndə heyətinə M.Ə.Rəsulzadənin də daxil edilməsi onun bu məsələdə qətiyyətli mövqeyinin nəticəsi sayılmalıdır.

Seymdə fəaliyyət göstərdiyi dövrdə Cənubi Qafqazın müxtəlif bölgələrində, xüsusən İrəvan quberniyasında müsəlman əhaliyə qarşı zorakılıqlar, Bakıda məşum Mart hadisələri M.Ə.Rəsulzadəni çox sarsıtmışdı. Mart hadisələrində müsəlmanlara qarşı soyqırımları bolşeviklərlə daşnakların birgə əməli kimi qiymətləndirən M.Ə.Rəsulzadə Cənubi Qafqaz Seyminin və hökumətinin də bu cinayətlərə görə məsuliyyət daşıdığını Seym kürsüsündən bəyan etmiş, müsəlmanların müdafiəsi üçün qəti tədbirlərin görülməyəcəyi təqdirdə onlarla birlikdə işləməyin mümkün olmayacağını bildirmişdi (Закавказский Сейм, 1918: 39).

Türkiyə ilə münasibətlər, Mart hadisələri Cənubi Qafqaz hakimiyyətində mövcud böhranın daha da dərinləşməsinə gətirib çıxardı. Əslində bu hadisələr Azərbaycanın siyasi elitasında müstəqil dövlətin yaradılmasın milli hərəkatının əsas məqsədi olduğu qənaətini yaratmış oldu.

## 2. Milli Dövlətin İlk Başçısı

1918-ci il mayın sonlarında Cənubi Qafqaz dövlətçiliyinin dağılmasından sonra Seymin Müsəlman fraksiyası Azərbaycan milləti qarşısında tarixi məsuliyyətini dərk edərək mayın 27-də Azərbaycan Milli Şurasını yaratdı. Milli Şuraya (bəzi sənədlərdə Azərbaycan Məclisi-Millisi

kimi də gedir- K.İ.) M.Ə.Rəsulzadənin sədr seçilməsi onun Azərbaycan milli hərəkatının şəriksiz lideri olmasının növbəti təsdiqi oldu. Halbuki M.Ə.Rəsulzadə o zaman Tiflisdə deyildi və Batumda Cənubi Qafqaz nümayəndə heyətinin üzvü kimi Osmanlı hərbi komandanlığı ilə danışıqlar aparırdı.

Milli Şuranın sədri vəzifəsi əslində hüquqi cəhətdən Azərbaycan dövlətinin başçısı vəzifəsinə uyğun idi. Birinci, ona görə ki, Azərbaycan Milli Şurası legitim, xalq tərəfindən seçilmiş nümayəndələrin yaratdığı dövlət strukturu idi. İkinci, Milli Şuranın qəbul etdiyi İstiqlal Bəyannaməsinin sonuncu, 6-cı bəndində də ifadə olunurdu ki, "Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur" (АзербайджанскаяРеспублика, 1998: 12). Buradan da bəlli olur ki, Milli Şura yeni dövlətin tam səlahiyyətli ali idarəetmə orqanı idi, icraedici orqan – Müvəqqəti hökumət də Milli Şura tərəfindən yaradılmışdı və ona tabe idi. Deməli M.Ə.Rəsulzadə milli Azərbaycan dövlətinin ilk legitim dövlət başçısı olmuşdur.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsini qəbul etməklə tarixi arenaya yeni bir dövlətin – Azərbaycan Cümhuriyyətinin daxil olduğunu bütün dünyaya elan etdi. Bu sənəd yeni dövlətin əsas yaşam prinsiplərini müstəqillik, insan hüquqlarına hörmət, milli, dini, sosial bərabərlik, dünyanın bütün dövlətləri və xalqları, o cümlədən qonşu xalqlarla dinc və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq kimi ümumbəşəri və demokratik ideyaları özündə ehtiva edirdi.

İstiqlal Bəyannaməsi Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil dövlət statusunu hüquqi cəhətdən möhkəmləndirdi. Həmin hadisədən bir il sonra "Azərbaycan" qəzeti yazırdı ki, bu aktla Azərbaycan türkləri demokratik xalqlar ailəsinə ilk müsəlman-türk respublikasını daxil etdilər. Bəyannamədə dövlət həyatının əsaslarının əks olduğunu nəzərə alsaq, onda bu sənədi AXC-nin qanunvericilik sisteminin hüquqi əsasını təşkil edən və faktiki olaraq Əsas Qanun funksiyasını yerinə yetirən Konstitusiya aktı kimi səciyyələndirmək olar. Cümhuriyyətin elan edilməsi ilə Azərbaycan xalqı tarixində ilk dəfə olaraq dövlət millətinə çevrildi. M.Ə.Rəsulzadə bu barədə yazırdı: "28 mayis 1918 Bəyannaməsini nəşr etməklə Azərbaycan Şurayi - Millisi, sözün siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Beyləki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafi və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur" (İstiqlal qəzeti, 1933). Azərbaycan xalqı ilk dəfə olaraq bütün islam dünyasına cümhuriyyətçilik məfkurəsini gətirərək bununla müstəmləkə zülmü altında

yaşayan dindaş millətlərə də modern dövlət yaratmaq nümunəsi, azadlıq və demokratiya dərsi verdi. İslam dünyasında tarixdə mövcud olmuş bütün dövlətlər, əsasən, dini və ya sülalə zəminində qurulduğu halda, Azərbaycan Xalq Cümhuriyyəti İslam coğrafiyasında dünyəvi təməl üzərində qurulan ilk milli dövlət idi. Bununla bağlı M.Ə.Rəsulzadə yazırdı: «Azərbaycan müsəlman aləmində ilk respublika və türk aləmində ilk dövlətdir... Türk mənşəli bütün digər dövlətlər başlıca olaraq dini təməl üzərində qərar tutduqları halda Azərbaycan Respublikası müasir milli-mədəni müstəqillik təməlinə, türk milli-demokratik dövlət qurumu zəmininə əsaslanır və bu baxımdan bizim respublikamız ilk türk dövlətidir” (Hüseynov, 1996:77).

Əgər Cümhuriyyətin yaradılmasına qədər Müsavat partiyası başda olmaqla Azərbaycan milli hərəkatının başlıca vəzifəsi “Azərbaycan fikrini yalnız xaricdə deyil, daxildə də isbat etmək”dən ibarət idisə, Cümhuriyyətin yaradılması ilə artıq xalqın zehnində Azərbaycan istiqlalı fikri möhkəm yer tutmuşdu. İndi əsas vəzifə “felən mövcud olan Azərbaycan istiqlalının hüquqca möhkəmləşməsi, xaricdə müdafiəsi, daxildə təşkili” (M.Ə.Rəsulzadə) üçün çalışmaqdan ibarət idi (AzərbaycanXalqCümhuriyyəti, 1998:51-52).

Azərbaycanda milli dövlət quruculuğu prosesi çox mürəkkəb və ağır vəziyyətdə davam edirdi. Ölkənin siyasi mərkəzi olan Bakı şəhəri və Bakı qəzası milli dövlətçiliyə qarşı barışmaz mövqedə duran bolşevik-daşnak qüvvələrinin əlində idi. Qəzalarda, xüsusən Şuşa, Zəngəzur, Naxçıvan, Vedibasar və başqa yerlərdə erməni quldur dəstələri türk-müsəlman əhalisinə qarşı amansız vəhşilikləri davam etdirirdilər. Bakı neftini ələ keçirmək uğrunda xarici qüvvələr arasında rəqabət daha da kəskinləşmişdi.

1918-ci il iyunun 16-da Gəncəyə köçən Azərbaycan Milli Şurası və Hökuməti ilə burada olan türk qoşun hissələrinin komandanı Nuri paşa arasında ziddiyyətlər ilk hökumət böhranına səbəb oldu. Burada da M.Ə.Rəsulzadənin siyasi dühası qalib gəldi. Onun təkidi ilə Cümhuriyyət rəhbərliyi yeni qazanılmış müstəqilliyi qorumaq naminə müvəqqəti olaraq demokratiya prinsipindən geri çəkilərək 17 iyunda Milli Şuranın buraxılması və bütün qanunvericilik və icra hakimiyyətinin yenidən təşkil edilmiş Müvəqqəti hökumətə verilməsi haqqında qərar qəbul etdi (АзербайджанскаяРеспублика, 1998:15-16). Bu qərarı qəbul etməklə M.Ə.Rəsulzadə və silahdaşları dövlət və millət maraqlarının şəxsi və firqə maraqlarından üstün tutduqlarını bir daha göstərdilər. Sonrakı proseslər bu qərarın doğruluğunu təsdiq etmiş oldu.

1918-ci il iyunun ortalarından noyabrın ortalarına qədər M.Ə.Rəsulzadə Azərbaycan siyasi rəhbərliyində təmsil olunmadı. Lakin bu dövrdə o daha məsuliyyətli missiyanı öz üzərinə götürərək onu şərəflə yerinə yetirdi: dövlətin varlığını və ərazi bütövlüyünü təmin etmək üçün

diplomatik fəaliyyət göstərmək. Yeni yaradılmış türk dövlətinin zəruriliyini təkcə düşmənlərə deyil, elə dostlara da inandırmaq vacib idi.

**3. M.Ə.Rəsulzadənin Diplomatik Missiyası**

Hələ Batumda olarkən uyun ayının 4-də Türk komandanlığı ilə bağlanmış müqavilə Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə bağladığı ilk diplomatik sənəd olmaqla, həm də M.Ə.Rəsulzadənin dövlət başçısı kimi öz imzasını (XİN M.H.Hacınski ilə birgə) qoyduğu ilk dövlət sənədi oldu. Bundan sonra yenidən Azərbaycana qayıdan M.Ə.Rəsulzadə Sülh konfransında iştirak etmək üçün İstanbula göndərilən nümayəndə heyətinin (heyətin digər üzvləri X.b.Xasməmədov və A.b.Səfikürdski idilər) sədri təyin edilmişdi (АзербайджанскаяДемократическаяРеспублика, 1998:25-26). Bununla da M.Ə.Rəsulzadə həm də Azərbaycan Cümhuriyyətinin ilk diplomatik missiyasının rəhbəri oldu.

İstanbul'da gəldiyi gündən (24 iyun 1918-ci il) M.Ə.Rəsulzadənin Azərbaycanın tanıdılması, Türkiyə və başqa dövlətlərlə münasibətlərin yaradılması, Azərbaycana hərbi və maliyyə dəstəyinin göstərilməsi, ən əsası isə Bakının azad edilməsi ilə bağlı göstərdiyi göstərdiyi səylər Azərbaycan diplomatiya tarixinin ən şərəfli səhifələrindən birini təşkil edir. Onun istər Türkiyənin ali rəhbərliyi, istərsə də müxtəlif xarici nümayəndələrlə saysız-hesabsız görüşlərinin bir məqsədi var idi – Azərbaycanın xilası. Bunun üçün isə ilk növbədə Bakının yadelli qüvvələrdən azad edilməsinə nail olmaq lazım idi. M.Ə.Rəsulzadənin İstanbuldan F.X.Xoyskiyə, M.H.Hacınskiyə göndərdiyi məktublar bu görkəmli siyasi xadimin diplomatik məharətini kəşf etmək baxımından əvəzsiz mənbələrdir. Bu məktublar həm də onun dövrün beynəlxalq münasibətlərin, müxtəlif dövlətlərin xarici siyasətinin, müasir dillə desək, geopolitikanın sirlərinə yaxından bələd olan bir şəxsiyyət kimi səciyyələndirir. Bakı nefti məsələsinin beynəlxalq məsələ olduğunu bildirən M.Ə.Rəsulzadə Türkiyə tərəfini bu məsələdə daha çevik hərəkət etməsini zəruri sayır və hesab edirdi ki, Bakını Azərbaycana qaytarmaq üçün Türkiyə hərbi səylərini artırmalıdır. Məlum olduğu kimi, M.Ə.Rəsulzadənin apardığı gərgin danışıqlardan sonra Azərbaycana əlavə türk qoşunları göndərilmiş və Bakı uğurunda hərəkat başlamışdı.

Türkiyənin, Almaniyanın təmsilçiləri ilə görüşlərdə M.Ə.Rəsulzadə Bakı məsələsində onların iqtisadi maraqlarının təmin edilməsinə razılıq verməklə Azərbaycanın Bakı üzərində təbii—milli hüquqlarını təsbit etdirməyə nail olmuşdu. Buna görə də bütün görüşlərində, yazışmalarında Bakının Azərbaycan üçün əhəmiyyətini vurğulayan M.Ə.Rəsulzadə M.H.Hacınskiyə göndərdiyi 7 avqust 1918-ci il tarixli məktubunda necə olursa olsun, nəyin bahasına olursa olsun Bakını azad etməyi və hamını baş tutmuş fakt qarşısında qoymağı təkid

edir və bildirirdi ki, Bakı hərəkatı Azərbaycan naminə olmalı, onu Azərbaycan hökuməti azad etməlidir. Əks halda çətinliklərə üzləşə bilərik. M.H.Hacıniskiyə 6 sentyabr 1918-ci il tarixli məktubunda isə M.Ə.Rəsulzadə vəziyyətin pislədiyin, Bakının Azərbaycan üçün ölüm-dirim məsələsinə çevrildiyini bildirərək yazırdı: "Bakı məsələsi ancaq gücdən asılıdır. Əgər Bakı alınmasa hər şey bitmişdir. Əlvida Azərbaycan. İstanbulda olduğu müddətdə Azərbaycanın müstəqil dövlət kimi tanıdılması, Bakının isə Azərbaycanın təbii paytaxtı, əqli, iqtisadi, siyasi mərkəzi olduğunu sübut etmək üçün də M.Ə.Rəsulzadə gərgin diplomatik iş aparır, şəxsi görüşlərlə ilə yanaşı İstanbuldakı diplomatik nümayəndəliklərə Azərbaycanın tarixi, coğrafiyası, iqtisadiyyatı haqqında məlumatları çatdıraraq Azərbaycanın müstəqil dövlət kimi yaşamaq hüququna malik olduğunu bildirir və qeyd edirdi ki, Bakı məsələsi Azərbaycan üçün təkcə ərazinin artırılması məsələsi deyil, onun yaşamaq qabiliyyəti üçün əsas şərtdir. Lakin bir sıra ölkələrin nümayəndələri, xüsusən İran dövləti bu hüququ tanımaqdan imtina edərək göndərilən məktubları belə geri qaytarırdılar (АзербайджанскаяДемократическая Республика, 1998: 67-68,70). Qafqaz İslam Ordusunun uğurlu hərbi əməliyyatları və M.Ə.Rəsulzadənin diplomatik səyləri də daxil olmaqla Cümhuriyyət hökumətinin gərgin fəaliyyəti nəticəsində 1918-ci il sentyabrın 15-də Bakı azad olundu.

Bu hadisədən sonra bir aydan da artıq İstanbulda olan M.Ə.Rəsulzadə bu müddətdə də gərgin fəaliyyət göstərmiş Türkiyə hökuməti ilə Azərbaycan hökuməti arasında bir çox müqavilələrin imzalanmasına nail olmuşdu.

## 4. Demokratik dövləti quruculuğu

M.Ə.Rəsulzadənin 1918-ci il oktyabrın sonlarında Bakıya qayıtması Azərbaycan dövlətçiliyinin çətin dövrünə təsadüf etdi. Birinci Dünya müharibəsinin nəticəsi olaraq Osmanlı qoşunlarının Cənubi Qafqazı tərk etməsi və buraya Antantanın təmsilçisi kimi Böyük Britaniya qoşunlarının daxil olması Azərbaycanda yeni şərait yaratdı. Belə şəraitdə Azərbaycanı yenə də M.Ə.Rəsulzadənin, F.X.Xoyskinin və başqa şəxsiyyətlərin siyasi dühası xilas etdi. Məhz onların təşəbbüsü ilə ölkədə seçkili təsisatın - Milli Şuranın fəaliyyətinin bərpa edilməsi haqqında qərar qəbul edildi. Məlum olduğu kimi, Azərbaycan Milli Şurasının 1918-ci il iyunun 17-də keçirilmiş iclasında Milli Şurasının buraxılması, bütün qanunverici və icraedici hakimiyyətin Müvəqqəti hökumətə verilməsi haqqında qətnamə qəbul edilmişdi. Həmin qətnamədə altı aydan gec olmayaraq ümumi və birbaşa seçkilər əsasında Müəssislər Məclisinin çağırılması nəzərdə tutulmuşdu. Lakin bu müddət ərzində obyektiv və subyektiv səbəblərdən Müəssislər Məclisini çağırmaq mümkün olmamışdı. Azərbaycan Milli Şurası öz fəaliyyətini bərpa etdikdən sonra noyabrın 16-da M.Ə.Rəsulzadənin sədrliyi ilə ilk iclasını keçirmiş,

noyabrın 19-da keçirilmiş iclasında isə vəziyyətin müstəsnalığını nəzərə alaraq müvəqqəti parlamentin – Məclisi-Məbusanın çağırılması qərara alınmışdı. Parlamentin yaradılması haqqında Milli şuranın qəbul etdiyi qanunda ali orqanın təşkili prinsipləri müəyyən edilmiş, bu zaman partiya təmsilçiliyi və milli təmsilçiliklə yanaşı inzibati-ərazi təmsilçilyi prinsipi də əsas götürülmüşdü. Azərbaycan Məclisi-Məbusanın təsisi haqqinda qanunda Azərbaycan müsəlmanlarının həyati xüsusiyyətləri nöqteyi-nəzərindən məclisdə təkcə siyasi cərəyan nümayəndələrinin deyil, vilayətlərdən göndərilən nümayəndələrinin də iştirakının zəruriliyi bildirilirdi (АзербайджанскаяДемократическая Республика, 1998:75). Azərbaycan Cümhuriyyəti Parlamentinin çağırılması ilə əlaqədar Azərbaycan Milli Şurası adından, onun sədri M.Ə.Rəsulzadənin imzası ilə 1918-ci il noyabr ayının 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" Müraciətnaməsi dərc edildi. Müraciətnamədə parlamentin çağırılması məsələsinə aydınlıq gətirilir, milliyyətindən, dinindən və siyasi baxışlarından asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarına “ədavət və ixtilafı bir tərəfə qoyaraq ümumi vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə kəndi səadətlərini hazırlamaq üçün yek digərinə əl uzatmağa və yardım etməyə” çağırış edilirdi (АзербайджанскаяДемократическая Республика, 1998:80-81).

Azərbaycanı işğal etmiş ingilis qoşunlarının komandanı general Tomson belə ümumiyyətlə, Azərbaycan adlı dövlətin mövcudluğunu inkar etmiş, bu əraziləri rus əraziləri adlandırmışdı (АзербайджанскаяДемократическая Республика, 1998:70, 76). General Tomsonun belə mövqe tutmasına Bakıdan onunla görüşə gəlmiş erməni və rus milli şuralarının nümayəndələrinin də rolu az olmamışdı. V.Tomson özü Bakıdakı ilk bəyanat və çıxışlarında "Azərbaycan" ifadəsini belə işlətməyi lazım bilməmişdi. Lakin vəziyyətlə bilavasitə tanış olduqdan sonra azərbaycanlılar barədə ona verilən məlumatların qərəzli olduğunu anlamışdı. Mürəkkəb şəraitdə Azərbaycan hökuməti bütün mümkün vasitələrdən istifadə edərək dövlətin suverenliyini təmin etməyə nail oldu. Az müddətdən sonra V.Tomson və Antantanın digər nümayəndələrinin Azərbaycan hökumətinin tanımaları və onunla əməkdaşlıq etməyə hazır olduqlarını bəyan etmələri Azərbaycan dövlətçiliyini tanımaqdan imtina edənlərə böyük zərbə oldu.

Azərbaycan Cümhuriyyətinin parlamentində iştirakı M. Ə. Rəsulzadənin dövlətçilik fəaliyyətinin ən mühüm mərhələsini təşkil edir. Məhz parlamentdə müstəqil dövlət quruculuğu, idarəetmə sahəsində göstərdiyi misilsiz fəaliyyəti onun liderlik məharətini, demokratizmini, müdafiə etdiyi ideyaların uzaqgörənliyini və dönməzliyini bir daha sübut etdi. M.Ə.Rəsulzadə, onun rəhbərlik etdiyi Müsavat partiyasının xidmətləri sayəsində parlament Azərbaycan siyasi

sistemdə ən aparıcı rola malik olmuş, Azərbaycanın gələcək taleyinə mühüm təsir göstərəcək bir sıra qanun və qərarlar qəbul etmişdi. Məlumdur ki, dekabrın 7-də parlamentin ilk iclasını Milli Şuranın sədri kimi M.Ə.Rəsulzadə öz açmış, qısa giriş nitqində "səadət və hürriyyətin istiqlal olduğunu, azərbaycanlıların istiqlala layiq olduğunu, bütün mövcudiyyətlərilə öz müqəddaratlarını və istiqlalını müdafiə edəcəklərinə" inamını bildirmişdi. Ö millət vəkillərinə üzünü tutaraq firqə ehtiraslarını, şəxsi qərəzləri və bütün bu kimi vətən və millət qarşısında səqit qalan qərəzləri atmağı, vətən qayğısını, millət duyğusunu hər şeydən yüksək tutmağa çağırmışdı (Azərbaycan Xalq Cümhuriyyəti. I cild, 1998:35-36).

M.Ə.Rəsulzadə parlamentdə mövcud olan ən böyük fraksiyanın - Müsavat fraksiyasının rəhbəri olmuş, 1919-cu ilin oktyabrında bu fraksiyaya bitərəflərin qoşulması ilə o parlamentdə ən nüfuzlu və həlledici qüvvəyə çevrilmişdi.

Parlament sənədlərinin təhlili göstərir ki, ali qanunverici orqanın ən fəal üzvlərindən olan M.Ə.Rəsulzadə müzakirə olunan bütün məsələlər üzrə çıxış edərək öz prinsipial mövqeyini bildirir, əksər hallarda məhz onun mövqeyi qərarların qəbul olunmasında həlledici amil olurdu.

Müsavat fraksiyasının lideri kimi M.Ə.Rəsulzadə parlamentin ikinci iclasında öz fraksiyasının bəyannaməsi ilə çıxış edərək rəhbərlik etdiyi siyasi təşkilatın taktiki, strateji məqsədləri, dövlətin daxili və xarici siyasətinin əsas istiqamətləri haqqında məlumat vermişdi. Ictimai həyatın bütün sahələrinin özündə ehtiva edən bu bəyannamə əsil dövlət quruculuğu proqramı xarakteri daşıyırdı. Azərbaycan məsələsinin artıq beynəlmiləl bir məsələ olduğunu qeyd edən M.Ə.Rəsulzadə "Müstəqil Azərbaycanın hüquqən təsdiq edilməsini" hökumətin əsas vəzifəsi olduğunu göstərir və ""bir dəfə yüksələn bayraq endirilməz" sözü dildə deyil, işdə də görülməlidir" şüarını irəli sürürdü (AzərbaycanXalqCümhuriyyəti, I cild, 1998:52). Demokratik dövlət qurmaq əzmini nümayiş etdirən M.Ə.Rəsulzadə bunun əsas atributları olan söz, vicdan, ictimai ittifaq və bu kimi "əhli-vətən hürriyyətlərini", milli bərabərliyi bərqərar etməyi, Azərbaycanın müsalihəkar, hürriyyətpərvər bir hökumət olacağını inamını bildirir və əmin olduğunu göstərirdi ki, "millət məhkumluğu ağrısını dadmış olan Azərbaycan türkü məhkum millət yaratmaz". Onun nəzərincə, "hürriyyət, müsavat, ədalət və əmniyyət təsis edərək məmləkətin istiqlalını və millətin həyatını müdafiə edəcək hökumət yalnız firqə və milliyət etibarı ilə müştərək və koalisiyon əsasda qurulmalı idi. Bununla əslində M.Ə.Rəsulzadə bütün siyasi qüvvələri milli birliyə və həmrəyliyə çağırırdı [Azərbaycan Xalq Cümhuriyyəti, I cild, 1998:53-54].

M.Ə.Rəsulzadə hökumətin xalqı düşündürən bütün məsələləri həll etmək məqsədi ilə bir sıra radikal və mütərəqqi addımlar atacağını, o cümlədən torpaq, sosial, əmək, maarif, səhiyyə sahəsində islahatlar aparacağını ümid etdiyini bildirirdi.

Ermənistanla münasibətlər parlamentin iclaslarında müzakirə olunarkən, M.Ə.Rəsulzadə bu münasibətləri gərginləşdirən əsas səbəb kimi ermənilərin torpaq iddiası olduğunu göstərir, Zəngəzur, Qarabağ, Naxçıvan, eləcə də Borçalının Azərbaycanın ayrılmaz hissəsi ("qitəsi"-M.Ə.R.) olduğunu qeyd edir, eyni zamanda bütün mübahisəli məsələlərin sülh yolu ilə həllinin tərəfdarı olduğunu bildirirdi.

M.Ə.Rəsulzadə Irəvan quberniyasında yaşayan müsəlmanlara qarşı yeridilən soyqırıma qarşı parlamentdə bir neçə dəfə məsələ qaldırmış, bu məsələni Sülh konfransı vasitəsi ilə beynəlxalq arenaya çıxarmağı təkid etmişdi. Parlamentin 9-cu iclasında (25 yanvar 1919-cu il) M.Ə.Rəsulzadə növbədənkənar bəyanatla çıxış edərək Naxçıvan və Şərur qəzalarında, eləcə də Irəvan quberniyasının digər yerlərində türklərə qarşı yeridilən təcavüzə qarşı Azərbaycan hökumətini xüsusi tədbirlər görməyə, nahaq tökülən qanların qarşısını almaq üçün bütün mümkün vasitələrdən istifadə etməyi təkidlə tələb etmişdi (Azərbaycan Xalq Cümhuriyyəti, I cild, 1998:196).

M.Ə.Rəsulzadənin parlament fəaliyyətinin mühüm istiqamətlərindən biri də hüquqi dövlətin əsaslarının yaradılması olmuşdur. Bu baxımdan M.Ə.Rəsulzadənin rəhbərliyi ilə hazırlanmış və 1919-cu ilin yanvar ayında qəbul edilmiş "Məşğulluq və məmurluq haqqında" qanun mühüm rol oynamışdı. Bir çox deputatlar Azərbaycanda kifayət qədər kadrların olmadığını nəzərə alaraq bu qanundan imtina etməyi təkid edir, nüfuzlu insanların həm hökumətdə, həm də parlamentdə işləməsini heç də ziyanlı olmadığını göstərirdilər. Lakin demokratiyanın əsas prinsipi olan hakimiyyətin bölünməsi prinsipinin əməl tətbiqi baxımından bu qanunun qəbul olunması mühüm əhəmiyyət kəsb etmişdi.

M.Ə.Rəsulzadə parlamentdəki çıxışlarında bir çox ideoloji və siyasi məsələlərə aydınlıq gətirmiş, zamanın qoyduğu suallara cavab verməyə çalışmışdır. Bu zaman o, özünü hazırlıqlı, Avropa demokratiyası ənənələrinə yaxşı bələd olan bir ictimai xadim, ideoloq kimi göstərmişdi. Hələ fraksiyanın bəyannaməsində öz partiyasını federalist, türkçü və demokratiya məsləkli milli-demokratlar partiyası olduğunu bəyan edən M.Ə.Rəsulzadə, 1919-cu il fevralın 6-da sosialistlərlə diskussiyaya girərək türklüyün bayrağını Qafqazda birinci qaldıran, türk hissiyatını oyadan partiyanın məhz Müsavat olduğunu, türklük ilə türkçülüyü qarışdırmamağa çağırırdı (Azərbaycan Xalq Cümhuriyyəti, I cild, 1998: 232). O, qeyd edirdi ki, "millətdə milli ruh, milli idrak, etirafi milliyət, şəxsiyyəti-milliliyə lazımdır. Biz bunu millətə verməyə

çalışırıq.. Əkinçiyə torpaq, fəhləyə iş vermək bütün demokratik firqələrin proqramında var. Fəqət sosialistlər ilə bizim fərqimiz bundadır ki, onlar beynəlmiləlçidirlər, biz isə demokratik millətçi" (AzərbaycanXalqCümhuriyyəti, I cild, 1998:260).

M.Ə.Rəsulzadə dövlətçilik mövqeyindən çıxış edərək parlamentlə hökumət arasında süni ziddiyyət yaratmaq, bununla da dövlət aparatını iflic vəziyyətə salmaq istəyənlərə qarşı qətiyyətlə mübarizə aparırdı. 3 aprel 1919-cu il tarixli iclasda hökuməti əsassız olaraq tənqid edənləri nəzərdə tutaraq qeyd edirdi ki, "tənqid üçün tənqiddən bir şey çıxmaz. Tənqid dövlət nöqteyi-nəzərindən olmalıdır. Bütün aləm anarxiyanın təsiri altında ikən birdən birə qalxıb Azərbaycanın bir cənnət olmasını istəmək heç bir şey istəməmək deməkdir" (Azərbaycan Xalq Cümhuriyyəti, I cild, 1998:429-430).

M.Ə.Rəsulzadə dövlət quruculuğu ilə bağlı qanunvericilik aktlarının hazırlanmasında fəal iştirak edərək, xüsusən Müəssislər Məclisinin çağrılması ilə bağlı yaradılmış komissiyada çox mühüm işlər görmüş, komissiyada hazırlanmış "Müəssislər Məclisinə seçkilər haqqında" qanun layihəsinin əsas müəllifi olmuşdur. Qanun layihəsini də parlamentin müzakirəsinə məhz M.Ə.Rəsulzadə təqdim etmiş, bu zaman o özünü Avropa seçki sisteminin mahir bilicisi kimi göstərmiş, qanunun demokratik mahiyyətini tam açmağa nail olmuşdu. 1919-cu il iyunun 19-da parlamentdə qanun layihəsi müzakirə olunarkən M.Ə.Rəsulzadə məscidlərdə, kilsələrdə və digər dini yerlərdə seçki təbliğatı aparılmasının dinin dövlətdən ayrılması ilə bağlı demokratik prinsipə zidd olduğunu göstərərək siyasi partiyalara məscidlərdən öz məqsədləri üçün sui-istifadə etmələrinin qadağan olunmasını zəruri hesab edirdi.

M.Ə.Rəsulzadə parlamentdə sosial-iqtisadi məsələlərin müzakirəsində də fəal iştirak etmiş, iqtisadi problemlərin həlli üçün dəyərli və səmərəli tövsiyə və təkliflər irəli sürmüşdür. Azad rəqabət və azad ticarət, idxal-ixrac, maliyyə, vergi məsələlərinə dair M.Ə.Rəsulzadə çox maraqlı fikirlər irəli sürürdü. Məsələn, M.Ə.Rəsulzadə dövlətin vergi sistemindən danışarkən müstəqim (birbaşa – K.I.) vergilərin əleyhinə olduğunu bildirmiş, lakin eyni zamanda dövlətin ağır maliyyə durumunu nəzərə alaraq müstəqim vergilərin tam aradan qaldırılmasının hələlik mümkün olmadığını, heç olmasa müəyyən sistemə salmağa çağırmışdı. M.Ə.Rəsulzadə azad ticarət və inhisar məsələsinə də öz münasibətini bildirərək, yalnız müəyyən qism əmtəələrə dövlət inhisarının tətbiq edilməsini, qalan mallara isə tam azad satış və ixrac tətbiq edilməsini təklif edirdi. M.Ə.Rəsulzadənin iqtisadi məsələlərdə dərin biliyə, müasir dünyagörüşə malik olduğunu belə bir fakt da təsdiq edirdi ki, Azərbaycan dövlətinin tarixində ilk dəfə olaraq 1920-ci ilin yazında parlamentdə hazırlanmış və müzakirə edilmiş büdcə layihəsinin əsas müəlliflərindən biri məhz M.Ə.Rəsulzadə olmuşdur. O büdcə layihəsi ilə bağlı qanun layihəsini

şəxsən parlamentə təqdim etmiş, onun maddələrini ətraflı əsaslandırmışdı. Bu zaman M.Ə.Rəsulzadə, özünün də qeyd etdiyi kimi, Avropa ölkələri, Rusiyanın büdcə qanunlarının hazırlanması ənənələri ilə ətraflı tanış olmuş, onların ən mütərəqqi cəhətlərini Azərbaycanda tətbiq etməyə çalışmışdı.

M.Ə.Rəsulzadənin parlamentdə maarif, mədəniyyət, dil problemləri ilə bağlı çıxışları üz aktuallığı ilə seçilirdi. Onun Azərbaycanda mədəni-maarif müəssisələri şəbəkəsinin genişləndirilməsi, azad mətbuatın inkişafı, Azərbaycan türk dilinin dövlət dili kimi statusunun daha da artırılması ilə bağlı irəli sürdüyü ideyalar və təkliflər mühüm əhəmiyyət daşıyırdı. O, dövlət idarələrində, parlamentdə Azərbaycan türk dilinin tətbiqinin genişləndirilməsini, rəsmi yazışmaların, parlament iclaslarının yalnız dövlət dilində aparılmasını təkid edirdi. Hətta 29 iyun 1919-cu ildə, parlamentin 6-cı iclasında, parlamentə daxil olan məktubların rusca oxunmasına etiraz edərək, iclası tərk etmişdi. Bununla yanaşı, dövlət dilinin statusu ilə bağlı məsələlərdə o ifratçılığa varmamağa, reallıqları nəzərə almağa çağırırdı. Məsələn, 1919-cu ilin avqustun 21-də parlamentdə universitetin açılması ilə bağlı müzakirələrdə çıxış edərkən, universitetdə tədrisin rusca aparılacağını əldə əsas tutaraq onun açılmasına qarşı çıxış edənlərə layiqli cavab verərək qeyd edirdi: "Rus və ya başqa millət mədəniyyəti yoxdur. Ümum və finun bitərəfdir. Dünyada rus elmi deyil, beynəlmiləl bir elm var. Biz bu beynəlmiləl elmi, hər bir millətin ağzından eşitdiyimiz kimi, rus professorlarının ağzından öyrənə bilərik… Heç bir millət tarixən ilk addımında milli bir darülfünuna sahib olmamışdır. Əvvəlcə özgələrdən istifadə edərək, sonra get-gedə qüvvət kəsb etmişdir. Darülfünun hər dildə olsa da olsun açıb oxumalıyıq" (AzərbaycanXalqCümhuriyyəti, II cild, 1998:11-12).

Parlament dövrü M.Ə.Rəsulzadənin həyatında xüsusi yer tutur. Onun parlamenti ən mürəkkəb vəziyyətlərdən çıxarmaq bacarığı, ən vacib məsələlər ətrafında müzakirə aparmaq qabiliyyəti, rəhbərlik etdiyi Müsavat fraksiyası adından təqdim etdiyi qanun, qərar və qətnamələri olduğu şəkildə qəbul etdirə bilmək məharəti indi də adamı heyran qoyur. M.Ə.Rəsulzadənin parlament fəaliyyətinə toxunarkən nəzərə almaq lazımdır ki, o ən nüfuzlu parlament fraksiyasının rəhbəri idi və qanunların müzakirəsi və qəbulunda aparıcı mövqeyə malik idi. M.Ə.Rəsulzadənin parlament fəaliyyəti bir daha təsdiq edir ki, bu fəaliyyətin ana xəttini Azərbaycanın müstəqilliyinin qorunub mühkəmləndirilməsi təşkil edirdi.

Bu kontekstdə onun parlamentin 27 aprel 1920-ci il tarixli son iclasında bolşeviklərin hakimiyyəti təslim edilməsi ilə bağlı ultimatumunun müzakirəsi zamanı tutduğu mövqe əsil millət, vətən fədaisinin uğrunda mübarizə aparığı ideallarn məhv olmasına görə keçirdiyi iztirab və sarsıntını duymaq üçün mühüm əhəmiyyət kəsb edir. M.Ə.Rəsulzadə parlamentin

çıxaracağı qərarı millətdən xəbərsiz çıxarmamağı, Azərbaycanın nə cür təhlükəli vəziyyətdə olduğunu millətin bilməsi üçün parlamentin qapısını açıq qoymağı təklif etmişdi. Bolşeviklərə təslim olmağın əleyhinə olsa da, M.Ə.Rəsulzadə "daxili müharibə salmamaq" üçün və yalnız "kommunistlərin istiqlaliyyət, millət və məmləkətimizi müdafi edəcəkləri" şərti ilə hakimiyyətin kommunistlərə verilməsinə razılıq verməli olmuşdu (Azərbaycan Xalq Cümhuriyyəti, II cild, 1998: 972, 97).

Dövlət quruculuğunda yaxından iştirak etməklə yanaşı M.Ə.Rəsulzadə publisistik fəaliyyətini də davam etdirmiş, Azərbaycançılıq məfkurəsinin nəzəri-elmi aspektlərinə dair bir neçə məqalə nəşr etdirmişdi. M.Ə.Rəsulzadə Azərbaycanın dövlətçilik tarixinə, ərazilərinə münasibətdə irəli sürülən iddiaların əsassızlığının elmi şəkildə sübut edilməsi istiqamətində qətiyyətlə mübarizə aparırdı. Onun müxtəlif mətbu orqanlarda "Azərbaycan" terminin yaranması, Azərbaycanın tarixi, etnoqrafiyası ilə bağlı yazıları bu baxımdan mühüm əhəmiyyət kəsb edirdi. M.Ə.Rəsulzadənin "Azərbaycan paytaxtı", "İran və biz", "Biz və İran", xüsusən "Azərbaycan Cümhuriyyəti" adlı məqalələri, digər publisistik yazıları Azərbaycanşünaslığın inkişafına böyük təsir göstərmişdir (Ismayilov, Balayev, 2022: 52-67; İsmayılov, 2018: 213-218).

Cümhuriyyət dövründə "Azərbaycançılq" məfkurəsinin əməli cəhətdən gerçəkləşdirilməsi sahəsində də ciddi addımlar atılmışdı. Əgər Cümhuriyyətin yaradılmasına qədər Müsavat partiyası başda olmaqla Azərbaycan milli hərəkatının başlıca vəzifəsi "Azərbaycan fikrini yalnız xaricdə deyil, daxildə də isbat etmək"dən ibarət idisə, Cümhuriyyətin yaradılması ilə artıq xalqın zehnində Azərbaycan istiqlalı fikri möhkəm yer tutmuşdu. İndi əsas vəzifə "felən mövcud olan Azərbaycan istiqlalının hüquqca möhkəmləşməsi, xaricdə müdafiəsi, daxildə təşkili üçün çalışmaqdan" (M.Ə.Rəsulzadə) ibarət idi (Azərbaycan Xalq Cümhuriyyəti, I cild, 1998: 51-52).

**Sonuç**

M.Ə.Rəsulzadə yüksək intellektə, öz dövrünün mütərəqqi dəyərlərinə yiyələnmiş dövlət xadimi idi. M.Ə.Rəsulzadə nəinki Azərbaycanda, ümumən türk dünyasında və bütün Şərqdə tanınmış fikir adamı, ideoloq idi. Öz millətinin taleyüklü məsələlərinə dair qabaqcıl ideyalarla, nəzəriyyələrlə çıxış edən M.Ə.Rəsulzadə millətin ümdə problemlərini ictimai müstəviyə çıxararaq nicat yolları göstərən, ictimai şüurun inkişafına güclü təkan verən mütəfəkkir və siyasi xadim idi.

"Azərbaycan" terminini coğrafi, linqivistik anlamdan siyasi siyasi anlama çevirən M.Ə.Rəsulzadə bizlərə modern dövlət haqqında mükəmməl nəzəriyyə miras qoymuşdur O

suveren dövlət anlayışını siyasi praktikaya gətirməklə kifayətlənməyərək, milli dövlətçiliyin əxlaq və mənəviyyat dəyərlərini də ortaya qoymağı bacardı. Məhz M.Ə.Rəsulzadə və onun əqidədaşlarının sayəsində Azərbaycan Cümhuriyyəti xalqın ruhunda milli dövlətçilik məfkurəsinin formalaşmasında və inkişafında aparıcı amilə çevrildi.

Ancaq Məhəmməd Əmin bəy təkcə ideya adamı kimi tariximizə düşmədi. O həm də öz ideyalarını praktik müstəviyə keçirərək, ilk milli, demokratik Azərbaycan dövlətinin qurucularından biri kimi tarixə düşdü. Onun yaratdığı milli dövlət süqut etsə də, xalqın şüurundan milli məfkurəni, milli dövlətçilik ideyalarını çıxarmaq mümkün olmadı. I Cümhuriyyət dövründə təşəkkül tapmış dövlətçilik ənənələrinin, milli – mənəvi identiklik əsaslarının mövcudluğu Azərbaycan xalqına öz varlığını, milli mənliyini qorumağa, SSRİ-nin süqutundan sonra isə yenidən dirçəlib Azərbaycan Respublikası kimi tarix səhnəsinə çıxmağa imkan verdi.

## Kaynakça

Açıq söz, 1917, 27 oktyabr, №599

Açıq söz qəzeti, 1 noyabr, №603

Açıq söz, 1917, 22 dekabr, №635

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenorqafik hesabatlar). I cild. Bakı: "Azərbaycan" nəşriyyatı, 1998, 976 s.

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenorqafik hesabatlar). II cild. Bakı: "Azərbaycan" nəşriyyatı, 1998, 992 s.

Hüseynov Ş. Müstəqilliyin çətin yolu. Biz hara gedirik. Bakı: Azərnəşr, 1996

İsmayılov, K. Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycançılıq məfkurəsi // Dövlət idarəçiliyi: nəzəriyyə və praktika, №2 (62) 2018, s.213-218.

İstiqlal qəzeti, 1933, 28 may

Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar. M.Ə. Rəsulzadənin 120-illiyinə həsr olunmuş elmi konfransın materialları (28 yanvar 2004-cü il), Bakı Xəzər Universitetinin nəşriyyatı, 2005, 286 s.

Rəsulzadə M.Ə.  Əsərləri, IV cild, Bakı, Qanun, 2013, 456 s.

Азербайджанская Демократическая Республика (1918-1920 гг.): Внешняя политика (Документы и материалы). Баку: «Азербайджан», 1998, 623 с.

Азербайджанская Республика: Документы и материалы. 1918-1920 гг., Баку: «Элм», 1998, 616 с.,

Балаев А. Мамед Эмин Расулзаде (1184-1955). Москва: Флинта, 2009, 288 с.

Гринин Л. Е. Роль личности в истории: история и теория вопроса// Философия и общество. 2011, №4(64). https://www.socionauki.ru/journal/articles/138062/ (müraciət tarixi 22.03.2024).

Закавказский Сейм. Стенографический отчет. Сессия первая, Тифлис, 1918.

Каспий, 1917, 25 октября

Плеханов, Г. В. К вопросу о роли личности в истории. Избранные философские произведения: в 5 т. Т. 2. М.: Гос. изд-во полит. лит-ры. 1956. с. 300–334.

Раппопорт, Х.Философия истории в ее главнейших течениях, СПб. 1899. 192 s.

Hook, S. The Hero in History. A Study in Limitation and Possibility. Boston: Beacon Press, 1955

Ismayilov, K, Balayev A. Ideology of “Azerbaijanism”: Formation, stages of historical development. Baku, Maarif, 2022, 153 p.

Nowak, L., Class and Individual in the Historical Process. In Brzechczyn, K. (ed.), Idealization XIII: Modeling in History (Poznan Studies in the Philosophy of the Sciences and the Humanities, vol. 97. Amsterdam; New York, NY: Rodopi. 2009, pp. 63–84

The Role of an Individual in History: A Reconsideration https://www.sociostudies.org/books /files/macrohistory_and_globalization/046-082.pdf.

*Mehmet Emin Resulzade Özel Sayısı*

*Araştırma Makalesi/Research Article*

# BENGİ

**Dünya Yörük-Türkmen Araştırmaları Dergisi**

*BENGİ World Journal of Yörük-Türkmen Studies*

*https://dergipark.org.tr/tr/pub/bengi*

**ISSN: 2717-6584**

## Mehmet Emin Rəsulzadənin Siyasi Görüşlərində Milli İdentiklik Məsələsinə Dair

*On the Issue of National Identity in the Political Views of M.A. Rasulzade*

**doi**: 10.58646/bengi. 1462539

**Geliş/Received:** 01 Nisan 2024 **Kabul/Accepted:** 01 Mayıs 2024

**Elvin Talişinski** * **- Nadirova Səkinə Eldarqızı****

**Özet**

Məqalədə Məhəmməd Əmin Rəsulzadənin siyasi görüşlərində milli identiklik xüsusiyyətləri araşdırılır. Azərbaycan Xalq Cümhuriyyəti həm şərq tarixində, həm də müsəlman türk dünyasında ilk demokratik respublika olmuşdur. 1918-ci ildə yaradılmış AXC dövlətçilik şüurumuzun, eləcə də milli identikliyimizin uğurlu nəticəsi və mövcud demokratik, müstəqil və suveren dövlətimizin əsas təməl prinsiplərindən idi. Bu baxımdan dövlətimizin başlıca prinsiplərini, mahiyyəti və rəmzlərinin hansı dəyərlərin göstəricisi olduğunu öyrənmək üçün AXC ən dəyərli örnəklərimizdən hesab olunur. Cümhuriyyətin ideoloqları sırasında başlıca yer tutan M.Ə.Rəsulzadənin fəlsəfi, ictimai-siyasi görüşlərini araşdırmaq mühüm elmi aktuallıq kəsb edir.

**Açar sözlər:** Siyasi Görüşlər, Milli Kimlik, Demokratik Dövlət, Rəsulzadə, Azərbaycan.

* **Sorumlu Yazar/Corresponding author**: Dr., Azərbaycan Üniversitesi, e-posta: lvin.Talishinsky@au.edu.az. Orcid: 0000-0001-5318-5537.

** Bilim Uzmanı, Azərbaycan Üniversitesi, e-mail: sekine.nadirova@mail.ru.

**Atıf/Citation:** Talişinski .E. ve Elderqızı N.S. (2024). Mehmet Emin Rəsulzadənin Siyasi Görüşlərində Milli İdentiklik Məsələsinə Dair. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi, 2024 (2), 263-275.

**Abstract**

The article examines the features of national identity in the political views of Muhammad Amin Rasulzade. The Azerbaijan Democratic Republic was the first democratic republic both in the history of the East and in the Muslim-Turkic world. The ADR, established in 1918, was a successful outcome of our nationhood consciousness as well as our national identity and was one of the main fundamental principles of our present democratic, independent and sovereign state. In this regard, the ADR is considered one of our most valuable examples for understanding the basic principles, essence and symbols of our state. A study of the philosophical, socio-political views of M.A. Rasulzade, who is the main ideologist of the republic, has great scientific significance.

**Keywords:** Political Views, National Identity, Democratic State, Rasulzade, Azerbaijan.

**Giriş**

M.Ə. Rəsulzadə XX əsr Azərbaycan siyasi tarixinin ən parlaq simalarından biridir. O, 1918-ci ilin mayında müasir Azərbaycan dövlətçiliyinin yaradılmasında nəzəri əsas kimi xidmət edən azərbaycançılıq ideologiyasının banisi olmuşdur. 1918-ci il mayın 28-də bütün müsəlman aləmində ilk respublika kimi dünya tarixinə düşmüş Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Təbii ki, AXC-nin yaradılması XX əsrin əvvəllərində Azərbaycan siyasi və ziyalı elitasının görkəmli nümayəndələrinin milli maraqlar naminə məqsədyönlü və fədakar fəaliyyətinin nəticəsi idi. Etiraf etmək lazımdır ki, müsəlman Şərqində ilk milli dövlətin yaranmasında ən mühüm töhfə Məmməd Əmin Rəsulzadənin olmuşdur. O, müasir Azərbaycan dövlətçiliyinin nəzəri əsaslarını formalaşdırmış, onun praktiki həyata keçirilməsinə mühüm töhfə vermişdir.

**1. Milli Kimlik Anlayışına Siyasi-Hüquqi Və Fəlsəfi Baxış**

Ümumiyyətlə, dövlətçilik formasının genezisi və mövcudluğu bir millət kimi sosial birliyin belə bir növünün formalaşması və inkişafı ilə sıx bağlıdır. Millətin inkişafının əsas amillərini qeyd edək:

1) Təbiət hadisələrinin qavranılmasında yaxınlığın formalaşmasına və sosial cəmiyyətin konsolidasiyasına töhfə verən yaşayış ərazisi icması;
2) Eyni resurslarla müəyyən edilən, oxşar iqtisadi fəaliyyət növünü təşkil edən iqtisadi fəaliyyətin birliyi;
3) Ümumi dildə, dində, sosial davranış normalarında əks olunan mədəni birlik;
4) Bu amil həlledici olmasa da, insanların ümumi etnik mənşəyi;
5) Ümumi tarixi təcrübə, ümumi tale hissi, keçmişin, indinin və gələcəyin birliyi;
6) Ümumi milli kimlik. Milli kimliyin formalaşması millətin formalaşmasında əsas amil idi.

Milli kimliyin yaranmasının ilkin şərti 1648-ci ildə Alman millətinin Müqəddəs Roma İmperiyasının dağılmasından və onun xarabalıqları üzərində ilk Avropa milli dövlətlərinin yaranmasından xəbər verən Vestfaliya müqaviləsinin imzalanması idi. Bundan əvvəl orta əsrlər Avropasında hakimiyyət dini idi və Papaya məxsus idi. O dövrdə Avropa ziddiyyətlər və daxili feodal müharibələri ilə parçalanmışdı. Qan tökülməsini dayandırmaq üçün suverenlik konsepsiyasına əsaslanan yeni dünya nizamı quruldu. Başlanğıcda bu anlayış monarxın öz iradəsini ölkə daxilində həyata keçirmək və onun hüdudlarından kənarda dövləti təmsil etmək

üçün qeyri-məhdud səlahiyyətini nəzərdə tuturdu. XVIII əsrdə dövlətçiliyin yayılmasında yeni mərhələ - monarxın suverenliyindən millətin suverenliyinə keçid başlayır.

XIX əsrdən başlayaraq bütün Avropa regionunda, sonra isə (xüsusilə xalqların müstəmləkə asılılığından qurtulması və ümumiyyətlə 1960-cı illərdə başa çatan "üçüncü dünya"da milli dövlətlərin formalaşması prosesi ilə) bütövlükdə dünyaya yayılan milli dövlət kimi dövlətçilik forması formalaşır. (Кочетков В.В. 2012. № 2, 152) Hökumət tərəfindən təmsil olunan milli dövlət öz ərazisi daxilində tam müstəqilliyə malikdir. Dövlətin necə davranacağına hökumətdən başqa heç kim qərar verə bilməz. Dövlətlər bərabər hüquqlara malikdirlər. Heç kim öz iradəsini suveren dövlətə diktə edə bilməz. Hər bir dövlətin hüquqi bərabərliyinin və müstəqilliyinin qarşılıqlı tanınmasına əsaslanan müasir dövlətlərarası münasibətlər sistemi də belə yarandı.

Milli kimlik isə öz növbəsində fərdlərin öz millətinə və milli siyasi sisteminə münasibətdə emosional reaksiyalarını əks etdirən mədəni normadır. (Tsygankov A.P. 2001: 254) Hər bir milli icmanın kimliyi, ilk növbədə, onun kollektiv özünüdərk, öz imicinin öz müqəddəratını təyin etməsi və özünüdərk məzmunu kimi təmsil oluna bilər. O, müvafiq milli paradiqma əsasında, milli-tarixi, sosial-psixoloji, sosial-mədəni, siyasi-mədəni və digər sahələrin kəsişməsində formalaşır. Onun məzmununa milli mədəniyyətin müəyyən edilmiş xüsusiyyətləri, etnik xüsusiyyətləri, adət-ənənələri, inancları, mifləri, mənəvi imperativləri, dünyagörüşü, milli kimlik və mentalitet, milli xarakter, tarixi yaddaş, arxetiplər, milli adət-ənənələr, simvollar və davranış stereotipləri daxildir.

Milli kimlik bütövlükdə millət üçün ümumi olan simvolik, sosial cəhətdən qurulmuş mənaları ehtiva edir ki, bu da B. Andersonun "millət təsəvvür edilən siyasi birlikdir" (Anderson B. 2016, 256) tərifində yaxşı əks olunur. Milli kimliyin strukturunda üç komponenti ayırd etmək olar: koqnitiv - öz xalqının xüsusiyyətləri haqqında bilik və özünü onun üzvü kimi dərk etmək; affektiv - öz və yad xalqlara emosional münasibət; davranış - bir millətin davranış normalarına uyğunluq.

## 2. M.Ə.Rəsulsadənin Siyasi Fəaliyyəti Və Azərbaycan Milli Kimlik Məsələləri

XIX əsrin sonlarında bədii və publisistik əsərlərdə azərbaycanlı kimliyinin ilk əlamətləri görünməyə başlasa da, M.Ə.Rəsulzadə bu ayrı-ayrı fraqmentlərdən əsas postulatı Azərbaycan millətinin kimliyi ideyası olan bütöv və sistemli azərbaycançılıq konsepsiyasını yarada bildi. M.Ə.Rəsulzadə Azərbaycan mətbuatının formalaşmasında və inkişafında böyük xidmətləri olan istedadlı və kifayət qədər məhsuldar publisist idi. Gəncliyində ədəbi yaradıcılıqla fəal məşğul olmuş, çoxsaylı şeir və pyeslərin müəllifidir. O, həm də görkəmli ədəbiyyatşünas,

mədəniyyətşünas və tarixçi idi. Onun “Azərbaycan şairi Nizami” adlı fundamental monoqrafiyası indi də öz elmi əhəmiyyətini qoruyub saxlayır. Ümumiyyətlə, M.Rəsulzadənin XX əsrin əvvəllərindəki Azərbaycan milli hərəkatına həsr olunmuş bir çox tarixi əsərləri var.

XX əsrdə Azərbaycanda müstəqillik hərəkatının devizi olan “Bir kərə yüksələn bayraq bir daha enməz” şüarının müəllifi, AXC-nin qurucularından, Azərbaycan ictimai-siyasi tarixinin görkəmli şəxsiyyəti, Azərbaycan mühacirətinin lideri, Azərbaycan milli istiqlalına başçılıq etmiş, dahi mütəfəkkir, siyasətçi, publisist, örnək şəxsiyyət Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində ruhani ailəsində dünyaya göz açmışdır. Atası din xadimi olsa da onu şəriət dərslərinə yox, məhz dünyəvi elmlərə yiyələnməsini istəmiş və elə bu istiqamətdə də yönəltmişdir. İlk təhsilini Sultan Məcid Qənizadənin müdiri olduğu ikinci Rus-Tatar məktəbində almış, daha sonra Bakı-Texniki məktəbində elə rus dilində təhsilini davam etdirmişdir. Yaşadığı coğrafiya, o dövrün siyasi vəziyyəti Rəsulzadənin təhsilinə birbaşa təsir etmiş, o öz istəyi ilə təhsilini yarımçıq qoymuş, bütün fəaliyyətini siyasətə yönəltmişdir. Rəsulzadənin gənc yaşlarından siyasətə istiqamətlənməsinin səbəbi doğma xalqının mili oyanışına yardım göstərmək idi.

XX əsrin əvvəllərində mövcud olan mürəkkəblilik, ziddiyyətlilik, sinfi mübarizə müxtəlif ideologiyalar, inqilabi hadisələr, Rəsulzadənin gənclik illərinə təsadüf etmişdi. Bu da onun həyat və yaradıcılığına mühüm təsir göstərmişdir. Rəsulzadənin ictimai-siyasi görüşləri hələ bu dövrdən təşəkkül tapmağa başlamışdı. Çar mütləqiyyətinin müstəmləkə xalqlarını çapıb talaması, əsarət altında saxlaması, xüsusilə müsəlman xalqlarına qarşı hüquqsuz vətəndaş kimi davranması xalqın müxtəlif təbəqələri arasında geniş narazılığa gətirib çıxarmışdır. Rəsulzadə Rus boyunduruğu altında əzilən xalqın hər şeydən bixəbər vəziyyətdə yaşamasına, savadsızlığına acıyır qeyri-müsəlman xalqların elm mədəniyyət baxımından irəlilədiyini, inkişaf etdiyini gördükcə xalqın təhsilə, elmə biganəliyinə dözə bilmirdi.

Bu dövrdə mətbuat birbaşa əhalinin maariflənməsi, milli mənlik şüurunun dərk edilməsi, ictimai-siyasi şüurun inkişafına və xalqın oyanışına təkan verirdi. Rəsulzadənin mətbuat sahəsindəki fəaliyyəti hələ 18 yaşında “Şərqi Rus” qəzetində çap olunan yazısı ilə başladı. Bu yazının öz kiçik və maraqlı bir tarixçəsi də var. Rəsulzadə bir gün şəhərdə gəzərkən bir qrup azərbaycanlı gəncin rusca danışdığının şahidi olur. Evə gələrək bu əhvalla “Arkadaş, türkcə konuş” yazısını yazır. Bu yazıda o öz millәti üçün ana dilini qoruması və öz doğma dilində danışmasınının vacibliyini vurğulayırdı. Bu ilk yazısı 1903-cü ildə “Bakıdan məktub” başlığı altında nəşr olunur. Məqalədə həmçinin təhsilin, elmin vacibliyinə toxunaraq yazırdı: “Qafqaz Müsəlman əhalisindən ümumi və Bakı əhlindən xüsusi təvəqqe edirəm ki, öz

uşaqlarından balaca olan vaxtda elm və tərbiyə kəsb etməkdən başqa bir şey mənzur (məqsəd, niyyət) tutmasınlar. Məsələn, hər kəsin ki, qüvvəsi çatır uşağını məktəbə qoymağa, məbada-məbada palçıqçı, dükan şagirdi və qeyrəyə razı olsun". (Yaqublu N. 2018: 504)

M.Ə.Rəsulzadə 1904-cü ildə yaradılmış ilk Azərbaycan siyasi birliyi "Hümmət"in yaradıcılarından biridir. Bu təşkilata rus məktəblərində təhsil alan azərbaycanlı gənclər daxil idi. 1904-cü ilə yaradılan Hümmət təşkilatı müsəlman fəhlələrini siyasi cəhətdən maarifləndirilməsi istiqmətində xeyli iş görmüşdü. Təqiblərə məruz qalaraq fəaliyyətini dayandıran təşkilat Fevral inqilabından sonra öz fəaliyyətini bərpa etmiş, mart ayının əvvəlində N. Nərimanov, D. Bünyadzadə, M. İsrfafilbəyov (Qədirli), H. Sultanov, M. Əzizbəyov daxil olmaqla Hümmətin Müvəqqəti komitəsi seçilmişdi. (Очерки Коммунистической партии Азербайджана. 1963: 212) Hümmət tam şəkildə müstəqil təşkilat olmayaraq RSDFP-nın Bakı Komitəsi yanında fəaliyyət göstərirdi. Müsəlman fəhlələrin istəyinə uyğun olaraq Hümmət muxtar təşkilat kimi saxlansa da Bakı Sovetinə seçilən hümmətçilər əlahiddə bir təşkilatı deyil, ümumən bolşevikləri təmsil edirdilər. Lakin onu da qeyd etmək lazımdır ki, inqilabın ilk aylarında müsəlman fəhlələr tərəfindən müstəqil müsəlman fəhlə komitəsi yaradılması və müsəlman fəhlələr arasında sosialist təbliğat aparılması tələbləri irəli sürülmüşdü. (Азимов Г. 1987: c.33)

1903-1920-ci illərdə Rəsulzadənin dövrü mətbuat orqanlarda 1200-dən çox müxtəlif janrlarda yazıları çap olunurdu. Bu yazılar ən çox azadlıq və milli istiqlaldan bəhs edirdi. Bu dövrlərdə Çar Rusiyasına qarşı kəskin fikirlərlə çıxış edənlərin önündə Rəsulzadə gəlirdi. Onun hüriyyət barədə önəmli və qiymətli fikirləri var idi. Məhəmməd Əmin Rəsulzadəyə görə hüriyyət beş formada var: söz azadlığı, mətbuat azadlığı, cəmiyyət və ittifaq azadlığı, vicdan azadlığı, canın və malın mühafizə olunması azadlığı və o belə bir azadlığın Rusiyada olmadığını söyləyir və qeyd edirdi ki, "Buradakı hürriyyət qaranlıq pərdəyə bürünüb və hökumət heç zaman onun işığını camaata göstərməz. Çünki hürriyyət işığını görüb gözlərinə nur, qollarına qüvvət yığan adamlar ayağa qalxıb ilkin olaraq bu işığının qarşısını tutanları yox edəcəklər". (https://akifnizami.wordpress.com)

Məhəmməd Əmin Rəsulzadə millətinin bütövlüyünü birliyini və bərabərliyini istəyir, xalqın birliyi istiqamətində onları təhsilə, elmə çağırırdı. Elm, təhsil məsələləri onun məqalə və çıxışlarının da əsas mövzusunu təşkil edirdi. O düşünürdü ki, bu xalqı yatdığı yuxudan yanlız bilik, elm oyada bilər. Savadlı xalq birlik olub, bir millət olub istiqlaliyyətə, azadlığa çıxa bilər. Rəsulzadə ölkədən kənarda mühacirətdə yaşadağı dövrdə belə bu fəaliyyətini dayandırmır, gizli yollarla öz dostları ilə əlaqə saxlayır, xalqın gələcək mübarizəyə, birliyə, azadlığa səsləyən

müxtəlif dərgilər, kitablar yollayırdı. Onun bütün ömrü boyu bir mübarizə amalı var idi - Azərbaycanın müstəqilliyi. Ömrü boyu azərbaycançılıq, türkçülük ideyasına, milli dövlətçilik əqidəsinə sadiq qaldı. Azərbaycanın milli dövlətçiliyininin bərpası və bütövləşməsi üçün çalışdı və bu amalı ilə yaşadı. Əli bəy Hüseynzadənin söylədiyi "Türkləşmək, islamlaşmaq müasirləşmək" fikri Rəsulzadənin fəaliyyətinin əsasını təşkil etdi. Bir növ Rəsulzadə bu fikrə can vermiş oldu.

"Ümumiyyətlə, onun həmin dövrdəki siyasi görüşlərinə müəyyən romantizim ruhu xas idi. Məsələn, o zaman qələmə aldığı məqalələrinin birində M.Ə.Rəsulzadə yazırdı: "Dünya gərək hamı üçün bir olsun. Bir ovuc insanın səadət və rahatlığı üçün milyonlarca insanlara zülm olunmasın" (Balayev A. 2012: 286) Həmin dövrlərdə Rəsulzadənin Rusiya imperiyasının hüdudlarının tərk edərək xaricə getməsi də onun siyasi baxışlarının təkamülünə ciddi təsir göstərmiş oldu.

Ümumiyyətlə, Rəsulzadənin fəaliyyəti üç böyük imperiyada keçmişdir. Rusiya imperiyası, İran dövləti və Osmanlı imperiyası. Buna görə onu tək azərbaycanlı deyil "Qafqazlı ziyalı" da adlandırırlar. Bu ölkələrin hər üçünün dilini mükəmməl bilmiş, hər üçü ilə sıx münasibətdə olmuş və onların tarixində böyük izlər qoymuşdur. O, bu ölkələrdə müxtəlif kitablar, jurnallar, qəzetlər çap etdirmiş, müxtəlif cəmiyyətlər qurmuşdur və Azərbaycan xalqının azadlıq mücadiləsinin yorulmadan davam etdirmişdir. Yaradıcılığının bütün dövrlərində islami dəyərlər, türkçülüyü, ümumi türk ruhunu, mədəniyyətini uca tutmuş, daim milli birliyin reallaşması uğrunda mübarizə aparmışdı. Rəsulzadə yaşadığı Çar Rusiyasını dərindən öyrənmiş Azərbaycan reallığını, Azərbaycan gerçəkliyini, millətini formalaşdırmış və Rusiya mühitindən qopara bilmişdir.

24 yaşında 1908-ci ildə Rəsulzadə Çar rejiminin təqiblərindən xilas olmaq üçün İrana üz tuturmuşdur. Bu zaman Güney Azərbaycanda Məşrutə hərakatı alovlanırdı. Rəsulzadə bu hərəkatın fəal iştirakçısına çevrildi. 1910-cu ildə bir qrup Avropada təhsil almış gənclərlə bərabər İran Demokratik Partiyasını yaradır və Mərkəzi Komitəsinə sədr seçilir. Tehranda "İrani-nou" (Yeni iran) qəzetini nəşr etməyə başlayır və bununla o, İranda Avropa tipli mətbuatın əsasını qoyur. Rusiya tərəfi Rəsulzadəninin buradakı siyasi və publisist fəaliyyətinin Rusiyanının İrandakı təsirinin zəiflətməyə yönəldiyini görürdü. Bundan qorxuya düşən Rusiya Tehran hakimiyyətindən onun tez bir zamanda ölkədən çıxarılması üçün lazimi tədbirlərin görülməsini tələb edir. Məşrutə inqilabının məğlubiyyətindən sonra o həm İran, həm də Rusiya imperiyası tərəfindən axtarışda idi və İrandakı təqiblərdən xilas olmaq məqsədi 1911-ci il iyun-iyulda İranı tərk edir, sonra gizli yollarla Astara-Lənkaran istiqamətindən Bakıya gəlir bir

müddət burda qalıb daha sonra İstanbula gedir. 1911-1913-cü il fəaliyyətini isə İstanbulda davam etdirmişdi. İstanbul bu dövrdə bir çox müsəlman ziyalılarından ibarət mühacirlərin toplandığı mərkəzə çevrilmişdi. İstanbulun qaynar siyasi həyatında yaxından iştirakı, bir çox türk mütəfəkkirləri və ən görkəmli nümayəndələri ilə yaxından tanışlığı, ünsiyyəti onu xalqımızın tarixi, mədəniyyəti ilə bağlı daha çox düşünməyə vadar etmişdir. Onların fəal fəaliyyəti nəticəsində tez bir zamanda burada türkçülük, turançılıq ideologiyasının tərəfdarları artmışdı.

"İstanbulun həmin dövrdəki siyasi mühiti bütün bu illər ərzində Azərbaycan türkləri üçün "milli nicat yolu" axtarışında olan M.Ə.Rəsulzadə siyasi baxışlarının qəti olaraq formalaşmasında həlledici rol oynadı. İstanbulda yaşayan türkçülük ideoloqları ilə bilavasitə ünsiyyət M.Ə.Rəsulzadənin siyasi dünya görüşünün inkişafında dərin izlər buraxmış oldu." (Balayev A., 2012, 36).

M.Ə.Rəsulzadə özünün də qeyd etdiyi kimi, bütün tərəqqinin ilkin mənbəyi olan milli özünüdərkin oyanmasına böyük əhəmiyyət verirdi. 1913-cü ildən başlayaraq o, Müsavat partiyasının ideoloqu oldu. Bəli, Rəsulzadə dövrünün ən öndə gedən ideoloqu idi. O, Azərbaycan dövlətçiliyi ideyasının formalaşmasında mühüm töhfələr verdi. Siyasətçinin səyləri ölkəsinin müstəqilliyi və çiçəklənməsi ideyalarının təbliğinə töhfə vermək məqsədi daşıyırdı.

Birinci Dünya müharibəsi ərəfəsində və dövründə yazdığı nəzəri əsərləri ilə M.Ə.Rəsulzadə Müsavat ideologiyasına milli əsas gətirdi ki, bu da son nəticədə partiyanın siyasi proqramının islam birliyindən azərbaycanlıların və digər türk xalqlarının milli hüquqları uğrunda mübarizəyə istiqamətlənməsinə töhfə verdi. Bu, təkcə Müsavatın deyil, bütün Azərbaycan milli hərəkatının siyasi təkamülündə dönüş nöqtəsi oldu.

Azərbaycançılıq ideyalarının, azərbaycançılıq konsepsiyasının ortaya çıxmasında Məhəmməd Əmin bəylə Nəsib bəy Yusifbəylinin tanışlığının və daha sonra birgə fəaliyyətinin böyük rolu olmuşdu. Rəsulzadə yazırdı ki, N.Yusifbəyli öz işləri ilə əlaqədar Bakıya tez-tez gılir və demək olar ki, hər gəlişində "Açıq söz" mətbəəsini də ziyarət edirdi. Zamanla möhkəmlənən bu dostluq daha sonralar xalq üçün ən vacib işlərə nail oldu. "M.B.Məmmədzadə və H.Baykara da hesab edirlər ki, Qafqaz türklərini "ümmətçilikdən "millətçiliyə" yönəldən, onları əvvəlcə türkçülük, daha sonra Azərbaycan türkçülüyü (Azərbaycan milli ideyası) ətrafında birləşdirən və "Açıq söz" qəzetində bunu təbliğ edən ilk növbədə, Rəsulzadə və Yusifbəyli olmuşdur." (Ələkbərli F. 2022: 414).

Türkoloq, alim Faiq Ələkbərli yeni yaradılmış dövlətə niyə "Azərbaycan" adının verilməsinə üç səbəblə izah edir. Məhəmməd Əmin bəy yeni dövlətə "Azərbaycan adı verməklə

ilk əvvəl tarixi-coğrafi və siyasi-inzibati amili göz önünə almışdır. Amma bununla bərabər bizə məlum olduğu kimi Güney Azərbaycanda da eyni adlı toplum-türklər yaşamaqdadır. Rəsulzadə açıq şəkildə söyləyirdi ki, Güney Azərbaycanda yaşayan türklərlə Qafqaz türkləri eyni kökə, eyni dilə, mədəniyyətə sahibdirlər. Bu səbəbdən yeni dövlətə "Azərbaycan" adının verilməsi gələcəkdə hər iki coğrafiyada yaşayan türklərin yenidən biirləşməsi ideyası ilə bağlıdır.

İkinci səbəb isə dövlətçilik ənənələrinin bərpası ilə bağlı idi. "Azərbaycan" adı bu ərazidə qədim zamanlardan mövcud olmuş Atropatena, Albaniya, Sacilər, Salarilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və b. dövlətlərlə yeni dövlət arasında bağlılıq anlamına gəlirdi. Bu özündə türkçülük və milli dövlətçilik ideyasını əks etdirirdi.

Üçüncü səbəb olaraq isə məlum olduğu kimi, bu ərazidə Azərbaycanın əsasını təşkil edən türklərlə bərabər digər azsaylı etnik qruplar və etnoslar da yaşayır. Onları bir ideya altında birləşdirmək milli dövlətə xidmətçiliyə nail olmaq idi.

XX əsrin əvvəllərində Türkiyənin siyasi və ictimai xadimləri arasında Osmanlı imperiyasının tənəzzülünün qarşısını almaq məqsədilə siyasi tədbirlər həyata keçirilirdi. Gizli şəkildə Tibbiyə məktəbində yaranan "İttihad və Tərəqqi" cəmiyyətində "osmanlılıq, islamçılıq və türkçülük" cərəyanlarına söykənən bir siyasət yürüdürdülər (Qafarov, 2020:36-37). Həmdullah Sübhi bəy tərəfindən qurulan "Türk ocaqlar"ı təşkilatı və onun mətbu orqanı kimi 1911-ci ildən Yusif Akçura tərəfindən nəşr edilən "Türk Yurdu" məcmuəsi türkçülük ideologiyasının yayılmasında müstəsna xidmətlər göstərmişdir. Həmin dövrün məşhur türkçüləri arasında Azərbaycan ziyalılarından Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlunun xüsusi xidmətləri olmuşdur. 1910-cu il dekabrın 4-də Azərbaycandan mühacirət edən Ə.Hüseynzadə "İttihad və Tərəqqi Cəmiyyəti"nin ilk qurucularından və 1911-1918-c illərə qədər ən fəal üzvlərindən olmuşdur. O, 1914-dən fəaliyyəti göstərən "Rusiyadakı türk-tatar müsəlman təbəələrin hüquqlarının qorunması cəmiyyəti"nin "Turan" heyətinin tərkibində 1915-də Budapeştə səfər etmişdir. Heyət "Rusiyadakı türk-tatar müsəlman təbəələrin hüquqlarının qorunması cəmiyyətinin bəyannaməsi"ni Vyana parlamentinə təqdim etmişdi. Bundan sonra heyət Berlinə, Sofiyaya, may ayında ABŞ-a yola düşmüş, prezident Vilsonla görüşməyə nail olmuşdur. Həmin ilin iyun ayında "Turan" heyəti Lozanna konfranında iştirak etmək üçün İsveçrəyə səfər etmişdi. "Turan" heyətinin bəyannaməsində Rusiyanın türk-müsəlman təbəələrinin tarixi, bölgələrdə mütləqiyyətin uyğuladığı müstəmləkə siyasəti, türklərin üzləşdiyi ədalətsizliklər və haqsızlıqlar haqqında məlumatlar geniş yer almışdı. Berlin səfəri zamanı Ə.Hüseynzadə Rusiya türkləri arasında XIX əsrin II yarısından etibarən baş qaldıran maarifçilik və yenilənmə hərəkatı haqqında da çıxış etmişdi. "Turan" heyətinin bu fəaliyyəti xüsusilə əhəmiyyətli idi. Çünki ilk dəfə Rusiyada yaşayan müsəlman-türklərin azadlıq mücadiləsi haqqında dünya dövlətləri və ictimaiyyəti tanış olurdu. M.Ə.Rəsulzadə həmin siyasi hadisələrin Azərbaycana təsirini təhlil edərək, yazırdı ki, "on illik kiçicik bir ara Azərbaycan türklüyünü çoxlu basını, çeşidli quruluşları, politik çevrələri, gilzli topluluqları, çağdan, olan-bitəndən anlar aydınları olan anlaqlı, bilinc yiyəsi bir toplum durumuna qoymuşdu" (Rəsulzadə, 2015:36). 1911-1912-ci illər İtaliya-Osmanlı müharibəsi, 1912-ci ildə "slavyan xalqlarının türk ağalığından azad edilməsi" şüarı ilə başlayan Balkan müharibələri və beynəlxalq aləmdə yaranmış mürəkkəb vəziyyət müsəlman həmrəyliyi zərurətini və türkçülük ideyalarının əsasında yeni ideoloji baxışların formalaşmasını tələb edirdi. Yeni ideologiyanın "təkamülündə, gərəksə bu ideologiyanın müntəzəm bir proqram şəkli alaraq təşkilat etibarilə

formalaşmasında və dövlət quracaq bir firqə şəklinə düşməsində ən böyük və başlıca rolu Məhəmməd Əmin Rəsulzadə oynamışdır (Məmmədzadə, 1992:48).

**2. XX əsrin ilk Rus inqilabının M.Ə.Rəsulzadənin milli ictimai baxışlarına təsiri**

1905-ci ildə Rusiyada baş verən ilk inqilab və mütləqiyyətin elan etdiyi 17 oktyabr manifesti Azərbaycanda siyasi fəallığı artırdı və milli azadlıq hərəkatının xarakterinin və istiqamətinin dəyişməsinə səbəb oldu. Sərt diktatura rejiminin yumşalması, qismın də olsa, söz, mətbuat azadlığı Azərbaycanda ziyalıların ana dilində mətbuat orqanlarının nəşrini bərpa etməsi, siyasi partiyaların, cəmiyyətlərin, dərnəklərin fəaliyyəti üçün şərait yaratdı. Bu illərdə yeni yaranan mətbu orqanlarında müxtəlif məsələlərlə bağlı M.Ə.Rəsulzadənın yazıları dərc edilirdi.

Hələ 1902-1903-cü illərdə M.Ə.Rəsulzadə gizli fəaliyyət göstərən "Müsəlman gənclik təşkilatı" adlı dərnək yaratmışdı. Dərnəyin əsas hədəfi Rusiya imperiyasında yaşayan müsəlmanlar üçün müəyyən mədəni hüquqlar almaq idi (Yaqublu, 2001:21). Bu illərdə M.Ə.Rəsulzadənin ictimai baxışlarını liberal, mədəni-maarifçi xarakter daşıyırdı. O, 1903-cü ildə "Şərqi-Rus" qəzetindən xalqına səslənərək "Qafqaz nüsəlman əhalisindən ümumi və Bakı əhlindən xüsusi təvəqqe edirəm ki, öz uşaqlarından balaca olan vaxtda elm və tərbiyə kəsb eləməkdən başqa bir şey mənsur tutmasınlar", deyə yazırdı (Rəsulzadə, 2014:21).

1904-cü ilin axırlarında gizli "Müsəlman demokratik Müsavat" cəmiyyətinin əsasında RSDFP-nin Bakı komitəsinin nəzdində müsəlman sosial-demokratik "Hümmət" təşkilatı yaradılmışdı. Bu Azərbaycanda Mir Həsən Mövsümov, Məhəmməd Həsən Hacınski və Məhəmməd Əmin Rəsulzadə tərəfindənyaradılmış ilk siyasi türk təşkilatı sayılır. 1905-ci ildən yarımmüstəqil fəaliyyət göstərən "Hümmət"in üzvləri arasına M.Əzizbəyov, N.Nərimanov, S.M.Əfəndiyev kimi inqilabçıların da adları qatılmışdı. "Hümmət"in baxışları Rusiya Sosial-Demokrat partiyasının proqramının prinsiplərinə çox yaxın idi. 1904-cü ilin sonunda Bakıda "Hümmət" adlı qəzet də nəşr ediliridi. M.Ə.Rəsulzadə 1905-ci ildə "Hümmət" qəzetinin 3-cü sayında milləti və inqilabi qüvvələri birliyə səsləyirdi: "Hərəmiz bir küncdə bir xüsusi cəmiyyət qayırıb da müxtəlif yollar ilə getməkdənsə, birləşməli, öz fikir və fellərimizdən bir-birimizi halı etməliyiz. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yarar məslək üzrə olub, müttəhidül-qövl vəl fel iş görək" (Rəsulzadə, 2014:26).

Rusiya mütləqiyyəti müstəmləkələrdə genişlənən milli hərəkatın qarşısını almaq məqsədilə müxtəlif tədbirlərə əl atmağa başlayır. Müstəmləkə xalqları arasında milli ədavətin qızışdırılması çarizmin əl atdığı tədbirlərin ən başlıcası idi. 1905-ci ilin fevral ayından

Azərbaycan torpaqlarında ermənilərlə azərbaycanlılar arasında 1906-cı ilin son payızına qədər davam edən milli münaqişə zəminində qanlı toqquşmalar baş verir. M.Ə.Rəsulzadə hadisələrin əsas səbəbini açıqlayaraq yazırdı ki, "Cənnət misal Qafqazı böylə cəhənnəmə döndərən...Rusiya istibdadi-qəddaranəsini kim tanımıyor?!" (Rəsulzadə, 2014:27). Bu bəladan qurtarmağın yeganə yolunu yenə də birlikdə görürdü: "Əgər sülh istəyirsiniz, yəni düçar olduğumuz mərəzdən səhhət tapmağımızı arzu edirsiniz, müttəhid olun, birləşin..." (Rəsulzadə, 2014:28).

1905-1906-cı illər milli münaqişəsi Azərbaycan xalqının siyasi həyatında mütləqiyyətə qarşı etiraz və siyasi intibah prosesinə anti-erməni xarakterini də əlavə etdi və milli hərəkatın zəif tərəflərini açıq şəkildə ortaya qoydu. Bu hadisələr nəticəsində Azərbaycanın siyasi həyatında "Difai", "Müdafiyə", "İttifaq" kimi yeni, radikal istiqamətli partiyalar yarandı. M.Ə.Rəsulzadə milli münaqişənin həll olunmasını həm də milli əsaslara dayanan təşkilatın rəhbərliyində görürdü.

Milli əsasa dayanan, milləti birlik fikirləri ərafında birləşdirən ilk təşkilat 1911-ci ilin oktyabr ayında Bakıda yaranan Müsəlman Demokratik Müsavat partiyası oldu. Azərbaycanın ictimai-siyasi inkişafı tarixində ikinci mühüm siyasi partiya olan "Müsavat"ın ilk proqramının əsas qayəsi bütün müstəqil müsəlman dövlətlərinin istiqlallarını qorumaq və bütün məhkum müsəlman millətlərin istiqlala qovuşmalarına kömək etmək idi.

"Müsavat" partiyasının fəaliyyətinin ilkin dövrü islamiyyət ruhlu idi və bu tarixi zəruri bir amil sayıla bilər. Ümumiyyətlə, I dünya müharibəsinə qədər bütün milli azadlıq hərəkatında islamçılıq aparıcı xətt və milli özünüdərkin mühüm amillərindən biri olmuşdur. Mərkəzi Komitəsinin ilk tərkibi Kərbəlayı Vəli Mikayılov, Əli Abbas Müznib, Abbasqulu Kazımzadə və Tağı Nağıyevdən ibarət olan "Müsavat" partiyasının ilk proqramının əsas xətti müsəlman ölkələrinin müstəqilliyinin qorunması və müsəlman millətlərin istiqlaliyyəti uğrunda mücadilə idi.

## 3. Rusiya Müsəlmanlarının ilk qurultaylarında milli məsələlər

Bütün bu prinsiplər Rusiya müsəlmanlarının I qurultayında, 1905-ci il avqust ayının 15-də yaradılan "Ümumusiya müsəlmanları ittifaqı"nın ("İttifaqi-müslimin") proqramında və nizamnaməsində əks olundu. "İttifaqi- müslimin" proqramının müəllifi Əlimərdan bəy Topçubaşov idi. 1905-ci il avqustun 15-də Nijni-Novqorod şəhərində yarmarka zamanı 150 nəfərin iştirakı ilə Ümumrusiya Müsəlmanlarının I Qurultayı keçirildi. Çıxışlarda "Bütün Rusiya müsəlmanlarını birləşdirmək", müsəlman burjuaziyasının qanunlarını rus burjuaziyasının qanunlarına uyğunlaşdırmaq, müsəlmanlara qarşı zülmü və hüquqi

bərabərsizliyi aradan qaldırmaq, ana dillərdə məktəblər açmaq, müsəlman kitablarını və qəzetlərini nəşr etdirmək uğruna çağırışlar edildi. Qurultayda türk xalqlarının türkçülük və islamçılıq zəminində birləşməsinin vacibliyi qeyd edilmiş, buna müvafiq "Müsəlman İttifaqı" adlı qurumun yaradılması qərara alınmışdı. Bu konqresin mühüm cəhətlərindən biri ilk dəfə olaraq sünni və şiə türklərin məzhəb fərqlərinə baxmayaraq, problemlərini birlikdə müzakirə etmələri idi. Qurultayda Topçubaşovun məruzəsi əsasında beş maddədən ibarət qərar qəbul edildi. Qərara əsasən, Rusiyanın bütün quberniyalarında müsəlmanlar sosial-mədəni və siyasi tələblərə uyğun birləşməli, ölkədə xalq təmsilçilərinin azad seçki yolu ilə qanunvericilik, dövlət idarəetmə orqanları yaradılmalı, hüquqi qanunvericilik təsis edilməli, müsəlman təbəələrinin hüquqları rusların malik olduqları bütün siyasi, mülki və dini hüquqları ilə bərabər olmalı, müsəlman quberniyalarında məktəblər, mətbuat orqanları, ictimai kurslar, qiraətxanalar, maarif qurumları açılmalıdır. Bu məqsədə çatmaq üçün müsəlman qurultaylarının rəhbərliyi altında müntəzəm fəaliyyət göstərən yerli şuralar yaradılmalı idi.

Rusiya müsəlmanlarının I qurultayı Rusiyadakı türk xalqlarının imperiyanın ruslaşdırma siyasətinə qarşı mübarizəsinin milli kimliyin əsasını təşkil edən dini və milli ideyalar əsasında başlanmasına nail oldu.

1906-cı ilin yanvarında Peterburqda Rusiya müsəlmanlarının II qurultayı keçirildi. Qurultayda Ə.Ağayevin və Q.İbrahimovun yaxından iştirakı ilə Ə.Topçubaşı tərəfindən hazırlanan "Müsəlman İttifaqı"nın nizamnaməsi və proqramı müzakirə edildikdən sonra qəbul edildi. 23 maddədən ibarət nizamnaməyə əsasən, İttifaqın Mərkəzi Komitəsinin Bakıda yerləşdirilməsi nəzərdə tutulur və Bakı Rusiya müsəlmanlarının siyasi mərkəzi kimi tanınırdı.
1906-cı il avqustun 16-da Nijni-Novqorod şəhərinin mərkəzi klubunda Rusiya Müsəlmanlarının III Qurultayı keçirildi. Konqresə Qafqaz, Krım, Volqaboyu, Sibir, Türküstan və Qırğızıstandan 1000-ə qədər iştirakçı qatılmışdı. Qurultayın 15 nəfərdən ibarət İdarə Heyətinin sədrliyinə Əlimərdan bəy Topçubaşov, İsmayıl bəy Qaspiralı, Qəbdraşid İbrahimov, Mustafa Şirvanski, Səid-Girey Alkın, Yusuf Akçura, Musa Biqiyev, Şahaydar Sıralanov, Səlim-Girey Çanturin və başqaları daxil idi. Qurultay bir sıra mühüm qərarlar aldı: bütün müsəlmanların birliyi və ittihadi-islam ideyası müdafiə olundu, açıq siyasi fəaliyyətin vacibliyi, bunun üçün milli və dini əsaslı proqrama sahib Müsəlman partiyasının yaradılmasının zəruriliyi vurğulandı, Topçubaşovun hazırladığı proqram layihəsi qəbul edildi; təhsilin problemləri müzakirə olundu, məktəb və təhsil komissiyası yaradıldı; dini islahat komissiyasının 13 maddədən ibarət qərar layihəsi müzakirə edilərək Rusiya müsəlmanları üçün vahid dini qurumun yaradılması qərara alındı; Rusiya müsəlmanlarının siyasi, iqtisadi, sosial və dini

problemlərini həll etmək məqsədi ilə Müsəlman İttifaqının Topçubaşı tərəfindən hazırlanmış 11 fəsil və 75 banddən ibarət Proqramı qəbul edildi.

Müsəlmanların siyasi fəallığının artması rus mütləqiyyətini narahat etdiyindən 1906-cı ilin sonlarından ictimai-siyasi xadimlərin, ziyalıların təqibinə başlandı. 1907-1908-ci illərdə Rusiyada Stolıpinin başlatdığı irticaçı siyasət Bakıdakı inqilabi fikirli şəxslərin də təqib olunmasına səbəb oldu. Bununla əlaqədar, M.Ə.Rəsulzadə öncə İrana, sonra isə, 1911-ci ildə Türkiyəyə mühacirət etməli oldu. Lakin, fikrimizcə, bu mühacirət faktını M.Ə.Rəsulzadənin yalnız siyasi təqiblərdən qorunmaq tədbiri kimi qiymətləndirmək düzgün olmazdı. Bildiyimiz kimi, həmin illərdə (1905-1911-ci illər arası) İranda Məşrutə hərəkatı başlamış, 1908-ci ildən isə (Təbriz üsyanından sonra) hərəkatın mərkəzi Cənubi Azərbaycana keçmişdir. M.Ə.Rəsulzadə Məşrutə hərəkatının xadimləri ilə görüşmüş, İranda ilk demokrat partiyasının yaradıcısı və demokratik islahatların təbliğatçısı kimi fəaliyyət göstərmişdir. Onun irsinin mühüm bir hissəsi (Əsasən 1906-1909-cu və 1914-cü ilə qədər müxtəlif mətbu orqanlarında dərc olunan publisistik yazıları, məqalələri) Cənubi Azərbaycanın hürriyyəti məsələlərinə və tarixinə həsr olunmuşdur. 1910-cu ildən isə İranda yayımlanan müasir tipli ilk mətbu orqanın – "İrani-nov" qəzetinin redaktoru olmuşdur. M.Ə.Rəsulzadə Türkiyədə mühacirət illərində İstanbulda "Türk ocağı"nda və "Türk yurdu" yurnalında Azərbaycan və İranda yaşayan türklər haqqında müfəssəl məlumatlarla çıxış etmişdir.

1906-cı ildən başlayaraq türk-müsəlman ictimai xadimləri Rusiya Dövlət Dumalarının (I Dövlət Duması – 1906-cı ildə, II 1907-ci ilin fevral ayında, III Dövlət Duması həmin ilin noyabr ayında, IV Dövlət Duması isə 1912-ci ilin payız aylarında çağrılmışdı) işində də yaxından iştirak edirdilər. Dumalara seçilmiş müsəlman nümayəndələrin Müsəlman Fraksiyası yaradılmışdı. Bunların arasında II Dumanın fəaliyyəti daha əhəmiyyətli sayıla bilər. Birincisi, bu Dumada Rusiyanın müsəlman dövlətlərini təmsil edən vəkil sayı maksimum həddə, 38 nəfər idi (Usmanova, 2005:166). Müsəlman Fraksiyasının isə 22 üzvü var idi (Seidzadə, 1978:56). Deməli, onların əksəriyyəti birgə fəaliyyət göstərirdi. Bundan əlavə, Dumanın fəaliyyəti zamanı 6 nəfərdən ibarət "Müsəlman Əməkçi Qrupu" yaradılmışdı.

III Dövlət Dumasının Müsəlman Fraksiyasının tatar deputatlarının təklifi ilə 1910-cu ilin noyabrında Ufada Müsəlman Bürosu yaradılmışdı. Sonuncu IV Dumanın fəaliyyətinin başlanğıcı 1912-1913-cü illər Birinci Balkan müharibəsinə təsadüf edir. Osmanlı İmperiyasının bu müharibələrdə məğlub olması Dumada Müsəlman Fraksiyasına qarşı etirazların artmasına səbəb oldu. Üzvlərinin sayının az olmasına və siyasi təzyiqlərə baxmayaraq, IV Dumanın Müsəlman Fraksiyası Rusiya hökumətinə müraciət edərək, ondan Türkiyənin daxili işlərinə

qarışmamağı tələb etdi və dinindən asılı olmayaraq bütün xalqlar üçün bərabər seçki hüququnun təmin edilməsi məsələsini gündəmə gətirdi. IV Dumanın Müsəlman Fraksiyası dini qurumların yenudən təşkil edilməsi üçün müşavirə aparmaq üçün Daxili İşlər Nazirliyindən izn almağa nail olmuşdu.

Nəzərdə tutulan müşavirə 1914-cü il iyunun 15-25-də Peterburqda keçirildi. Müsəlman Fraksiyasının rəhbəri K.Tevkelevinin təklifi ilə toplantı IV Müsəlman Qurultayı kimi qəbul edildi. Müsəlmanların IV Qurultayının beş iclası keçirimişdi. Qurultay Əlimərdan bəy Topçubaşının hazırladığı iki mühüm sənədi: “Müsəlman ruhani təhsil müəssisəsi – mədrəsələrin yaradılmasının mühüm məsələləri” adlı sənədi və “Rusiya imperiyası müsəlmanlarının dini işlərinin aparılması haqqında əsasnamə” adlı layihəni qəbul etdi. Ümumilikdə bu qurultayda on qərar layihəsi qəbul edilmişdi.

Rusiya Müsəlmanlarının IV Qurultayından bir ay sonra başlayan I Dünya müharibəsi, Rusiyanın Osmanlı imperiyasına müharibə elan etməsi ilə müsəlmanlara qarşı çağırışlar rəsmi xarakter aldı. Deputatların Dumadakı çıxışları, ziyalı məclislərinin müzakirələri, mətbuatın, xristian din xadimlərinin çıxışları müsəlmanların əleyhinə təbliğat yürüdürdü. Rusiya-Türkiyə cəbhəsinin hərbi əməliyyatları, Rusiya hökumətinin daşnak partiyasının terrorçularını həbsdən azad etməsilə ermənilərin silahlı dəstələr yaratması Cənubi Qafqazda vəziyyəti kritik həddə çatdırmışdı. 1914-cü ilin payızından erməni hərbi dəstələri türklərə qarşı döyüşlərə başladılar. 1914-cü ilin dekabrından 1915-ci ilin yanvar ayınadək erməni quldur dəstələri Qars və Batumda, 1915-ci ilin yazında isə Qars və Ərdəhanda türklərə qarşı qırğınlar törətdilər. 1915-ci ilin yazında acar torpaqlarında müsəlman əhaliyə qarşı hərbi əməliyyatlar aparıldı, minlərlə müsəlman həbs edildi, yüzlərlə kənd dağıdıldı, minlərlə qadın, uşaq və qoca öz yurd-yuvalarından sürgün edildi. Baş verən hadisələr türklərin Rusiya imperiyasının müstəmləkə zülmünə etirazını və müstəqillik uğrunda mücadiləni daha da alovlandırdı. Dumanın Müsəlman Fraksiyası “Qafqaz cəbhəsində məskunlaşan müsəlmanların vəziyyəti haqqında” bəyanatla bu hadisələrə öz etirazını bildirdi (Həsənli, 2013:206).

1915-1916-cı illər ərzində Bakı yenidən Dumanın Müsəlman Fraksiyasının və Bürosunun əsas təbliğat mərkəzinə çevrilmişdi. 1915-ci ilin payızından Məhəmməd Əmin Rəsulzadənin redaktorluğu ilə çıxan “Acıq söz” qəzeti Müsəlman Fraksiyasının və Bürosunun fəaliyyətində mühüm yer tutmağa başladı (Həsənli, 2013:276-277).

## 3. Qafqaz müsəlmanlarının Bakı qurultayı və M.Ə.Rəsulzadənin milli-siyasi görüşləri

1917-ci ilin fevralında Rusiyada başlayan və qələbə ilə başa çatan burjua-demokratik inqilabı Azərbaycan milli hərəkatında yeni dövrün başlanğıcı oldu. 1917-ci il mart ayının 2-də Rusiyada Müvəqqəti hökumət yaradıldı. Müvəqqəti hökumətin 3 mart bəyannaməsi və Rusiya vətəndaşlarına imzalanan 6 mart müraciətində bütün siyasi və dini məzhəblər üzrə əfv veriləcəyi; söz, mətbuat, cəmiyyətlər, iclas və tətillər azadlığı; dini və milli məhdudiyyətlərin aradan qaldırılması; Müəssislər Məclisinin çağrılması nəzərdə tutulurdu. Milli azadlıq hərəkatlarının təzyiqi altında Müvəqqəti hökumət 1917-ci il mart ayının 20-də milli və dini məhdudiyyətlərin ləğv olunması haqqında Dekret imzaladı. Millətlərin öz müqəddəratını həll etmək hüququ məhdud formada, yalnız polyak və fin xalqları üçün tanındı. Bu yeni "demokratik" dövlətin də anti-müsəlman ruhunun göstəricisi idi. 1917-ci ilin fevral ayından Azərbaycan milli liderləri azərbaycanlıların xüsusi millət kimi siyasi konstitusiya hüququ və Rusiya dövləti tərkibində ərazi muxtariyyəti uğrunda mücadiləyə başladılar. Bununla da Azərbaycan milli azadlıq hərəkatı siyasi müstəqillik uğrunda mücadilə mərhləsinə qədəm qoydu. Rəsulzadə I dünya müharibəsi və 1917-ci il fevral inqilabının Rusiya türklərinin azadlıq mübarizəsinə təsirini təhlil edərək, belə bir qənaətə gəlmişdi ki, "Qafqaz türklüyündə doğan ümid...ulus prinsipinin uğur qazanacağına bağlanmış bir ümid!" idi (M.Ə.R. Az. Cümh. s. 37). Mütləqiyyətin devrilməsi Cənubi Qafqazda siyasi prosesləri sürətləndirdi. M.Ə.Rəsulzadə 1917-ci il apreli 14-də "Açıq söz" qəzetində yazırdı: "İstibdad, bu Şərqdə hürriyyət cəlladı olan çar istibdadı hürriyyətpərvər Rusiya camaətlərinin qeyrətli zərbəsi ilə sərnigün olduqdan sonra bütün vətəndaşların, tamam millətlərin əl-qollarındakı zəncirlər açıldı... Qafqasiya müsəlmanları, Azərbaycan türkləri də bunu hiss etdilər" (Rəsulzadə, 2013:150).

Martın 27-də Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradıldı (Baykara, 1966:100) və Komitənin üzvlərindən Əlimərdan bəy Topçubaşov milli qüvvələrin birliyinə nail olmaq üçün Gəncəyə, oradan da Tiflisə yollandı. Aprelin 11-də Ə. Topçubaşv Qafqaz diyarının məsələləri ilə bağlı Sərdar sarayında keçirilən Xüsusi müşavirənin iclasına dəvət edildi (Həsənli, 2013:239-240).

Ə.Topçubaşovun Gəncə və Tiflis səfərlərindən sonra 1917-ci il aprelin ortalarında Bakıda Qafqaz Müsəlmanları Qurultayı işinə başladı. "Bu qurultay bütün Qafqasiya müsəlmanlarının övzai-hazirə münasibəti ilə keçirdikləri hal və hissiyatə tərcüman olub onun siyasi, milli, və mədəni ideallarının baş mətləblərini aydın surətdə elan etməlidir" (Rəsulzadə, 2013:150).

Qurultayın ümumilikdə dörd iclası keçirilmişdi. Qurultayın işində Gəncədəki "Türk Ədəmi Mərkəziyyət" və Bakıdan "Müsavat" partiyaları fəal iştirak edirlər. Qurultayın

iclaslarında Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, M.B.Əfəndiyev, Şeyxülislam M.Pişnamazzadə, Dağıstan müsəlmanlarından Hadi Əfəndi, H.Ağayev, professor R.Karlanov və başqalarının çıxışları, ən başlıcası isə ilk iclasda, Şərq tarixində ilk dəfə olaraq iki qadın nümayəndənin – Şəfiqə Xanım Əfəndizadə və Adilə Xanım Şahtaxtlinskayanın məruzələri dinlənildi. Qafqaz Müsəlmanlarının Bakı Qurultayının əsas müzakirə mövzuları Rusiyanın siyasi quruluşu, müsəlmanların dini məsələləri, Qafqazda təhsil problemləri, Qafqaz müsəlmanlarının Rusiya Müvəqqəti hökumətinə və I dünya müharibəsinə münasibəti oldu.

Bütün qurultay iştirakçıları milli müstəqilliyin tərəfdarı idilər. Lakin müstəqil türk millətlərinin siyasi quruluşu ilə bağlı müzakirələr iştirakçılar arasında fikir ayrılığının olduğunu əks etdirirdi. “Qarşıdurma bir yandan tükçülər, bir yandan da islamçılarla sosialistlər arasında idi. Federasiya quruluşunu savunanlar türkçülər idi. Bunlar Azərbaycan üçün də ayrıca yerli özərlik istəyirdilər. Qarşılar isə yalnız demokratik respublika ilə yetinib, ulus sorununun çözümünü yerli deyil, kültürəl özərlik kimi düşünürdülər” (Rəsulzadə, 2015:39). Azərbaycan nümayəndələrinin əksəriyyəti artıq siyasi müstəqillik ideyasına üstünlük verirdilər. Onların fikrincə təkcə Azərbaycan deyil, Rusiyanın bütün türk xalqlarının siyasi cəhətdən maariflənməsinə nail olmaq mütləq idi. Lakin Qafqazın müxtəlif bölgələrinin nümayəndələri “İslam birliyi” ideyasını müdafiə edirdilər. Onlar iddia edirdilər ki, müsəlmanlar siyasi müstəqilliyə hələ də hazır deyildilər. Lakin M.Ə. Rəsulzadənin bildirdiyi kimi, “Hər bir müsəlman milləti öz dili, tarixi adat və ənənatı ilə birləşib, mədəni bir qüvvət təşkil etməli” (Rəsulzadə, 2013:155).

M.Ə.Rəsulzadənin fikirincə, “millətlər ibtidai halda bulunduqları zaman milliyyətlərini din şəklində hiss edirlər və bu hiss kəndilərini din ətrafında birləşdirə bilər. Fəqət bir millət tərəqqi etdikcə milliyyət hissi də tərəqqi edər, o zaman din ilə cinsiyyət ilə ayr-ayrı qüvvətlər olduğu anlaşılır” (Rəsulzadə, 2013:155).

M.Ə.Rəsulzadə Qafqaz qurultayındakı fikir ayrılıqlarını ayr-ayrı incələmiş, hər istiqamətin təmsilçilərinin gətirdikləri əsasları zamanın prizmasından çıxış edərək qiymətləndirmişdir. O, millət və din məfhumlarının ayrılmaz olduğunu və bir-birini tamamladığı qənaətində olan nümayəndələri fikirlərinə qismən haqq verirdi. M.Ə.Rəsulzadə qeyd edirdi ki, “...türklük və müsəlmanlıq həqqində olan əsaslı nəzəriyyələr Rusiya müsəlmanlarına aid olunca bir növ elmi mübahisədən ibarət olub qalıyor. Çünki otuz milyonluq müsəlman kütləsindən 29 milyonu türkdür. Yerdə qalan bir milyon da komisyon danışıqları əsnasında qəti surətdə aşkar oldu ki, ciddiyyəti-təmamilə türk mədəniyyətinə qovuşmaq istiyorlar” (Rəsulzadə, 2013:157). Buna görə də Qafqaz müsəlmanlarının qurultayının

Rusiyanın federativ əsaslı demokratik respublika formasında qurulması ideyasının siyasi müstəqillik uğrunda mübarizənin hələ ilk mərhələsi olduğunu və daha da inkişaf edəcəyini vurğulayırdı. “Komisyon müzakirənizə təklif elədigi bu mətləbləri yarından etibarən tətbiq olunacaq bir qərar şəklində degil, böyük bir arzu və amal surətində tələqqi olunmasını ayrıca rica edər... Qoy qəbul edəcəgimiz bu qərar bizim işıqlı yıldızımızı təşkil eləsin və bu yıldızı özümüzə rəhbər ittixaz edərək Məclisi-Müəssisana o sürətlə hazırlaşaq. Oraya göndərəcəgimiz vəkilləri məhəlli muxtariyyətli cümhuriyyəti-ənam tələbində olan şəxslərdən göndərək” (Rəsulzadə, 2013:157). Gərgin danışıqlardan sonra qurultay qərara gəldi ki, “federativ əsaslarla demokratik respublika Rusiya dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini ən yaxşı təmin edən forması kimi tanınsın” (Qafqaz Müsəlmanları Qurultayının Qətnaməsi. Aprel, 1917.//ARDA, f.790, s. 1, i.18, v.3).

Qurultay Bakıda Cənubi Qafqaz üzrə Milli Komitənin Mərkəzi Bürosunun, Vladiqafqazda Şimali Qafqaz üzrə Mərkəzi Büronun açılması haqqında qərar qəbul etdi (Həsənli, 2013:246).

Rusiya müsəlmanlarının Moskva qurultayı. M.Ə.Rəsulzadə etnik türkçülüyün ideoloqu kimi

1917-ci il mayın 1-də Moskvada Rusiya müsəlmanlarının qurultayı açıldı. Qurultayda 900 nəfər, Volqaboyu, Krım, Qafqaz, Qırğızıstan, Sibir və digər bölgələrdən artıq 100-ə yaxın qadın nümayəndələr də iştirak edirdi. Qurultayda Rusiyanın bütün türk xalqları - Qafqaz türkləri, dağlılar, Volqaboyu, Sibir və Uralda yaşayan tatarlar, başqırdlar, Şərqi Türküstan xalqları – qırğızlar, türkmənlər, özbəklər təmsil olunmuşdu. “Mayın 1-də məclis rəsmən açıldı... Göz başqa bir mənzərə qarşısında. Rusiya müsəlmanlığının hamısı burada... Sanki bir qələyə çıxmışsan da böyük Rusiyanın böyük müsəlman vilayətərinə nazir bir mövqedə oturmuşsan...bir qan və bir ruhla canlanan türk tatarlığı, Rusiya müsəlmanlığını seyr ediyorsun” (Rəsulzadə, 2013:171). Qurultayın işi mayın 10-a kimi davam etmiş, ümumilikdə 12 iclas keçirilmişdi.

Moskva qurultayında Azərbaycan türklərinin heyətinə Ə.Topçubaşov rəhbərlik edirdi. Bu heyət Cənubi Qafqaz müsəlman milli komitəsinin xüsusi missiyasını daşıyırdı (Həsənli, 2013:248). Nümayəndə heyəti qurultaya Məhəmməd Əmin Rəsulzadənin Bakı qurultayında təklif etdiyi ərazi muxtariyyəti ideyasını təqdim etdi. Məhəmməd Əmin Rəsulzadənin məruzəsi qurultayın üçüncü toplantısında dinlənildi. Həmin toplantıda ilk çıxış Əhməd bəy Salikov tərəfindən edilmişdi. Ə.Salikov Rusiyanın və türk xalqlarının hazırkı siyasi vəziyyətini təhlil edərək, türk millətləri üçün öncə həm mədəni, həm də güclü siyasi mərkəz yaratmağın vacib

olduğunu vurğulamışdır. Siyasi mərkəz yaratmaq üçün isə müstəqil dövlətin qurulmasının doğru olduğunu, ancaq bunun türk xalqları üçün əlçatmaz olduğunu bildirmişdir. Onun fikrincə, müstəqil dövləti yaratmaq Rusiyadan ayrılmaq demək idi. Rusiyadan ayrılmaq isə o zamankı heç bir partiyanın proqramında irəli sürülmürdü. Həm də türk xalqlarının müstəqil dövləti idarə edəcək hazırlıqlı xadimləri də yox idi. Salikovun fikrinə görə, federasiya quruluşu həm də ümumi türk mədəni birliyinə mane olacaqdı.

Ə.Salikov və acar Kipanidzedən sonra M.Ə.Rəsulzadənin məruzəsi dinlənildi. Məruzə ətrafında müzakirələr və mübahisələr (əsasən Ə.Salikov və M.Ə.Rəsulzadə arasında) qurultayın altıncı məclisində xüsusi vüsət aldı. "...Federasiya lehinə Volqaboyu intelligensiyasının əksəri, müəllimlərindən qismi-mühümmi, mətbuat ərkanından Fateh Kərimi ("Vəqt" mühərriri), Hadi Atlasi, Tutqarov, Zakir Əlqədari ("Turmuş" mühərriri), üləmadan bir çoxu, sosial-revolyusioner məsləkindəki əmələlərlə kəndçilər, tatar soldatlarından bir qismi, qadınlardan bir hissəsi federasiya lehinə söz söyləyərək vilayət nümayəndələrindən Türkistan, Qırğızıstan, Krım və Qafqasiya nümayəndələrinin demək olar ki, haman hamısı bu nöqteyi-nəzəri müdafiə ediyor. "El" mühərriri Ayaz əfəndi İshakov ilə Volqaboyu əmələ və kəndçi vəkillərindən ibarət işçi qismi ilə soldatlardan bir hissəsi və əksəriyyəti Volqaboyu qadınlarından ibarət olan ünas şöbəsi ilə bir qisim tatar gəncləri, Qafqasiyadan dəxi Şimali Dağıstan nümayəndələrindən bir-ikisi mərkəziyyət üsulu tərəfində idilər" (Rəsulzadə, 2013:197). M.Ə.Rəsulzadənin fikrini ən çox dəstəkləyən və türk xalqları arasında təbliği edən azərbaycanlı Əlimərdan bəy Topçubaşov, baş kapitan Əhməd-Zəki Vəlidov, qazax Mühəmmədcan Tınışpayev və Əlixan Bukeyxanov, özbək Usman Xocyyev olmuşlar (Vserossiyskiy Musulmanskiy Seezdı 1905-1906 qq., 2005:231).

M.Ə.Rəsulzadə cavab çıxışında Ə.Salikovun muxtariyyət əleyhinə və mərkəzləşmiş dövlətin lehinə irəli sürdüyü bütün müddəaların əsassız olduğunu tarixi və elmi dəlillərlə sübuta yetirmişdir. Türk millətinin siyasi düşüncə tərzinə olan inamsızlığa gəlincə isə, "Muxtariyyətə hazır degiliz, cəmaətimiz əvamdır, deyən əfəndilər görüyprum ki, mərkəzdəki xəlqin idrakına cox güvəniyorlar... Onun özünü idarə edə biləcəginə dəxi ehtiram gərək. Kəndisindən naümid olub bütün diləklərini başqalarından gözləyən bir millət, millət olaraq yaşayamaz" (Rəsulzadə, 2013:204). Bu fikirləri milli mücadilə hərəkatının ilk dönəmlərindən etibarən türk milləti və onun təfəkkürünə verilən ən yüksək qiymət kimi qəbul etmək olar.

Qurultay iştirakçılarından bəziləri iddia edirdilər ki, muxtariyyət məsələsi torpağa bağlıdır və konkret ərazisi olmayan bəzi müsəlmanlar muxtariyyət əldə edə bilməyəcəklər. Buna görə də mədəni muxtariyyət uğrunda mübarizə aparmaq daha məqsədəuyğundur.

M.Ə.Rəsulzadənin bu iddialara cavabı çox konkret olmuşdu: "bu nəzəriyyə ilə təskin bulub da kəndi milli məsələsini həll edə biləcək və o hala qane olacaq dünyada bir millət vardır ki, nə yeri var, nə yurdu. Bu – yəhudi millətidir. İlahülhəmd bizim yerimiz də var, yurdumuz da!" (Rəsulzadə, 2013:205).

M.Ə.Rəsulzadə bu qurultayda millətçilik və ümmətçilik fikirlərinə də tam aydınlıq gətirdi. "...islam adında bir millət yoxdur. İslam dinində millətlər vardır. Bu millətlərin mərkəzi-səadətləri özlərində, öz milli hökumətlərindədir. İslamı parladacaq bu şey məsud millətlər arasında təmin etdigi irtibati-mədəniyyətdir ki, o da bir millət degil – beynəlmilliyyətdir" (Rəsulzadə, 2013:204).

Qurultayda gizli səsvermə yolu ilə "271 rəyə qarşı 446 rəy əksəriyyətlə milli-məhəli muxtariyyət üzərinə qurulu xəlq cümhuriyyəti lehinə olduğu elan" (Rəsulzadə, 2013:205) olundu.

Qurultayın gündəliyinə Rusiyanın siyasi quruluşu, milli-mədəni muxtariyyət; I dünya müharibəsinə münasibət; İdarə heyəti və seçki qabağı kampaniyanın taktikası" qadın, fəhlə və aqrar məsələlər; dövlət silahlı qüvvələrinin yaradılması; müharibədən zərəçəkənlərə yardımın təşkili; Ümumrusiya Müsəlman Şurasının seçilməsi məsələləri daxil idi (Həsənli, 2013:251). Ümumrusiya müsəlmanlarının Moskva qurultayında M.Ə.Rəsulzadənin məruzəsi əsasında siyasi quruluş haqqında qərarın qəbul olunması ilə milli-istiqlal hərəkatı türkçülükdə etnik türkçülüyə keçid dönəminə qədəm qoydu. Rusiyanın türk xalqlarının milli istiqlal mübarizəsi "milli-coğrafi" mühitdə irəliləyərək milli muxtariyyət uğrunda savaşa qalxdı. Bu, müstəqil demokratik milli dövlətin yaradılmasından öncəki bir addım idi. "Türk birliyi" ideyası "islamçılıq" ideyasının zəncirlərini qıraraq türkçülük ideologiyasına qarşı sürülən "panislamizm" ittihamlarının əsassız olduğunu sübut etdi.

Ərazi-muxtariyyəti təklifi Azərbaycan siyasi qüvvələri arasında birmənalı qarşılanmamışdı. Solçu "Hümmət" (həm bolşevik, həm də Rusiya sosial-demokrat partiyasının siyahısında olan menşevik yönümlü), "Müsəlman sosialistlər bloku" və sağçı "İttihad" partiyası Azərbaycanın gələcəyini yalnız və yalnız demokratik Rusiyanın tərkibndə görürdülər. "Vəhdəti-siyasi fikrini müdafiə edənlər sosyalistlərlə islamçılar idi. Birincilərin şüarı "Cümlə cahan füqərayi-kasibəsi, toplaşın!" ikən, qalxıb da Rusiya füqərayi-kasibəsini bir ikən yenidən "ayrı-ayrı şərait altında almaq və yek digərindən ayırmaq", bitəbb, zövqlərinə müvafiq gəlməyirdi... İslamçılar dəxi Rusiyanın siyasi hürriyyətinə iktifa edərək 30 milyonluq Rusiya müsəlmanlarını bir idareyi-ruhaniyyəyə bağlıyor və milli-mədəni işlərə baxacaq bir məclisi-milli ilə iktifa ediyorlardı... Dəlilləri ayrı olsa da, gedəcəkləri yolları bir olan bu iki siyasət

yolçuları arasında bir də bir növ mərkəziyyətçi türkçülər var idi. Bunlar da islamçı olmadıqları halda, Rusiya vəhdəti-siyasiyyəsində Rusiya türklüyünün vəhdəti üçün bir məziyyət görüyor, düşünüyorlardı ki, Rusiya cümhuriyyəti daxilində qalan türklər öz milli və mədəni işlərini kəndilərinə məxsus bir məclis və bir idarə vasitəsilə görürlərsə, qivami-millilərini daha əvvəl tərəqqi edirlər" (Rəsulzadə, 1998:6-7).

Sonradan məhz bu qruplar hakimiyyətə seçkilər zamanı bütün milli qüvvələrin birliyi çağırışına, Müəssislər Məclisinə seçkilər zamanı milli cəbhəyə qatılmadılar. "Onlar millətə əlvan, parlaq rənglərlə təsvir edilən, qurdun quzu ilə yan-yana otlayacağı "Yeni Rusiya" vəd edirdilər. "Müsavat" isə milli bir Azərbaycan vəd edirdi" (Məmmədzadə, 1992:69). M.Ə. Rəsulzadənin fikrincə, "Yalnız türk federalistləri,.. türk ədəmi-mərkəziyyətçilərinin fikrincə, böyük Rusiya gərək zamanın hakim bir fikri olan milliyyətə istər-istəməz hesab verə idi...Lazım idi ki, milliyyət bir hökumət şəklində təzahür etsin. Bunun üçün də Rusiya milli-məhəlli muxtariyyətlərdən təşəkkül etməliydi" (Rəsulzadə, 1998:7). Buna görə də 1917-ci il Fevral inqilabından sonra Rusiyada yaranmış bütün siyasi partiyalar mübarizə hədəfi olaraq "Müsavat"ı seçmişdilər.

**Sonuç**

Beləliklə, XX əsrin əvvəllərində Rusiyanın daxili və xarici vəziyyəti, I Dünya müharibəsi nəticəsində baş verən beynəlxalq siyasi-coğrafi dəyişikliklər nəticəsində Azərbaycanda milli müqavimət hərəkatı yeni mərhələyə qədəm qoymuşdu. XVIII əsrdən etibarən Rusiya imperiyasının siyasi-iqtisadi təzyiqləri ilə mücadilə edən Azərbaycan xalqının milli istiqlal məfkurəsinin inkişafı bütün türkçülük ideologiyasına öz təsirini göstərdi. Hətta Osmanlı imperiyasının əsas siyasət xəttini təşkil edən türkçülüyün inkişaf mərkəzinin Azərbaycana, xüsusilə də Bakıya keçdiyini desək, fikrimizcə yanılmarıq. Artıq XX əsrin əvvəllərindən etibarən fəaliyyətə başlayan Ümumrusiya müsəlmanlarının Qurultaylarında (1905-1917) aparıcı mövqe, demək olar ki, Azərbaycan ziyalılarına məxsus olmuşdur. I Dünya müharibəsi və Fevral inqilabından sonra, 1917-ci ildə bir-birinin ardınca keçirilən Qafqaz müsəlmanlarının Bakı Qurultayı və Rusiya müsəlmanlarının Moskva qurultayı isə türkçülüyün inkişafında xüsusi bir dönəm oldu. Bu qurultaylarda M.Ə.Rəsulzadənin Fevral inqilabından sonra Rusiyanın siyasi quruluşu haqqında məruzəsi və federativ dövlət ideyası əsasında azərbaycançılığın ilk tezisləri səsləndirildi. Məsələ onda idi ki, bu dövrdə Azərbaycan təkcə Rusiyanın deyil, Osmanlı imperiyasının da siyasi maraq dairəsində idi. M.Rəsulzadə isə Azərbaycanın dinindən, və etnik mənşəyindən asılı olmayaraq hər hansı bir dövlətin tərkibində deyil, tam müstəqil olmasının tərəfdarı idi. M.Ə.Rəsulzadə hər iki qurultayda türk xalqlarının

“millət” və “din” anlayışlarını əsaslı şəkildə incələmiş, “...millətin dəlili-təşxisi...nişanələrinin başlıca dil birligi, adat və ənənat birligindən ibarət” (Rəsulzadə, 2013:185) olduğunu qeyd edərək, “...islam adında bir millət yoxdur. İslam dinində millətlər vardır”, deyə vurğulamışdır (Rəsulzadə, 2013:204). O, Ümumrusiya müsəlmanları qurultayında Ə.Salikova cavab çıxışı zamanı xüsusi olaraq, qeyd edirdi ki, “Məntiq icab etməzmi ki, İran da Türkiyə də bütün sair islam məmləkətləri də bu “mərkəzi səadətdən” feyziyab olsunlar. O halda nədən İstanbulun ilhaqını istəmiyoruz? Nədən İslam məmləkətlərinin istiqlalına qarşı xəyanət bəsləyən Avropa imperializmini protest ediyoruz?.. millətlərin mərkəzi-səadətləri özlərində, öz milli hökumətlərindədir” (Rəsulzadə, 2013:204).

M.Ə.Rəsulzadə tükçülük ideolgiyasını inkişaf etdirməklə yanaşı azərbaycançılığı təbliğ edirdi. Bu xüsusilə Batum konfransından (11-26 may 1918-ci il) sonrakı dövrdə daha aydın hiss olunurdu. Belə ki, Fevral inqilabından sonra yaranmış Müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyini yürütmək məqsədilə Xüsusi Cənubi Qafqaz Komitəsini təsis etmişdi. Çünki bu dövrdə Cənubi Qafqazda milli-azadlıq hərəkatının xüsusilə genişlənmişdi. Belə bir şəraitdə Azərbaycan xalqı və bəzi siyasi qüvvələr M.Ə.Rəsulzadənin rəhbəri və ideoloqu olduğu Müsavat partiyası ətrafında birləşmişdi. Milli qüvvələrin əsas hədəfi Azərbaycana muxtariyyət verilməsinə nail olmaq idi.

1917-ci il oktyabrın 25-də (7 noyabr) Petroqradda bolşevik partiyasının başçılığı ilə silahlı çevriliş baş tutdu və Müvəqqəti hökumət devrildi. 1917-ci il noyabrın 26-da Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Müəssislər Məclisinə seçkilər keçirildi. Bütün Cənubi Qafqaz üzrə 2 455 274 seçicinin iştirak etdiyi seçkilərdə hər 60000 səs üçün bir mandat verilməklə, gürcü menşevikləri 11, Müsavat 10, Daşnaksyutun 9, Müsəlman Sosialist Bloku 2, bolşeviklər, eserlər, Hümmət və İttihad isə hərəsi 1 mandat qazandılar (Qafarov, 2020:73-74). Bu nəticələr Cənubi Qafqazda bolşeviklərin güclü nüfuza malik olmadıqlarını göstərdi. Bu dövrdən etibarən 1918-ci il may ayına kimi davam edən və yüksələn xətlə inkişaf edən milli istiqlal mücadiləsi, bütün daxili və xarici maneələrə rəğmən, mayın 28-də Azərbaycan Cümhuriyyətinin qurulması ilə qələbə çalmış oldu.

Bu həm də əsasını türkçülük ideologiyasının təşkil etdiyi milli oyanış ideyalarının, azərbaycançılığın qələbəsi idi..

## Kaynakça

**a) Arxivlər**

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA)
2. AMEA Məhəmməd Füzuli adına Əİ// Şəxsi arxivləri.F.6.

**b) Kitab və məqalələr**

Baykara, H. (1966) Azerbaycan`da Yenileşme Hareketleri XIX Yüzyıl. Ankara: Türk Kültürünü Araştırma Enstitusu.

Həsənli, C. (2013). Tarixi şəxsiyyətin tarixi. Əlimərdan bəy Topçubaşov. Bakı: Azərbaycan Diplomatik Akademiyası.

Məmmədzadə, M.B. (1992). Milli Azərbaycan hərəkatı. Bakı: Nicat.

Qafarov, V. (2020) Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918-1922). Bakı:Mütərcim.

Qarayev, Y. (2005) Ön söz. Ə. Cavad. Seçilmiş əsərləri. Bakı:Şərq-Qərb.

Rəsulzadə, M.Ə. (1998). Azərbaycan təşkilində Müsavat. Azərbaycan Xalq Cümhuriyyəti-80 (sənədlər və mənbələr toplusu). Bakı: Örnək.

Rəsulzadə, M.Ə. (2014) Bakı. Əsərləri I Cild (1903-1909). Bakı:Təhsil.

Rəsulzadə, M.Ə. (2014) Hümmətür-rical tələül-cibal. Əsərləri. I cild (1903-1909). Bakı:Təhsil.

Rəsulzadə, M.Ə. (2014) Mərəzimizin çarəsi.Əsərləri. I cild (1903-1909). Bakı:Təhsil.

Rəsulzadə, M.Ə. (2013) Qafqasiya qurultayı. Əsərləri. IV cild (1917-aprel 1918). Bakı:Qanun.

Rəsulzadə, M.Ə. (2013) Qafqasiya müsəlman qurultayında siyasi-milli məsələlər. Əsərləri. IV cild (1917-aprel 1918). Bakı: Qanun.

Rəsulzadə, M.Ə. (2013) Ümumrusiya müsəlman syezdi (xatirat və təəssürat). Əsərləri. IV cild (1917-aprel 1918). Bakı: Qanun.

Rəsulzadə, M.Ə. (2015) Azərbaycan Cümhuriyyəti. Bakı.

Seidzade, D. (1978). İz İstorii Azerbaydjanskoy Burjuazii V Naçale XX Veka. Baku: Elm

Usmanova, D. (2005). Musulmanskie Predstaviteli v Rossiyskom Parlamente. 1906-1916 qq. Moskva.

Vserossiyskiy Musulmanskiy Syezdı 1905-1906 qq. (2005) Nijniy Novgorod.

Yaqublu, N. (2001) Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı. TS.

**BENGİ**

**Dünya Yörük-Türkmen Araştırmaları Dergisi**
*BENGİ World Journal of Yörük-Türkmen Studies*
*https://dergipark.org.tr/tr/pub/bengi*
**ISSN: 2717-6584**

# Mehmet Emin Resulzade'nin "Yeni Kafkasya" Yazılarına Dair

*Mehmet Emin Rəsulzadənin "Yeni Qafqaz" Yazılarına Dair*

*About the "New Caucasus" Writings of Mehmet Emin Rasulzade*

**doi**: 10.58646/bengi. 1464595

**Geliş/Received:** 03 Nisan 2024 **Kabul/Accepted:** 20 Mayıs 2024

**Güler GAFGAZLI** *

## Özet

Doğunun ilk demokratik cumhuriyetinin kurucusu olan Mehmet Emin Resulzade, çeşitli sebepler, baskı ve tehditler nedeniyle doğduğu toprakları terk etmek ve sürgünde yaşamak zorunda kaldı. Göçmen hayatı onu başta İstanbul olmak üzere dostu ve komşusu Türkiye'ye getirdi. İstanbul'a yerleşir yerleşmez fikir ve kanaatlerini yaymanın, milli mücadelesini yürütmenin bir yolunu ve yolunu bulmaya çalıştı. Böylece yarattığı yeni yol, "Yeni Kafkasya" gazetesinin, ayni zamanda mecmuasenin İstanbul'da yayınlanması oldu. M.A. Rasulzadeh bu koleksiyonda yayımlanan makalelerinde birçok konuyu incelemiş, birçok konuyu kapsayan görüşler belirtmiş ve en önemlisi kalemiyle özgürlük mücadelesini sürdürmüştür.

**Anahtar Kelimeler**: Azerbaycan, Resulzade, Yeni Kafkasya, Milli Mücadilesi, Fikirleri.

* **Sorumlu Yazar/Corresponding author**: Doç.Dr., Azerbaycan Milli Bilimler Akademisi, Şarkiyat Enstetüsü, e-posta: ggafgazli@yahoo.com. Orcid: 0000-0002-8244-8348.

**Atıf/Citation:** Gafgazlı, G. (2024). Mehmet Emin Resulzade'nin "Yeni Kafkasya" Yazılarına Dair. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi, 2024 (2), 309-317.

**Xülasə**

Şərqdə ilk demokratik respublikanın qurucusu Məmməd Əmin Rəsulzadə müəyyən səbəblərdən, bəzi təzyiq və təhdidlər səbəbi ilə doğma vətənini tərk edərək mühacirətdə yaşamağa məcbur olmuşdur. Mühacir həyatı onu dost və qonşu olan Türkiyəyə, ilk öncə İstanbul şəhərinə gətirib çıxarmışdır. O, İstanbula yerləşir-yerləşməz milli mübarizəsini aparmaq, öz ideya və fikirlərini yaymaqdan ötrü bir yol, vasitə tapmağa çalışmışdır. Belə ki, yaratdığı yeni yol İstanbulda "Yeni Qafqaz" alı qəzetin, eyni zamanda məcmuənin nəşr etməsi olmuşdur. Həmin məcmuədə çap etdirdiyi yazılarında M.Ə.Rəsulzadə bir çox məsələlərə toxunmuş, bir neçə mövzunu əhatə edəcək fikirlər söyləmiş və ən əsası azadlıq uğrunda mübarizəsini qələmi ilə davam etdirmişdir.

**Açar sözlər:** Azərbaycan, Rəsulzadə, Yeni Qafqaz, Milli Mübarizəsi, Fikirləri.

**Abstract**

Mammad Amin Rasulzadeh, the founder of the first democratic republic in the East, was forced to leave his native land and live in exile due to certain reasons, pressure and threats. The immigrant life brought him to his friend and neighbor Turkey, first of all to the city of Istanbul. He tried to find a way and a means to spread his ideas and opinions, to carry out his national struggle without moving to Istanbul. Thus, the new way he created was the publication of the "New Caucasus" newspaper in Istanbul, as well as the collection. In his articles published in that newspaper, M.A. Rasulzadeh touched on many issues, expressed opinions covering several topics and, most importantly, continued his struggle for freedom with his pen.
**Keywords:** Azerbaijan, Rasulzadeh, New Caucasus, National Struggle, Ideas.

## Giriş

Böyük Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Respublikasının dahi qurucusu Məmməd Əmin Rəsulzadə (1884-1955) Leninqraddan (indiki Sankt-Peterburq) Musa Yarulloviç Bigiyevin (1874-1949) köməkliyi ilə gecə saatlarında qaçaraq Fin körfəzinə yan almış, burada on beş gün müddətinə karantində qaldıqdan sonra Helsinkiyə yola düşmüşdür (Şimşir, 2012:58). Helsinkidə bir ay ərzində Tatar koloniyasında qonaq olmuş və 16 sentyabr 1922-ci ildə o, dəniz yolu ilə Berlinə getmişdir (Yaqublu, 1991:25-26). Buradan da İstanbula yetişə bilmək üçün Parisə səfər etmiş, nəhayət Türkiyəyə gəlib çatmış və həmin zamandan etibarən doğma Azərbaycanından ötrü mübarizəyə sarılmışdır (Taymaz, 1955:14).

Uzun və əziyyətli yollar qət edərək Türkiyəyə gəlib çatan M.Ə.Rəsulzadə Azərbaycanlı mühacirlərin türklər arasındakı münasibət və vəziyyətini görüb bundan çox məyus olmuşdur: “İstanbula vardığım günlərdə oradakı Azərbaycan kolonisinə aid mənzərə heç də ümid etmədiyim bir faciəni ərz edirdi” (Rəsulzadə, 1934:58).

Qarşılaşdığı mənzərədən məmnun olmayan dahi şəxsiyyət Azərbaycanın və azərbaycanlıların istiqlaliyyəti uğrunda mübarizəyə qalxmışdır. O, öncə 1922-ci ildə məşhur “Azərbaycan Cumhuriyyeti keyfiyət-i təşəkkülü və şimdiki vəziyyəti” (Caferoğlu, 1940:17-18; Ebülhesenli, 1940:21) adlı əsərini, bir müddət sonra isə “Əsrimizin Siyavuşu” adlı əsərini çap etdirmişdir (Ebülhesenli, 1940:21; Yaqublu, 2013:171). Böyük şəxsiyyətin hər iki əsəri işıq üzü gördükdən sonra hər kəsi maarifləndirəcək, həqiqətləri onlara çatdıra biləcək, insanları qəflət yuxusundan ayılda biləcək və eyni zamanda öz vətəni üçün mübarizə apara biləcək yeni bir yol tapmışdır.

### 1. “Yeni Qafqaz” Məcmuəsi

1923-cü il 26 sentyabr tarixində M.Ə.Rəsulzadənin fikirlərini hər kəsə çatdıra biləcək “Yeni Kafkasya” (Yeni Qafqaz) məcmuəsinin ilk nömrəsi ilə oxuculara təqdim edilmişdir. “Yeni Qafqaz” məcmuəsi 1923-1927-ci illəri əhatə etməklə, daha dəqiqləşdirsək sonuncusu sayı 1927-ci il 1 oktyabr olmaqla beş il müddətinə 95 nömrədə nəşr olunmuşdur (Muradov, 2019:1527).

Azərbaycanın respublikasının banisi İstanbula yerləşdikdən sonra öz milli mübarizəsini bilavasitə “Yeni Qafqaz” məcmuəsi ilə gündəmdə saxlamağa çalışmış, Azərbaycan uğrunda işğalçılara öz sözünü söyləməyə səy etmişdir. Belə ki, o, “Yeni Qafqaz” məcmuəsi haqqında fikirlərini bu şəkildə ifadə etmişdir: “əsir Türk illərinin böyük ələmlərinə tərcüman olan; Azərbaycan istiqlalı uğrundakı şanlı cihadın böyük məqsədlərini tərviç və müdafiə edən;

Qafqazlıların rus istilasına, qızıl vəhşətə qarşı müttəhid bir cəbhə təşkil etmələrini istəyən; başda qəhrəman Türkiyə olduğu halda, şərq millətlərindəki böyük inqilab hərəkətlərini alqışlayan; İslam və Türk dünyasındakı qızıl Rusiya istila və zülmünə qarşı bayraq açmış ilk və yeganə qəzetdir" (Dördüncü yıl, 1926:1).

M.Ə.Rəsulzadə "Yeni Qafqaz" məcmuəsinin nəşrində bir neçə istiqaməti əsas məqsəd kimi önəmsəmişdir. Bunlardan birincisi, milliyyətçilik, radikallıq, demokratiya; ikincisi, türkçülük, yəni, türklərin mədəniyyətini, mədəni əlaqələrini, mənəvi vəhdətini və istiqlaliyyətini önə çəkmək; üçüncüsü, türk davasının, habelə Azərbaycan cəbhəsini müdafiə edən azərbaycanlıların azadlıq fikirlərini yaymaq; dördüncüsü, Qafqazda yaşayan millətlərin Rusiya əsarətindən qurtulması və gələcəkdə Rusiya işğalına qarşı çıxa bilmək üçün Qafqazın qarşılıqlı anlaşma, tərəf müqabili şəklində birləşməsi; beşincisi, təkcə Azərbaycançılıq, türkçülük və qafqazçılıq milli azadlıq mübarizəsi ilə məhdudlaşmamaq, eyni zamanda Şərqin öz azadlığı uğrunda mübarizəyə qalxmasını təmin edəcək formada səslənmək; altıncısı, xüsusilə də Rusiya imperializminə qarşı durmadan mübarizə aparmaq olmuşdur. O, Rus çarizmi kimi bolşevizmi də bütün Türk dünyası və Qafqaz üçün bir təhlükə və bir düşmən hesab etmişdir (Üçüncü yıl başında, 1924:1).

"Yeni Qafqaz" məcmuəsi özündən sonra çap edilən bütün milli nəşrlərin ilki olmuş, istər dost, istərsə də düşmən tərəfindən böyük maraqla qarşılanmışdır ("Yeni Kafkasya", 1952:12). Sözsüz ki, "Yeni Qafqaz" məcmuəsinin yayınlanmasından ən çox narahat olan işğalçı Rusiya dövləti idi. Belə ki, "Yeni Qafqaz" qəzetlərinin yayılması Rusiyanın "xoşuna gəlməməyə" başlayır və zaman-zaman həmin məcmuənin bağlanmasına dair müraciətlər etmişdir. Həmin müraciətdən biri 24 yanvar tarixli "Kommunist" qəzetində "Yeni Qafqaz" qəzetinin bağlanmasına və M.Ə.Rəsulzadənin İstanbuldan sürgün edilməsi belə tələb olunmuşdur. Bununla yanaşı onlar "Yeni Qafqaz"lıları təkcə Rusiyanın, bolşeviklərin düşməni deyil, həm də türk inqilabçılarının düşmənləri kimi görmüşlər ("Darbeli mesele", 1927:2).
Bu və digər düşmən münasibətlərə daha artıq tab gətirməyən "Yeni Qfqaz" məcmuəsi öz nəşrini məcburən 1927-ci il oktyabr ayının 1-də dayandırmalı olmuşdur. Buna baxmayaraq M.Ə.Rəsulzadə öz azadlıq fikirlərindən, mübarizəsindən bir an da olsa belə əl çəkməmiş və Azərbaycan, o cümlədən Qafqaz üçün milli döyüşünü digər nəşr və əsərləri ilə davam etdirmişdir.

"Yeni Qafqaz" məcmuəsinin əsas ideya istiqamətlərini nəzərə alaraq qeyd etmək lazımdır ki, burada çap olunan M.Ə.Rəsulzadənin bütün fikri və ideyaları olduqca böyük bir önəm daşımış və bu gün də bəzi fikirləri öz aktuallığını saxlamaqdadır. Bunlardan biri, "Yeni

Qafqaz" məcmuəsində ara sıra ölməz şəxsiyyətin toxunduğu və sözsüz bəzi müsəlmanlar arasında mövcud olan sünni və şiə məsələsi olmuşdur (Azeri [Mehmet Emin Resulzade], 1340:124). O, İslam aləmində bir çox qarşıdurmaya gətirib çıxaran, bəzən qan düşmənçiliyinə belə səbəb ola bilən sünni və şiə məsələsini rədd etməyə, müsəlmanları vahid şəkildə birləşməyə çağırmışdır. Azərbaycan respublikasının ilk qurucusu insanları xurafatdan çəkinməyə, düzgün istiqamət seçməyə, doğru yola yönəlməyə və sünni və şiə ixtilafını bir kənara atıb ictimai fikirlər altında birləşməyə sövq etmişdir.

M.Ə.Rəsulzadəyə görə, bütün insanları, toplumları və qrupları bir ideya altında birləşdirə biləcək yollardan birinin mətbuatın olmasıdır. Bu barədə o, öz fikirlərini belə izhar etmişdir: “Danışdığı dildə ilk qəzetə malik olan cəmiyyət, bir milliyyət ikən millət olmağa başlamış demədir. Həyatında mətbuata malik olan bir xalq isə təəssüs etmiş bir millətdir” (“Azeri matbuatının şanlı hatırası”, 1926: 206).

Böyük şəxsiyyət “Yeni Qafqaz” məcmuəsində bəzən də öz fikirlərini açıq-aşkaranə şəkildə deyil, sətiraltı fikirlərlə çatdırmağa çalışmışdır. Buna nümunə olaraq, “...Qafqazın hürriyyətini təmin edən şey rus soldatının geyimindəki yenilik olmaz...” (Resulzade Mehmet Emin, 2017: 42); “...Çarizm zamanındakı əski Qafqaz idarəsi indiki Qafqaz idarəsi arasında, Qafqaz millətlərinin həqiqi hürriyyət və hakimiyyətləri nöqteyi-nəzərindən qətiyyən bir fərq qalmamışdır...”(Resulzade Mehmet Emin, 2017: 44); “...Dəfələrlə dedik, yenə deyirik: Çar Rusiyasının “mən” və “təhdidat” sistemi ilə yapamadığı Bolşevik Rusiyası “müsadə” və “tevsi” üsulu ilə icra edəcəkdir...” (Resulzade Mehmet Emin, 2017: 50). Nümunədən göründüyü kimi M.Ə.Rəsulzadə Çar Rusiyasına qarşı, Çar Rusiyası haqqındakı fikirlərini bəzən açıq, bəzən də dolayısı yolla ifadə etmişdir. Məhz, onun bu kimi bəyanlarına Çar Rusiyası da sakit qala bilməmiş, öz etirazını bildirmiş, bəzən də həmin fikirlərə qarşı daha sərt münasibət göstərmişdir.

Azərbaycanın Rusiya tərəfindən işğalı ilə heç cür razılaşmayan M.Ə.Rəsulzadə işğalçıların və istismarçıların iç üzünü öz yazılarında açmağa və oxucu kütləsinə çatdırmağa çalışmışdır. Dahi şəxsiyyətin fikrinə görə, Rusiyaya təkcə Qafqaza sahib olmaq deyil, bununla yanaşı həmin regionun ən böyük dövləti, qara sərvətə - neftə yiyələnməkdir. Bu barədə o, “Yeni Qafqaz” məcmuəsində “...Tarixi qədimin təqdis elədiyi atəşə mümasil əsri-hazırın ila elədiyi şey petroldur...” (Resulzade Mehmet Emin, 2017: 42) beyə fikrini açıq şəkildə bəyan etmişdir. Ürəyi hər daim öz vətəni və milləti üçün çırpınan dövlət qurucusu Azərbaycana qarşı heç cür biganə qalmamış, öz narahatçılıqlarını “Yeni Qafqaz” qəzetinin səhifələrində bəyan etmişdir: “...Bir xalqın milliyyətini tədqiq edərkən danışdığı lisanın əhəmiyyəti varsa, bu etibarla Azərilər

Türkdür..." (Resulzade Mehmet Emin, 2017: 54); "Dədə Qorqudun dili bu gün İrəvan ilə Təbrizdə danışılan dildən pək fərqli deyildir..." (Resulzade Mehmet Emin, 2017: 55); "Bolşeviklərə görə milliyyət keçici bir dövrdür. Millətpərvərlik tervic edilməz, ona yalnız təhəmmül olunur..."( Resulzade Mehmet Emin, 2017: 58). Burada sadalanan deyimlərdən aydın olur ki, M.Ə.Rəsulzadə öz dili, milləti, dövləti üçün nə qədər çırpınmış, İrəvan və Təbriz, bütövlükdə Cənubi Azərbaycanda yaşayan həmvətənləri üçün də bir o qədər ürəyi döyünmüş, onların müqəddəratına qarşı biganə qalmamışdır.

"Bir kərə yüksələn bayraq bir daha enməz!" şüarı ilə yaşamış, Azərbaycanın yenidən öz müstəqilliyinə qovuşacağı günü ümidlə gözləmiş M.Ə.Rəsulzadənin düşüncələri, mübarizəsi sözsüz ki, məqalədə göstərilən nümunələrlə məhdudlaşmamışdır. O, öz sözlərini ona qarşı çıxanlara, düşmən mövqedə olanlara baxmayaraq oxucularına çatdırmışdır. Yeni formatda hazırlanan "Yeni Qafqaz" məcmuəsi bu gün də həmin sətirləri ilə öz aktuallığını sanki saxlamış, vahid Azərbaycan uğrunda mübarizəsini aparmaqdadır.

Bir çoxlarına örnək olan, nümunə olan "Yeni Qafqaz" məcmuəsi uzun və məşəqqətli yollardan keçmiş, ona qarşı müxtəlif etirazlarla qarşılaşmalı olmuş, lakin bütün qarşıdurmalara müəyyən qədər sinə gəlmişdir. "Yeni Qafqaz" məcmuəsi bir sözlə M.Ə.Rəsulzadənin ideya və fikirlərinin döyüş meydanındakı qılınc və döyüş sursatı olmuşdur.

## 2. M.Ə.Rəsulzadənin "İstiqlal Məfkurəsi və Gənclik" Adlı Esəri

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, "Yeni Qafqaz" məcmuəsinin nəşri ilə öz fəaliyyətini məhdudlaşdırmamış, bununla yanaşı böyük şəxsiyyət elə 1925-ci ildə ilk dəfə olaraq "İstiqlal məfkurəsi və gənclik" (Əsbabı xidmətinizə aid bir mütaliə) adlı "Azəri gənclər birliyi"ndə həyata keçirilən görüşlərin, burada söylənilən fikirləri kitab halına salaraq çap etdirmişdir. 29 səhifədən ibarət olan həmin əsərdə Rusiyada yaşayan rus məhkumluğuna tabe olanalara muxtariyyət və istiqlal üçün verdikləri mübarizələr və keçirdikləri görüşlər haqqında məlumat verilmişdir (Şimşir, 2012: 64; Yaqublu 2013: 178). Həmin əsərdə, xüsusilə, Litva, Estoniya və Finlandiyanın apardıqları azadlıq hərəkatlarına dair informasiyanın M.Ə.Rəsulzadəyə çatdırılması da göstərilmişdir. Əsərin son hissəsində demokratik dövlətin banisi Azərbaycan gəncliyinə səslənərək "düşmənini tanı, milli intibahını yüksəlt" sözlərini ifadə etməklə bitirmişdir.

## 3. M.Ə.Rəsulzadənin "Rusiyada Siyasi Vəziyyət" Adlı Esəri

M.Ə.Rəsulzadə eyni dövrdə, 1926-cı ildə "Rusiyada siyasi vəziyyət" adlı 45 səhifədən ibarət digər bir əsərini də nəşr etmişdir (Şimşir, 2012: 65; Yaqublu 2013: 178). Bu əsərində o, Rusiyada iqtisadi böhran, ictimai-siyasi vəziyyəti haqqında məlumat verdikdən sonra

Kommunist partiyasında baş qaldıran ixtilaflardan söhbət açmışdır. Əsərdə millətlərarası vəziyyət, Rusiyanın daxilində olan şərtlərlə, xüsusilə də işçilərin nöqteyi-nəzərindən baxan M.Ə.Rəsulzadə həm dünya, həm də rus idarəçilərinin hadisələrə olan münasibətini dəyərləndirmişdir. Əsər Rusiyada meydana gələn daxili, xarici, maddi və mənəvi sıxıntı və böhranlar qarşısındakı vəzifələrimiz adlı hissə ilə bitmişdir. Əsərdə dahi şəxsiyyətin irəli çəkdiyi başlıca məsələ "...bizcə həyatın çox böhranlı bir dövrünə girən Sovet hökumətinin artıq sükut edib edəməyəcyi deyil, hansı bir şəkildə sükut edəcəyindən bəhs edilməlidir" fikrini ortaya qoyaraq bunun həll edilməsi yolunu tapmaq olmuşdur. Əsərdə ən çox diqqət çəkən deyimlərdən iri də M.Ə.Rəsulzadənin söylədiyi "...Rusiya siyasi cəhətdən hansı vəziyyətdə olursa olsun, ən önəmli olan Türkiyə Cümhuriyyətinin Türk Dünyasına qarşı laqeyd qalmammasıdır" mesajını verməsidir.

**Sonuç**

Göründüyü kimi uzun və əziyyətli yollar qət edərək qardaş və can Türkiyəyə gəlib çatan M.Ə.Rəsulzadə bu torpağa ayaq basdığından bəri öz doğma yurdunun işğalçılarına qarşı hansı şəkildə mübarizə aparacağını hər daim düşünmüşdür. O, eyni zamanda türk millətlərinin ideyalarını, düşüncələrini bütün dünyaya yaymaq üçün ən gözəl vasitə "Yen Qafqaz" məcmuəsini gün üzünə çıxarmaq olduğunu özünə yeni bir mübarizə yolu seçmişdir.

Böyük dahi "Yeni Qafqaz" məcmuəsində bəzən tam çılpaqlığı ilə açıq şəkildə ifadə edə bilmədiyi fikirlərini eyni dönəmdə nəşr etdirdiyi "İstiqlal məfkurəsi və gənclik" və "Rusiyada siyasi vəziyyət" adlı əsərlərində aşkaranə söyləmişdir. "Yeni Qafqaz" məcmuəsində bəzən sətiraltı cümlələr istifadə etməyə məcbur qaldığı halda əsas amalını, məqsədini adları qeyd olunan əsərlərində aydın şəkildə oxuculara çatdırmışdır. M.Ə.Rəsulzadə son nəfəsinədək öz ideyalarından, seçdiyi yoldan geri dönməmiş, "Yeni Qafqaz" qəzetinin fəaliyyətini dayandırmaq məcburiyyətində qalsa belə, 1928-ci il fevral ayının 1-dən etibarən fəaliyyətini yeni "Azəri Türk" məcmuəsi ilə davam etdirmişdir.

**Kaynakça**

"Azeri matbuatının şanlı hatırası". Yeni Kafkasya Yazıları. (1926). S:9. 71-72.

Azeri [Mehmet Emin Resulzade]. "Hacı Zeynelabidin". Yeni Kafkasya yazıları. (1340). S:2. 122-126.

Caferoğlu A. (1940). Azerbaycan. İstanbul.

"Darbeli mesele" Yeni Kafkasya Mecmuası. (17 Şubat 1927). Y.4.S:10.

"Dördüncü yıl" Yeni Kafkasya Mecmuası. (1 Ekim 1926). Y.4.S:1.

Ebülhesenli E. (Ağustos 1991). Mehmet Emin Resulzade. Türk dünyası tarih dergisi. S:56

"İstanbul'da Resulzade Emin Bey ihtilafı". Azerbaycan dergisi.Y.7.S:12(24) (İldeniz Kurtulan'ın konuşması). S:13.

Muradov N. (2019). Mehmet Emin Resulzade'nin "İnsanlara hürriyet, milletlere istiklal!" söyleminin analiz denemesi. Ululararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, 8(3). S:1524-1547.

Resulzade Mehmet Emin. (1926). Rusiyada siyasi vaziyet. İstanbul.

Resulzade M.E. (1934). Şefibeycilik. İstanbul.

Resulzade Mehmet Emin (2017). Yeni Kafkasya yazıları (1923-1927). (Yayına hazırlayanlar: Y. Akpınar, S. Türkyılmaz ve Y. Özkaya), Ankara: Türk Tarih Kurumu.

Şimşir S. (2012). Hayatı ve şahsiyyeti Mehmet Emin Resulzade. İstanbul.

Taymas A. (1 Mayıs 1955). Mehmet Emin Resulzade. Toprak Dergisi. S:6

"Üçüncü yıl başında" Yeni Kafkasya Mecmuası. (3 Teşrin-i evvel 1924). S:1

Yaqublu N. (1991). Məmməd Əmin Rəsulzadə. Bakı.

Yaqublu N. (2013). Məmməd Əmin Rəsulzadə ensiklopediyası. Bakı.

"Yeni Kafkasya" Azerbaycan dergisi. (1 Eylül 1952). Y.1.S:6.

*Araştırma Makalesi/Research Article*

# BENGİ

**Dünya Yörük-Türkmen Araştırmaları Dergisi**

*BENGİ World Journal of Yörük-Türkmen Studies*

*https://dergipark.org.tr/tr/pub/bengi*

**ISSN: 2717-6584**

## Məhəmməd Əmin Rəsulzadə - "Milli Dirilik" Məfkurəsindən Milli Cümhuriyyətə Doğru

*Mehmet Emin Resulzade – "Millî Diriliş" İdeolojisinden Milli Cumhuriyet'e Doğru*

*M.A. Rasulzadeh - From the Ideology of "National Vitality" to the National Republic*

**doi**: 10.58646/bengi. 1465982

**Geliş/Received:** 05 Nisan 2024 **Kabul/Accepted:** 01 Mayıs 2024

**Firdovsiyye Ahmedova***

**Özet**

Azerbaycan milli hareketinin ideologu, Müsavat Partisi Genel Başkanı, Azerbaycan Cumhuriyeti'nin ilk devlet başkanı ve aktif yazar Mehmet Emin Resulzade , gençlik yıllarından itibaren toplumsal anlamda örgütlenme eğilimi bir siyasətçi olmuş, yaşamının sonuna kadar örgütlü mücadeleyi tercih etmiştir. Zamanın ve koşulların olanaklarını dikkate alarak siyasal ve toplumsal içerikli kurumların kurucusu olarak mücadele etmiştir. Aktif bir siyasetçi hayatı yaşayan M.E. Resulzade Cumhuriyet yıkıldıktan sonra göçmen olarak yaşamaya devam etmiştir. Muhacir hayatında "kişiler geçicidir, ideolojiler ebedidir" tezinden yola çıkarak milliyetçilik inancına sadık kalmış, siyasi olarak göçmenleri bağımsızlık ideolojisine sadık olmaya çağırmıştır. Azerbaycan'ın milli devletinin kuruluşu , tam bağımsız Azerbaycan fikriyle ile yaşamıştır.

Mehmet Emin Resulzade yaşadığı çevreden, milli-kültürel ideoloji mirasından yararlanmış, son derece zeki, profesyonel aydınlardan oluşan bir nesille birlikte bir mücadele yürüttü ve hükümeti kurdu. Sovyet döneminin sınırlı bilimsel ve siyasi çevreleri için Mehmet

* **Sorumlu Yazar/Corresponding author**: Azerbaycan Devlet İdarecilik Akademisi, e-posta: fahmedova@rambler.ru., Orcid: 0000-0002-1189-2601.

**Atıf/Citation:** Ahmedova, F. (2024). Məhəmməd Əmin Rəsulzadə - "Milli Dirilik" Məfkurəsindən Milli Cümhuriyyətə Doğru. BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi. 2024 (2), 318-337.

Emin Resulzade ismi ideolojiktir ve anti-komünist cephenin temsilcisi olarak kabul edilir. "Bir kere yükselen bayrak bir daha inmez" diyerek Demokratik Azerbaycan Cumhuriyeti'nin bayrağını göndere çeken Mehmet Emin Resulzade milli-demokratik hareket fikrinin sembolüdür .

**Anahtar Kelimeler**: Azerbaycan, Resulzade, İdeolog, Milli Hareket, Müsavat, Devletçilik.

**Abstract**

M.A. Rasulzadeh, who was the ideologist of the Azerbaijani national movement, chairman of the “Musavat” party, successive defender of the idea of local-national autonomy, the first head of state of the Azerbaijan Republic and an active writer, was a politician with a tendency of organization in a social sense, and until the end of his life, he preferred to fight in the form of an organization. Taking into account the circumstances, he struggled as the founder of political and social institutions. His positive socio-political mood was based on real conditions - on his analyzes with real judgment.

After the fall of the Azerbaijan Democratic Republic, M.A. Rasulzadeh stayed true to the belief of national statehood during his life of emigrant. Based on the thesis of “persons are temporary, ideology is eternal”, he called the political emigrants to be loyal to the ideology of independence. He lived with the idea of restoration of the national statehood of Azerbaijan and the state to be whole. M.A. Rasulzadeh took advantage of the life he lived, the heritage of the national-cultural ideologists. He moved ahead together with a generation of intelligentsia and professional intellectuals, He established our statehood. For the limited scientific and political circles of the Soviet era, M.A. Rasulzadeh was considered the representative of the anti-communist front. When the flag of the Azerbaijan Republic was raised again, M.A. Rasulzadeh, the author of the words “The flag once raised shall never fall!”, became the symbol of the idea of the national-democratic movement.

**Keywords**: Rasulzadeh, Ideologist, National Movement, Musavat, Azerbaijan, Statehood.

**Giriş**

Azərbaycan milli hərəkatının ideoloji, nəzəri mərhələsi milli məfkurənin formalaşması uğrunda siyasi maarifçilikdən keçmişdir. Maarifçilik, xeyriyyəçilik yolu ilə müsəlmanların tərəqqiyə nail olacağına inanan, publisist yazılarında elmi, hümməti, qeyrəti təbliğ edən 21 yaşlı Rəsulzadə 1905-ci ildə «Hümmət» qəzetində Azərbaycan gəncliyinin siyasi mənsubiyyət mənzərəsinin təsnifatını vermişdir: «... biz cavanların biri millətpərəst, o biri demokrat, üçüncüsü əqidəpərəst, dördüncüsü cədidpərəst olub da, bu cür dəstə-dəstə olmaqda, hərəmiz özünə məxsus bir yol götürüb, müəyyən bir məslək ilə getməkdən hamımız tək-tək tələf olluq Hərəmiz bir küncdə bir xüsusi cəmiyyət qayırıb da müxtəlif yollar ilə getməkdənsə, birləşməli, öz fikr və fellərimizdən bir-birimizi hali etməliyiz. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yarar məslək üzrə olub, müttəhidül-qövl vəl fel iş görək» (15, I cild, Bakı, 1992: 18-19). Milli hərəkatın «millət» anlayışının dəyərləndirilməsindən keçən mərhələsində Azərbaycan milli kimliyini açıqlayan məqalələri ilə M.Rəsulzadə milli hərəkatın məqsədyönlüyünə gətirən yolun mühüm şərtlərini göstərmişdir. Azərbaycana dönəndən sonra «Diriliklərin ən qiymətlisi də milli dirilikdir» deyərək «Milli dirilik» mövzusunda silsilə məqalələr yazmışdır. Birinci dünya müharibəsinin yenicə başladığı günlərdə 7 hissədən ibarət məqaləsi ideoloji, nəzəri və əməli əhəmiyyətə malikdir, " millətin tərifində dini birliyi deyil, dil və mədəniyyət birliyini önə çəkir, milli istiqlal ideyalarını geniş təbliğ edir" (2: 307). Hələ 1914-cü ilin oktyabrın başlanğıcında yazırdı: «Milli istiqlal, əlalxüsus, millətlərə xüsusiyyətlərinin mühafizəsini təmin edən istiqlal daima bəşəriyyətə saheyi-mədəniyyətdə yeni və əsli bir taqım ibdalar, ixtiralar nəvidindədir ki, mədəniyyəti-bəşəriyyə dediyimiz şey də bu bədaət və ixtiraların məcmuindən ibarət bir yekundur» (15, 2-ci cild: 465).

Azərbaycan Cumhuriyyətindən 4 il əvvəl cəmiyyətə millət kəlməsinin mənasını açıqlayan, milli vicdandan, milli idealdan, milli dildən, milli tarixdən, milli mədəniyyətdən bəhs edən Rəsulzadə milli hərəkatın ideoloji zəminini hazırlayırdı. Həmin dövrdə, həm də müstəbid rejim devrilənədək Rəsulzadə «Müsəlman mətbuatı nümayəndəsi» kimi millət davasını aparırdı. Siyasi publisistikası əsasən maarifçilik məzmunundan irəli gedən tələblərlə çıxış etmirdi.

Rusiyada Fevral inqilabından 2 il əvvəl «Yəhudi istiqlalı» məqaləsində «Millət ölmüyor. Milli ideal, milli istiqlal fikri daima yaşıyor» qənaətilə "milli ruhun ölməz olduğu" mesajını verirdi. Amma milli ruhu diriltmək üçün mətbuat imkanlarını səfərbər etmişdi. 1915-ci il oktyabrın 1-də «Qurtuluş» məcmuəsinin nəşrini alqışlamış, bir gün sonra isə «Türkləşmək,

islamlaşmaq və müasirləşmək" devizi ilə təsis olunan «Açıq söz» qəzetinin məramını şərh etmişdir.

Azərbaycan milli hərəkatının siyasi tribunasına çevrilən «Açıq söz» qəzeti eyni zamanda dünyada və regionda baş verən hadisələrin cəmiyyət üçün yalnız informatoru deyil, ətraflı şərhçisi idi.

Millətinin tərəqqisi üçün mübarizə aparan Rəsulzadə heç zaman irqçi millətçi olmamışdır. «Milliyyət və bəşəriyyət» məqaləsində «Milli icad qüvvəsi hər bir millətin səlahiyyəti və sənəti deməkdir… Milli icad və yaradışın ən yüksək göstərişi olan dahi həmişə millidir. Fəqət onun icad etdiyi şeylər yalnız kəndi millətinə məxsus olmayıb, bütün bəşəriyyənindir də» (15, 3-cü cild: 211). Milliyyət və dövlət anlayışlarına aydınlıq gətirərək yazmışdır: «…Milliyyət dövlətdən çox böyükdür. Hətta demək olar ki, milliyyət dövlətdən daha dərin və şümulludur… dövlət millətdən daha geniş, daha vüsətlidir (15, 3-cü cild: 212). Bu düşüncələrin yer aldığı "Açıq söz" qəzeti Azərbaycan milli hərəkatının koordinasiya mərkəzinə çevrilmişdi və Rusiyada mütləqiyyət devrildikdə "Açıq söz" ailəsi milli hərəkatın önündə oldu. "Açıq söz" qəzeti 1917-ci il martın 5-də "Böyük inqilab" məqaləsi ilə çıxış etdi. "Yaşasın tazə və azad Rusiya! Var olsun millətlərin bərabərligi, birligi!" şüarları ilə bitən bu məqaləsində M.-Ə. Rəsulzadə Rusiya inqilabını "dünyanın ən böyük bir hadisəsi" adlandırdı. Üstündən bir həftə ötməyən bir hadisəyə peşəkar siyasətçinin qətiyyətlə birmənalı qiymət verməsi "inqilabi-kəbir"in mahiyyətini dərk etməkdən də öncə, bu hadisəni nəinki gözləmək, arzulamaq kimi niyyət ifadəsindən də artıq, baş tutmuş akta yönəli illərlə aparılmış aşkar və gizli fəaliyyətdən qaynaqlanırdı. Fevral inqilabının əzəməti Rəsulzadənin bədii, amma son dərəcə sərrast ifadə etdiyi fikirdə təsbit olunmuşdur: "...dünyanın hər tərəfində hürriyyət və səltənəti- milliyyənin düşməni-biimanı olan Rusiya heykəli-istibdadi, bu qanlı "jandarm"ı yıxdılar". Əsas hədəf inqilabın yaratdığı imkandan məqsədyönlü faydalanmaq idi: "Yeni hökuməti yalnız ürəknən, kökündən gələn səmimi sözlərlə qarşılamaq kafi degildir...Rusiyada ruslardan sonra ən böyük bir kütlə təşkil edən Rusiya türk-tatarlığı, Rusiya müsəlmanlığı kəndi mövcudiyyətilə hürriyyətin bəqasına kömək etmək üçün yığışıb ümumi bir ictima qurmalıdır...Hər tərəfin müsəlmanları əvvəla "ağırlığı" tərklə hər tərəfdə hərəkətə gəlmiş olan vətəndaş cərəyanlarına qapılmalı, mövcudiyyətlərini göstərməlidirlər". Göründüyü kimi, Azərbaycan müsəlmanlarının müqəddəratı Rusiya hüdudları daxilində, ümumrusiya demokratik islahatları müstəvisində həllini tapmalı idi.

1917-ci ilin aprelində Bakıda Qafqaz müsəlmanlarının qurultayı çağırıldı. Qurultayın qəbul etdiyi qətnamədə deyilirdi: "Federativ əsaslarla demokratik respublika qurulması Rusiya

dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini təmin edən ən yaxşı forma kimi tanınsın". Qafqaz müsəlmanları qurultayından az sonra, mayın əvvəlində Moskvada Ümumrusiya müsəlmanları qurultayı da "Rusiyanın federativ respublikaya çevrilməsi və müsəlman əhalisi yaşayan vilayətlərə milli-ərazi muxtariyyəti verilməsi haqqında M.Ə.Rəsulzadənin layihəsi əsasında qətnamə qəbul etdi". Bu qurultayı 1905-ci ildə keçirilmiş Rusiya müsəlmanlarının 1-ci qurultayı ilə müqayisə edən M.Ə.Rəsulzadə yazırdı: "Gərək birinci, gərəksə ikinci konqresdə olsun, siyasi müqəddəratın formulunu Azərbaycan mümərssilləri vermişdilər".

Milli, dini, liberal, sosialist yönümlü hərəkatların hər birinin geniş sosial bazaya malik olmaq reallığı Rusiya məkanında ictimai-siyasi situasiyanı mürəkkəbləşdirən faktor sayıla bilər. Respub-lika idarə-üsulunda həmrəy olan qüvvələr Rusiyanın gələcək siyasi taleyini müəyyən edəcək Mü-əssislər Məclisinə seçkilərdə iştirak edərək hər biri ayrılıqda öz niyyətlərinin-proqramlarının gerçəkləşmə perspektivinə inanırdılar. Əksər siyasi par ti ya lar ki mi əsas ideyalarının Rusiya Müəssis-lər Məclisi yolu ilə reallaşacağına ümid bəsləyən "Müsavat" partiyası Müvəqqəti hökumətin yerit-diyi siyasəti izləyir, təhlil edir, nəticə çıxarır və proqnoz verirdi. 1917-ci ilin oktyabrında "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın 1-ci qurultayında partiyanın Mərkəzi Komitəsinin sədri seçilən M.Ə.Rəsulzadə qurultaydakı çıxışında partiyanın mübarizə istiqamətini müəyyən edərək bildirmişdi: "Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal". Partiyanın məramnaməsi Rəsulzadənin milli ideologiyasının, siyasi baxışlarının düsturlaşan müddəalarıdır. "Müsavat" partiyasının tarixi xidmətlərindən bəhs edən Mirzə Bala Məmmədzadənin dəyərləndirdiyi təbii ki, Rəsulzadənin rəhbərlik etdiyi qurumun, əslində isə onun sədrinin xidmətləridir: "Siyasi türkçülüyü ilk dəfə proqram halına salan və əsir türklərin hürriyyət və istiqlallarını tələb edən ilk türk firqəsidir". Rəsulzadənin siyasi-ideoloji baxışlarında milliyyətçilik, istiqlalçılıq, xalqçılıq, cümhuriyyətçilik təməl prinsiplər olmuşdur.

Rusiyanı federasiya idarə formasında görmək istəməyən siyasi qüvvələr ictimai-siyasi proseslərin gedişatından nəticə çıxararaq artıq 1917-ci ilin payızında bu tələblə razılaşmaq məcburiyyətində qaldılar. Qafqaz sosial-demokratları da Qafqaz müsəlman qurultayının federasiya haqqındakı qərarını məqbul bilməmişdilər. 1917-ci ilin iyununda M.Ə.Rəsulzadə «Sosializm həqqində» başlıqlı məqaləsində yazırdı: «Bu məslək tərəfdarlarının mənafei-milliyəmiz üçün zərərli olduğunu kimsə iddia edəməz. Biz milliyyət və millətin muxtariyyətini iləri çəkdikdə bəzilərinin düşündügi kibi sosializmə zidd getmiyoruz. Biləks sosializmi azad millətlərin azad ittifaqından ibarət bildigimizdən geniş surətdə tələqqi etdigimiz

milliyyətpərvərliği, bütün millətlərə bir gözlə baxan sosializmi hazırlaşdıran vasitələrdən birisi və birincisi ədd ediyoruz».(15, 4-cü cild: 243).

"Milli nicatımız ədəmi-mərkəziyyətin qələbəsi, milli hürriyyətimiz və milli qüvvətimiz ədəmi-mərkəziyyətin müzəffəriyyətidir" müddəalı mühazirələr oxuyan Rəsulzadə (15, 4-cü cild: 359) Fəhlə deputatları Sovetinə seçkilərdə əsasən «Türk Ədəmi-Mərkəziyyət firqəsi «Müsavat»ın qələbə qazanmasının səbəblərini 2 cəhətdən şərtləndirmişdir: «Çünki müsəlman əmələsi əksəriyyətdədir. Çünki bu əksəriyyəti təşkil edən müsəlman və türk əmələsi «Müsavat»a etibar ediyor. Ancaq ona inanıyor». (15, 4-cü cild: 374) Digər tərəfdən, Rəsulzadə bolşevikləri nəzərdə tutaraq yazırdı: «…bəzi firqələrin düşündügi kibi milliyyət fikri füqərayi-kasibəyə, əmələlərə yabançı bir fikir degildir. Demokratiya milliləşiyor. Fəqət bu milliləşmək təəssüb demək degildir». (15, 4-cü cild: 373) Seçkidəki qələbəni «Müsavat» partiyası üçün müsəlman fəhlələrinin təmin etdiyi günlərdə bolşeviklər Petroqradda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuşdular. Məhz həmin günlərdə Qafqaz bolşevikləri «Müsavat»ın münasibətini, tövsiyəsini diqqətə alsaydılar 1918-ci ilin əvvəlindən başlayaraq müsəlman qırğınları baş verməzdi, sovet hakimiyyəti 2 illik məğlubiyyəti ilə barışmalı olmazdı: «Müsəlman əmələsi ilə münaqişəyə degil, müsalihəyə gəlməlidir. «Müsavat» əmələ qisminin ideallarına, iqtisadi və siyasi amallarına xadim bir firqədir. Həqiqi əmələ firqələrilə üz-üzə degil, yan-yana getməgə hazırdır. Qoy füqərayi-kasibə tərəfdarı olan firqələr böyügü müttəfiqlərilə əl-ələ versinlər – demokratiyanın qələbəsi, inqilabın faidəsi bunu iqtiza ediyor». (15, 4-cü cild: 374)

1918-ci ilin yazına qədər «Müsavat» partiyası bolşevik hakimiyyətinə münasibətdə demək olar ki, dəstəkləyici, bəzən də təqdiredici leksikonda bəhs etmişdir: «…oktyabrdan etibarən hökumət başına bolşeviklər keçdi. Bunlar müsəlmanlarla sərbəst vətəndaş dililə danışmaya başlamışlardır. Bolşevik hökumətinin fəaliyyətindən ən artıq gözə çarpanı birinci qədəmdə sülh uğrunda ciddi tədabirə girişmələri və mütarikə elanına müvəffəq olmalarıdır. Bundan əlavə bolşeviklər sosializm proqramına əməl etməgə iqdamla fəhlə və torpaq məsələsinin öz proqramlarıyla müvafiq surətdə həlli, bankların milliləşməsi və sair həqqində dekretlər verdi». (15, 4-cü cild: 334) "Müsavat" partiyasına ciddi önəm verməyən siyasi qüvvələr üzləşdikləri seçki göstəricilərindən nəticə çıxararaq sonrakı fəaliyyətlərində və qüvvələr nisbətini müəyyənləşdirərkən diqqətə aldılar. «Müsavat» partiyasının Bakı Komitəsinin rəsmi açıqlamasına görə «təsisinin əvvəlində bir danə də olsa müsəlman fəhləsinə malik olmayan «Müsavat»ın yarıdan çoxu müsəlmanlar oldu». Yəni, 1917-ci il noyabrın 16-ı üçün «Açıq söz»də yazıldığı kimi «Müsavat» partiyasının yarıdan çoxunu müsəlman fəhlələri

təşkil edirdi. Müsəlman fəhlələrinin «milliyyət fikrinə» bu qədər yaxınlaşması təbii ki, Bakı siyasi mühiti üçün xarakterik olmayan hal idi və ənənəvi siyasi qüvvələri əndişəyə salmaya bilməzdi. Bolşeviklər hərbi-siyasi gücü ilə artıq Bakıda digər siyasi qüvvələri üstələmişdi. Yəqin ki, bütün bu amilləri nəzərə alaraq, «Millətin işini ancaq millət özü görməlidir» şuarı ilə M.-Ə.Rəsulzadə «böyük və işıqlı» bir il adlandırdığı 1917-ci ildən yeni təqvim ilinə keçərkən «Açıq söz»ün 1918-ci il üçün ilk 2 sayında Rusiyanın birillik siyasi tarixinin yığcam təhlilini «1917-ci il» adı ilə dərc etdirdi. İlə yekun yazısını həm də M.-Ə.Rəsulzadənin bolşevik siyasətini təqdir edən son yazılarından saymaq olar. Rusiyanın «siyasi inqilabdan çıxıb sosializm inqilabı dövrünə girdi»yi mərhələdə bolşevik hökumətinin etdiklərini təqdirlə sadalamış, millətlərə "samoopredeleniye" haqqını verdiyini isə konkret nümunələrlə isbatlamışdır. (15, 4-cü cild: 420-422) Müsəlmanlara münasibətdə dəyərləndirmə edərək, «Nikolay və Ümumromanov Xanədanının dövründə Rusiya hökumətini», knyaz Lvov hökumətini, sonra isə Kerenski hökumətini müqayisədə «müsəlmanlara qarşı siyasətin dəyişmədiyini» göstərmiş, bolşevik hökuməti üçün qeyd etmişdir: «Bunlar müsəlmanlarla sərbəst vətəndaş dililə danışmaya başlamışlardır». (15, 4-cü cild: 421) Məhz belə «başlanğıc»dan ümidlənərək «Müsavat» partiyası Bakı Sovetinin hakimiyyətini dəstəkləmiş, təmsilçiliyə və əməkdaşlığa razılıq vermişdi.

M.-Ə.Rəsulzadə Rusiyada gedən prosesləri təhlil edərək artıq 1917-ci il noyabrın axırları üçün tezliklə «Azərbaycan Məclisi-Müəssisanını» gerçəkləşdirməyə çağırırdı. «Rusiyanın keçirməkdə olduğu halını» yalnız «Qiyamət» ifadəsi ilə tərif etməyin mümkünlüyünü yazan Rəsulzadə ölkədə mərkəzi hökumətin olmadığı səbəbindən yubanmadan Azərbaycan muxtariyyətini qurmağı vacib sayırdı: «Bundan səkkiz ay qabaq muxtariyyət siyasi böyük bir fikirdən çıxma şüar idisə, imdi artıq bir zərurətdir». (15, 4-cü cild, s.412) «Millətin işini ancaq millət özü görməlidir» şuarı ilə M.-Ə.Rəsulzadə "Azərbaycan Məclisi-Müəssisanı düşünəlim, milli komitələr konferensiyasının qərarlarını heç durmadan qüvvədən felə götürəlim" deyirdi. Be-lə ki, 1917-ci il noyabrın 9-12-də Bakıda Cənubi Qafqazın müsəlman milli komitələrinin konfran-sı keçirilmiş və Müvəqqəti hökumət tərəfindən bəyan edilmiş millətlərin öz müqəddəratı hüququ-nun həyata keçirilməsi üçün təcili surətdə Qafqaz dağlıları ittifaqının və Cənubi Qafqaz türkləri-nin milli Müəssislər məclisini çağırmaq qərara alınmışdı. Azərbaycan milli siyasi qüvvələrinin bolşevik hakimiyyətinə ümidi Rusiya Məclisi-Müəssisanının qovulması ilə sona yetdi. Üsyan, çevriliş yolu ilə hakimiyyətə gəlmiş, xüsusi seçki üsulu ilə üstünlük əldə etmək vərdişi yaratmış bolşeviklərin, təkliflərini rədd etmiş bir qurumu, özü də ölkənin müqəddəratına qərar verəcək bir təsisatı zorakılıqla ləğv etməsi qeyri-

adi hadisə sayılmamalıydı. «Açıq söz» qəzeti də bu məntiqlə sonrakı gedişat üçün qəti proqnoz vermişdi: «Demokratiya arasında barışıq qeyri-mümkündür. Buna görə də Rusiya yaxın bir zamanda bütün məmləkətcə tanınmış səlahiyyətdar mərkəzi bir hökumətə malik bulunamıyacaqdır… hər vilayət və millət qəti surətdə kəndi Məclisi-Müəssisanını dəvətə başlamalıdır». (15, 4-cü cild: 423-424)

"Müsavat" partiyası M.-Ə.Rəsulzadənin simasında artıq bolşeviklərin Azərbaycan muxtariyyətinin gerçəkləşməsinə razı olacaqlarını güman etmirdi. Bununla belə bolşeviklərlə siyasi polemikada məntiqi sorğu-sual etməyi də lüzumsuz saymırdı: «Əcəba, nərədə qaldı bolşeviklərin bütün dünya qarşısında elədikləri elan ki, «dərəceyi-mədəniyyətlərinə baxmayaraq bütün dünya millətlərinin muxtariyyət və istiqlal həqləri vardır» - dediniz… Qafqasiya millətləri bu vədələrin nəticəsini gözlədilər, müsəlmanlar da gözlədilər. Fəqət nəticədə tamamilə başqa bir şey çıxıyor: Türkiyə Ermənistanı muxtariyyət dekretinə (fərman) nail oluyor. Ermənilər "Daşnaksütyun" firqəsi tərəfindən təyid olunan böyük amallarına yaxınlaşıyorlar. Qafqasiya türklərinə gəlincə, Bakı bolşevikləri diyorlar ki: «siz inqilabçı bir millət olmadığınız üçün heç növlə muxtariyyət alamazsınız. Qoy "Müsavat" firqəsi də bu xüsusda artıq çalışmasın. Çünki Qafqasiya muxtariyyətinə nə Rusiya demokratiyası, nə də Rusiya burjuaziyası razı ola bilər». (15, 4-cü cild: 442) Bu reallığı M.-Ə.Rəsulzadə "Türkiyə Ermənistanı" haqqındakı dekretə işarə edərək siyasi istehza ilə səciyyələndirmişdir: «Fəqət bununla bərabər biz həqliyiz gözləyək başqa bir Lenini ki, o da Qafqasiya müsəlmanlarının muxtariyyətinə aid bir "dekret" (fərman) çıxarsın». (15, 4-cü cild: 442).

Bolşeviklərin «sinifdən kənar» milli həmyerli birləşmələrə qarşı mübarizə devizi əməli olaraq 1918-ci ilin yazında əsasən «müsəlman millətçiliyinə» qarşı mübarizə məzmunu daşıyırdı. Belə «əlahiddə» münasibət səbəbindən M.-Ə.Rəsulzadə 1918-ci il yanvarın 29-da «Açıq söz» qəzetində «Bizim muxtariyyətimiz və Bakı bolşevikləri» məqaləsi ilə çıxış etmək ehtiyacı duymuşdu. Məqaləni bolşevik mətbuatının «hücumuna» cavab hesab etmək olar. Belə ki, M.-Ə.Rəsulzadə özünün Bakı fəhlə və əsgər deputatları Şurasının İcraiyyə Komitəsindəki bir nitqinin «B.Raboçi» qəzetəsinə «Müsavat» firqəsi ilə Müsəlman Milli Komitəsinə hücum üçün bir sərmayə təşkil» etdiyini yazır. (15, 4-cü cild, s.439) Əslində, bu çıxış müsəlman milli hərəkatına münasibətdə formalaşmış bolşevik fikrinin ifadəsi üçün növbəti imkan kimi istifadə olunmuşdu.

Müsəlmanların milli qoşun yaratmaq istəyi belə sosialistlər tərəfindən məhz milli-dini ayrı-seçkilik düşüncəsi ilə qiymətləndirilmişdir: "İcraiyyə Komitəsinin qəzetəsi olan "İzvestiya" milli qoşun əleyhində yazarkən şayani-etina bir cümlə işlətmişdi. «Hətta türklər,

onlar da milli qoşun fikrinə düşdülər», nə qədər ki, "bu hətta türklər" zeyniyyəti İcra Komitəsində hökmfərmadır – quberniyadakı iğtişaşları yatırmaq üçün alınacaq tədbirlərə lazım olan ümumi dil tapmaq çətin olacaq». (15, 4-cü cild: 440) «Ermənilərlə gürcülər milli qoşun düzəltdikdə heç olmazsa dəlilləri var ki, Qafqasiya cəbhəsini müdafiə edəcəklərdir. Sizdən ötrü ki, böylə bir bəhanə yoxdur» müddəasına cavabında M.-Ə.Rəsulzadə müsəlman quberniyalarının iğtişaş içində olduğunu göstərərək bildirmişdir: «Müsəlman polklarının təsisi müsəlman topraqlarındakı iğtişaşın qabağını saxlamaq üçün təşkil olunuyor. Əgər siz təmin edə bilsəniz ki, əlinizdəki beynəlmiləl qüvvətlərlə bu asayişi təmin edərsəniz, o zaman varsın müsəlmanlar qüvvə tədarük etməsinlər». (15, 4-cü cild, s.440) Belə münasibətin qarşılığında M.-Ə.Rəsulzadə «durbin siyasilər» adlandırdığı bolşevikləri nəyəsə inandırmağın mümkün olmadığını yazırdı: «Görünüyor ki, bu durbin siyasiləri «Müsavat»ın inqilabdan yalnız muxtariyyət degil, topraqların bilaəvəz kəndlilərə keçməsi, səkkiz saatlik iş günü və əmələlərin dövlət hesabına sığorta olunması və ələlümum bütün həyati-siyasiyyə və ictimaiyyənin demokratik əsaslar üzərinə qurulmasını gözləməkdə olduğuna da heç bir vəchlə inandırmaq olamaz». (15, 4-cü cild: 441)

«Müsavat» partiyası «Azərbaycan muxtariyyəti»ni gerçəkləşdirmək əzmindən geri çəkilmək fikrində deyildi, hətta bu muxtariyyət xarabazarlar qiymətinə alınsa belə: «Bəlkə də müqəddərdir ki, biz muxtariyyətimizi xarabəzarlar qiymətinə alalım. Müqəddərati – tarixiyyədən əlbəttə ki, boyun qaçırmaq olmaz». (15, 4-cü cild: 442) Rusiyada baş verən proseslər, Qafqazda, xüsusən də Bakıda bolşeviklərin davranışı müsəlman milli siyasətçilərini təşvişə salırdı, yeni hakimiyyətin öz vədlərinə sadiq qalmamaları, bəyanatları ilə əməlləri arasında ziddiyyətləri müsavatçılara yenidən əsarət altına düşmək təhlükəsini yaşadırdı: «Rusiya millətlərinin həqqi-muxtariyyətləri o demək degildir ki, Rusiya millətləri velikorus dvoryanlarının keyfindən qurtarıb velikorus əmələlərinin keyfinə tabe olsunlar». (15, 4-cü cild, s.442) «Azərbaycan muxtariyyə-ti»nə qənim kəsilən qüvvələrdən bir qismi bu ideyanın İran Azərbaycanına şamil olunduğunu, İra-nın daxili işlərinə qarışmaq kimi qiymətləndirənlər idi. Onlar «Azərbaycan muxtariyyəti»nə İran Azərbaycanının ilhaqı kimi baxırdılar. Məsələyə geniş aydınlıq gətirən Rəsulzadə Azərbaycanın hər iki hissəsinin vahid milli mənşəyinə toxunmuş və siyasi müqayisə aparmışdır. 1917-ci il de-kabrın sonu üçün Rəsulzadənin mövqeyi belə idi: «Bu gün Azərbaycan muxtariyyətindən bəhs olunuyorsa həmən İrəvan, Gəncə və Bakü quberniyaları ilə sair Zaqafqasiya uyezd və mahalların-dan bəhs olunuyor deməkdir» (1, 22 dekabr, N635).

Bolşeviklərin düşüncəsinə görə, «Müsavat» partiyasının muxtariyyət məqsədli siyasəti və fəaliyyəti Qafqazı xarabazara döndərə bilərdi, lakin «bütün Qafqasiya demokratiyasının əlbirliğilə bu bədbəxtliği saxlamaq olarmış. Nəzərə alınsa ki, bolşeviklər müsəlman əhalini «daha Rusiya inqilabına təmas etməmiş» hesab edirdilər, onda Rəsulzadənin qənaəti məntiqidir ki, «Qafqasiya demokratiyasının əlbirligində» müsəlman hissəsi «çox az təsəvvür olunuyor»du. Tezliklə hər iki tərəfin proqnozu özünü doğrultdu: müsəlman torpaqları xarabazarlığa çevrildi, amma bolşeviklərin rəhbərliyi altında «Qafqaz demokratiyasının əlbirliyilə» və bu koalisiyada müsəlman demokratiyasının çox cüzi bir hissəsi iştirak edirdi. Beləliklə, 1918-ci ilin fevralı üçün müsavatçılarla bolşeviklər arasında yollar nəinki ayrılmış, artıq qarşı-qarşıya gəlmişdi. Bu siyasi qüvvələrin məramnamə baxımından uyğunluğu olsa da, əməli baxımdan yolları heç üst-üstə düşmədi. Cəbhənin bir tərəfində məhəlli müxtariyyət istəyən müsavatçılar (Türk ədəmi-mərkəziyyətçilər), digər tərəfində M.-Ə.Rəsulzadənin «bizim bolşeviklər» adlandırdığı Bakı bolşevikləri görünsə də, əslində Mərkəzi bolşevik hakimiyyəti, yəni Sovet Rusiyası dayanmışdı.

Bolşeviklərin yalnız kadetlərlə deyil, daşnaklarla, menşeviklərlə birgə «siyasi blok» hasil etmələrinin səbəbini axtaran «Demokrat» imzalı M.-Ə.Rəsulzadə «Qafqaz demokratiyasının», xüsusən də «Bakı demokratiyasının» gözünü açmağa çalışırdı. Kadet, daşnak, menşeviklərin öz mövqelərindən əl çəkməyəcəkləri yəqinliyilə «siyasi bloku» formalaşdıran amili bolşeviklərin onlara güzəştə getməsi ilə izah edirdi. Qafqaz demokratiyasının mənafeyinə xəyanət kimi qiymətləndirilən bu addımı «mərkəzi bolşevik hökuməti»nin eyni siyasət xəttinə əməl edilməsi kimi dəyərləndirirdi: «Kəzalık (eləcə - tərtibçi) mərkəzi bolşevik hökuməti Türkiyə ilə sülh imza etmiş olduğu halda, «müharibəyə dəvam!» şüarilə milyonlarla demokratiya təbəqatını qanlara boğmuş kadetlərə quyruq olub yeni başdan kim bilir daha nə qədər qan və qurban meydanları açmaq üçün tədarüklər görüyorlar». (15, 4-cü cild: 452)

Rusiya Müəssislər Məclisi qovulduqdan sonra yaranmış Zaqafqaziya Seymində təmsil olu-nan Azərbaycan siyasi qüvvələri içərisində ən çox yeri müsavatçılar tuturdu. Seymdəki Azərbay-can partiyalarının ümumi razılığına əsasən «Müsavat» fraksiyası və demokratik bitərəflər qrupu-nun rəyasət heyəti eyni zamanda Azərbaycan fraksiyalarının ümumi rəyasət heyəti funksiyasını yerinə yetirməyə başladı (8, 141-142). Rəyasət heyətinin sədri M.Ə.Rəsulzadə, müavinləri isə M.Y.Cəfərov və N.Yusifbəyli idi.

Rəsulzadənin Seymdəki xidməti həm də diplomatik fəaliyyəti ilə əlamətdardır. Osmanlı dövləti ilə münasibətlərin nizamlanmasında fəal rol oynamışdır. Bu zaman nə Osmanlı

dövlətinin mənafeyinin zərbə almasına, nə də Cənubi Qafqazın mənafeyinin tapdanmasına yol verməmək is-tiqamətində iş aparmışdır. Qars, Batum, Ərdahanla bağlı iddiada Türkiyəni Ərzincan barışığının pozulmasında günahlandırmağı təklif edənlərə qarşı çıxan Rəsulzadə, eyni zamanda bildirirdi ki, Rusiyadan və Türkiyədən olan təhlükə bizi daha sıx birləşdirməlidir. Cənubi Qafqazın müstəqilli-yi və birliyi naminə isə Azərbaycanın maraqlarını güzəştə getmək mövqeyini qəbul etmirdi. Əksi-nə, 1918-ci ilin yazı üçün yaranmış situasiyada Cənubi Qafqazın müstəqilliyinin elan edilməsini Azərbaycanın mənafeyinə məqbul akt kimi real çıxış yolu hesab edirdi: «Zaqafqaziya müstəqil ol-malıdır. Bu müstəqillik zərurətə çevrilməlidir». Bakıda kütləvi müsəlman qırğınlarından sonra təşkil edilmiş sovet hakimiyyəti ilə, sovet Rusiyası ilə əlaqələr qurub Türkiyəyə qarşı birgə müba-rizə aparmaq meyllərinin yarandığı şəraitdə Seymin müsəlman fraksiyası Cənubi Qafqazın müstə-qilliyini tələb edirdi. Bu məsələnin reallaşması üçün Seymin digər fraksiyalarının mövqeyinə təsir etmək məqsədilə M.Ə.Rəsulzadə Trabzon danışıqlarına tərəfdar olan menşeviklərdən istifadə et-məyi lazım bilirdi (10: 65).

Batumda Osmanlı dövləti ilə yeni sülh danışıqlarında iştirak edəcək Cənubi Qafqaz nüma-yəndəliyinin üzvlərindən biri M.Ə.Rəsulzadə olmuşdur. O, M.H.Hacınski ilə birlikdə əsas tərkibdə Azərbaycanı təmsil edirdi. Batum danışıqlarında getdikcə artan gərginlik və ziddiyyətlər Cənubi Qafqaz Federasiyasının parçalanması ilə nəticələndi. Tiflisdə Cənubi Qafqazla bağlı taleyüklü də-yişikliklər baş verdi. Gürcüstan istiqlaliyyətini bəyan etdikdən sonra Seymin bütün azərbaycanlı üzvlərinin yığıncağı özünü Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdi. M.Ə.Rəsulzadə gizli səsvermə nəticəsində qiyabi olaraq Milli Şuranın sədri seçildi.

Yüksək bir statusda fəaliyyət göstərmiş, «Azərbaycan dövlətçiliyində möhtəşəm tarixi rol oynamış Azərbaycan Milli Şurası»nın (Şəfi bəy Rüstəmbəyli) sədri sonadək Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Azərbaycan Parlamentinin ilk iclasını da M.Ə.Rəsulzadə «Şurayi-Milli rəi-si» səlahiyyətində açıq elan etmişdir. Tarixi sənədlər M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyə-tinin ilk dövlət başçısı olduğunun tarixi-hüquqi əsasını təsbit etmişdir.

Azərbaycan dövlətçiliyi 1918-ci ilin iyununda Gəncədə məhv olma təhlükəsi altında qalan-da M.Ə.Rəsulzadənin çevik, cəsarətli mövqeyi həlledici rol oynadı. Azərbaycan dövlətçiliyini par-tiyalar fövqünə qoyaraq özünün sədri olduğu dövlət hakimiyyət orqanını-Milli Şuranı buraxmağa, səlahiyyətlərini şərtlərlə hökumətə verməyə razı oldu. Bu addımı «demokratiyanın geri çəkilməsi və mürtəce qüvvələrin uğuru» adlandıran Rəsulzadənin Milli Şuranın buraxılmasının səhəri günü, İstanbul konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinin sədri kimi Türkiyəyə yola düşməsi tarixşünaslıqda birmənalı

qiymətləndirilmir. Sırf diplomatik missiya kimi səciyyə-ləndirilən bu səfər həm də Gəncədə yaranmış gərgin vəziyyətin yumşaldılması tədbirlərindən biri kimi də qiymətləndirilir (8: 216-217).

Milli Şura fəaliyyətini dayandırdığı gün, İstanbulda keçirilən Sülh konfransında iştirak et-mək üçün Azərbaycan nümayəndə heyətinə Azərbaycan hökuməti tərəfindən verilmiş etimadna-mədə yazıldığı tək – «Azərbaycan Məclisi-Millisi rəisi Rəsulzadə Məmmədəmin bəy Əfəndi təh-di-rəyasətində...» statusunda İstanbula yola düşdüyü kimi, 1918-ci ilin noyabrında oradan qayıdan günlərdə hökumət başçısı F.Xoyski M.Ə.Rəsulzadəyə müraciət edərək Milli Şuranın işinin bərpa edilməsini lazım bilmişdir (7: 14-23). Faktiki olaraq Milli Şuranın fəaliyyətsiz qaldığı dövr (1918, iyun-noyabr) M.Ə.Rəsulzadənin Azərbaycanda olmadığı müddətdir. Fərdi siyasi motivlə əlaqələndirilən bu səfər sırf praktiki məna ilə əsaslandırıla bilər. Belə ki, artıq Batum konfransın-da həlledici söz sahibi olmuş 2 azərbaycanlı nümayəndədən biri kimi müəyyən diplomatik təcrü-bəyə malik M.Ə.Rəsulzadə 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhu-riyyəti arasında dostluq müqaviləsini, Bakı-Batum neft kəmərinin istismarına, Cənubi Qafqaz də-miryol xətlərinə dair sazişləri imzalamışdır (6: 14). Bu baxımdan Azərbaycan hökumətinin 1918-ci il 18 iyun tarixli qərarı, İstanbul beynəlxalq konfransına göndərilən nümayəndə heyətinə M.Ə.Rəsulzadənin sədr təyin edilməsi təbii, əsaslı, məntiqi qəbul edilə bilər (6: 25-26).

M.Ə.Rəsulzadənin başçılıq etdiyi 7 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti iyunun 24-də İstanbula gələrək fəaliyyətə başladı. Azərbaycan Xalq Cümhuriyyətinin ilk rəsmi diploma-tik nümayəndəliyinə beynəlxalq konfransın bütün iştirakçıları ilə müxtəlif səciyyəli müqavilələr bağlamaq, yalnız Osmanlı dövləti və Dağlılar Respublikası ilə hər cür gizli sazişlər imzalamaq sə-lahiyyətləri verilmişdi (13: 44). Nümayəndəliyin fəaliyyəti konkret göstəriş çərçivəsində məh-dudlaşmamışdır. Əksinə, M.Ə.Rəsulzadə, 1918-ci il iyulun 19-da İstanbuldan M.H.Hacınskiyə göndərdiyi məlumatda Azərbaycan dövlətinin xarici siyasət kursunu müəyyənləşdirəcək informa-siyalar (xüsusən Bakı nefti ətrafında) verməklə yanaşı AXC hökumətini ən vacib tədbirlər görmə-yə istiqamətləndirmişdir. Ordu yaradılması işinin diqqət mərkəzində durduğunu, xüsusi hərbi na-zirliyin təsis edilməsinin əhəmiyyətini vurğulamaqla yanaşı Şimali Qafqaz hökuməti ilə əlaqələr qurmağı vacib saymışdır. Rəsulzadə İstiqlal bəyannaməsinin, bu barədə hökumətlərə göndərilən teleqramın surətlərini, Borçalı və Qarayazı bölgələri ilə bağlı sənədləri, Qafqazın xəritəsini gön-dərməyi tapşırmış, özü də bir sıra sənəd və materialları məktubla birgə yola salmışdı. Azərbay-canda işləmək üçün müəllimlər axtarmaq, kitab tədarükü, maliyyə və xarici işlər üzrə müşavirlər tapmaq da Rəsulzadənin

İstanbul səfərindəki fəaliyyətinə daxil idi. Türkiyədəki Qafqaz azərbay-canlıları, İran azərbaycanlıları ilə görüşləri də siyasi məzmundan xali deyildi (6: 33-41).
Azərbaycan hökuməti mütəmadi olaraq M.Ə.Rəsulzadə ilə əlaqə saxlayır, respublikanın ta-leyüklü məsələlərinin həlli yönündə tədbirlər görülürdü. Xarici işlər naziri M.H.Hacınski Gəncə-dən M.Ə.Rəsulzadəyə göndərdiyi məlumatında Gürcüstanla ərazi mübahisəsinin mahiyyətindən bəhs edərək qəti mövqe tutmağı tapşırırdısa, hökumət başçısı F.Xoyski 1918-ci il 31 iyul tarixli təcili teleqramında M.Ə.Rəsulzadəyə onun xahiş etdiyi, Azərbaycanın sərhədləri cızılmış xəritə-lərdən bir nüsxə göndərdiyini bildirir və hər vasitə ilə həmin sərhədləri müdafiə etmək vəzifəsi Rəsulzadənin üzərinə qoyulurdu (6: 41-43).

Azərbaycan dövlətinin qonşularla münasibətdə yaranmış kəskin problemlərinin (sərhədlər məsələsi, əmlak bölüşdürülməsi, pul nişanlarının buraxılması və s.) çözülməsi missiyası xarici aləmlə-dövlətlərlə təmas qurmaq imkanı və səlahiyyətinə malik, başlıcası isə yardımından fayda-lanmağın mümkün olduğu bir ölkədə olan M.Ə.Rəsulzadənin diplomatik fəaliyyətinin əsas məz-mununa çevrildi. Azərbaycan hökumətinin ən böyük qayğılarından biri pul nişanlarının çatışmaz-lığı idi. Vəziyyətin hədsiz təhlükəli olduğunu bildirən F.Xoyski bu məsələni ən qısa müddətdə re-allaşdırmağı, təcili olaraq borc kimi əvvəlcə 1 mln türk lirəsi, sonra isə yubanmadan hökumətin sifariş etdiyi bonları göndərməyi tapşırmışdı (6: 42-43).

1918-ci il sentyabrın ortalarınadək davamlı məşğul olunan maliyyə məsələsi barədə M.Ə.Rəsulzadə Azərbaycan hökumətinə göndərdiyi hər məktub-hesabatında məlumat vermişdir. Osmanlı hökuməti ilə maliyyə məsələlərinə dair aparılan danışıqlar 2 müqavilənin bağlanması ilə nəticələnmiş, Azərbaycanın maliyyə missiyasının üzvləri ilə yanaşı müqavilələri sülh nümayəndə heyətinin sədri kimi M.Ə.Rəsulzadə də imzalamışdır. M.Ə.Rəsulzadə İstanbulda tələbələr, müəl-lim və kitab məsələləri ilə məşğul olmaqla yanaşı, əsas diqqəti Almaniya-Türkiyə, Almaniya-Ru-siya münasibətlərini izləməyə, «Bakı» ətrafında formalaşan siyasi ab-havanı öyrənməyə yönəlt-mişdir. Onun mütəmadi görüşdüyü dövlət rəsmiləri Tələt paşa və Ənvər paşa olmuş, alman səfiri Bernsdorfla söhbətlərində Almaniyanın Bakı ilə bağlı mövqeyinə aydınlıq gətirməyə çalışmışdır. Diplomatik və qeyri-rəsmi görüşlərinin məzmunu, mətbuat səhifələrində beynəlxalq aləmdə əhə-miyyət kəsb edən hadisələri əks etdirən materiallar haqqında Azərbaycan hökumətinə məlumatlar göndərmişdir. Rəsulzadənin «Bakı məsələsi»ndə gəldiyi qənaət və hökumətə tövsiyəsi qəti idi: «Nəyin bahasına olursa-olsun Bakı tezliklə tutulmalıdır. Biz hamını baş vermiş fakt qarşısında qoymalıyıq. Bakıya doğru hərəkət mütləq Azərbaycan naminə olmalıdır, onu Azərbaycan höku-məti tutmalıdır» (6: 50). Məsələnin getdikcə qəlizləşməsi Azərbaycan hökumətini təlaşlandırır-dı. F.Xoyski

M.Ə.Rəsulzadəyə göndərdiyi teleqramda (23 avqust 1918-ci il) yazırdı ki, Bakı mə-sələsinin İstanbulda ən təcili həllinə nail olmaq üçün bütün səylərdən istifadə etmək lazımdır. Hərbi əməliyyatları davam etdirməklə yanaşı, diplomatik fəaliyyəti gücləndirmək effektli nəticə əldə etməyin ənənəvi yolu sayılsa da M.Ə.Rəsulzadə Tələt paşa və Bernsdorfla növbəti görüşlərindən sonra sentyabrın 6-da M.H.Hacınskiyə məlumatında Bakı məsələsinin yeganə həlli yolunu göstərirdi: «Bakı məsələsi yalnız qüvvədən asılıdır. Əgər Bakı alınmasa hər şey bitdi. Əlvida, Azərbaycan. Hətta alındıqdan sonra belə biz çoxlu diplomatik çətinliklərlə üzləşməli olacağıq. Bunları {qarşıdakı vəzifələri} yerinə yetirmək üçün biz əvvəlcə ordu yaratmalıyıq» (6: 69). Azərbaycan hökuməti bu yöndə fəaliyyətini səfərbər etdiyi kimi, M.Ə.Rəsulzadə də hərbi işin təşkili, Azərbaycana qonşularının iddia etdiyi ərazilər haqqında Osmanlı rəsmiləri ilə danışıqlarını davam etdirmiş, xüsusən Bakı məsələsində çevik və prinsipial mövqe tutmuşdur. Vaxtı itir-məmək üçün, hökumətdən xüsusi səlahiyyətlər verilməsini gözləmədən sentyabrın 12-də Almani-yanın Osmanlı dövlətindəki səlahiyyətli nümayəndəsi qraf Valdburqa Azərbaycan hökuməti adın-dan nota imzalayaraq təqdim etmişdir. Bakının Azərbaycan ərazisində, Azərbaycan xalqının tari-xində tutduğu yerdən, mədəni, iqtisadi, siyasi, milli bağlılıq tarixindən bəhs edərək, gətirdiyi konkret faktlara söykənərək fikrini əsaslandırmış, Rusiyanın Bakıya iddiasının əsassızlığını, həm də yeni rus hökumətinin bəyan etdiyi prinsiplər baxımından Almaniya nümayəndəsinin diqqətinə çatdırmışdır ( 6: 72-75).

«Almaniya imperiyası ilə Böyük Rusiya arasında bağlanmış sazişin Bakıya aid maddəsi-nə» etiraz olaraq verilmiş nota barəsində Azərbaycan xarici işlər nazirliyini məlumatlandıran M.Ə.Rəsulzadə lazım olarsa hökumətin notaya uyğun hərəkət etməyini məqsədə müvafiq saymış-dır. Diplomatiyada qarşı tərəfin maraq dairəsindən çıxış etməyin faydasını bilən peşəkar kimi Rə-sulzadə neft amilini, sazişin «Bakı məsələsində» Almaniyanı təmin edəcək şərti nəinki diqqətsiz qoymamış, əksinə, «Almaniya kimi nəhəng sənaye dövlətinin ticari və iqtisadi maraqlarını» Azər-baycan hökumətinin nəzərə alacağını vurğulamışdır. Rəsulzadə təkcə bu nota ilə kifayətlənməmiş-dir. Osmanlı dövlətindəki Almaniya səfirliyinə etiraz notası təqdim edilmiş, notanın surəti Os-manlı dövlətinin xarici işlər nazirliyinə, Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə, həmçi-nin bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə verilmişdir. İstanbuldakı nümayəndəlik adın-dan etiraz edən M.Ə.Rəsulzadə M.H.Hacınskiyə məktubunda «Hökumət də ayrıca olaraq etiraz et-məlidir və {mütləq} hay-küy qaldırmaq lazımdır» yazdığı kimi bir daha bildirirdi: «Bilməlisiniz ki, bu xəyanətkarlığa ən böyük və layiqli cavab Bakının alınmasıdır» (6: 75).

Bakının alınması barədə rəsmi şəkildə Azərbaycan hökumətindən deyil, Ənvər paşa vasitə-silə xəbər tutan M.Ə.Rəsulzadə növbəti məlumatında Alman bloku dövlətlərindəki vəziyyəti, Ru-siya ilə münasibəti təhlil edərək getdikcə daha ciddi şəkil alan siyasi şəraitdə fəaliyyət kursunu müəyyənləşdirmişdi: «Əgər Azərbaycan hökuməti hazırda müstəqil çevik siyasət yeritsə, zənnim-cə, bu bizim xeyrimizə olacaqdır» (6: 81).

Cənubi Qafqaz respublikalarının sərhədlərinin müəyyənləşdirilməsi Rəsulzadənin İstan-bulda diqqət verdiyi məsələlərdən olmuşdur. Ermənilər Ənvər paşaya təqdim etdiyi layihə və xəri-təyə görə Türkiyə və Azərbaycan ərazilərindən, həmçinin gürcülərdən bir sıra torpaqlar tələb edir-dilər. Bu məsələyə dair Ənvər paşa ilə söhbətlərində Rəsulzadə Osmanlı dövlətinin ümumi maraq-larına zidd olmasa da Azərbaycan dövlətinin mənafeyi əleyhinə olan layihələrə qarşı çıxmış və Ənvər paşa da ən münasib saydığı yolları məsləhət görərək Nuru paşaya müvafiq hərbi göstərişlər vermişdi.

Gənc Azərbaycan dövlətinin demokratik imici faktoruna biganə olmayan M.Ə.Rəsulzadə İstanbuldan göndərdiyi məlumatlarında başlıca problemlər sırasında bu məsələdən də bəhs etmiş-dir. Azərbaycan hökuməti tərəfindən sol qüvvələrin təqib edilməsi haqqında xəbərlərin yayılması Rəsulzadəni narahat etmiş, «gənc Azərbaycan»ın azadlıqsevər, siyasi baxışlara dözümlü olduğunu təsdiqə yetirməyi hökumətin nəzərinə çatdırmış, yeni qurulan dövlətin vəziyyətini daim diqqətdə saxlamağı ciddi tərzdə tövsiyə etmişdir (6: 51). Dövlətçilik prinsiplərinə sadiq hökumət başçısı Fətəli xan Xoyski də 1918-ci ilin avqustunda M.Ə.Rəsulzadəyə göndərdiyi məktublarında digər ağrılı problemə toxunurdu. Nuru paşanın, daxili işlərə getdikcə daha artıq qarışmasına narazılıqla Fətəli xan Rəsulzadəyə yazırdı ki, Türkiyə ilə qarşılıqlı münasibətlərə təcili, dəqiq və qəti aydın-lıq gətirsin: «İstanbulun {yeritdiyi} siyasətini ehtiyatla aydınlaşdırmaq və müstəqilliyimizin qo-runması üçün lazımi tədbirlər görmək gərəkdir.» Yenicə yaranmış dövlətdə hökumətin fəaliyyət göstərdiyi fövqəladə çətin bir şəraitdə «ikihakimiyyətli və çoxhakimiyyətli idarəçilik» məhvedici amil kimi qətiyyən yolverilməz sayılırdı. M.Ə.Rəsulzadənin Türkiyə dövlət rəsmiləri ilə mütəma-di görüşləri məhz qarşılıqlı münasibətlərin nizamlanması, bərabər səviyyəli məcraya yönəldilməsi baxımından təqdirəlayiq sayıla bilər. M.Ə.Rəsulzadə Azərbaycanın istiqlaliyyəti haqqında höku-mət teleqramının surətini bütün konsulluqlara təqdim etməklə yanaşı Azərbaycanın müstəqil döv-lət kimi mövcudiyyətini göstərmək üçün rəsmi dövlət qəzetinin nüsxəsini, qoşunların, bayrağın, dövlət adamlarının foto şəkillərini, milli ədəbiyyatın nümunələrini, Bakı şəhərinin görünüşlərini tezliklə göndərməyi xahiş edirdi. Azərbaycanın hərbi işinin təşkili üçün lazım olan hər şeyi Türki-yədən ürəklə, cəsarətlə tələb etməyə çağırırdı. «Azərbaycanın

müstəqil dövlət olduğunu nə qədər çox göstərə bilsəz, o qədər yaxşı olar» sifarişi ilə Rəsulzadə konfransın artıq baş tutmayacağına əminliklə, həm də maliyyə məsrəfi baxımından geniş nümayəndə heyətinin İstanbulda qalmasını mənasız sayaraq, bir nəfərin nümayəndəlik qismində fəaliyyətini kafi bilmiş, yubanmadan pay-taxtlarda iş aparmağa üstünlük vermişdir. Azərbaycanın İstiqlal Bəyannaməsinin İstanbuldakı konsulluqlara təqdimatı belə hadisəsiz keçməmişdir: İran konsulluğu Azərbaycan nümayəndəliyi-nin göndərdiyi bütün kağızları bir paketə qoyaraq geri göndərmiş və ayrıca bir kağızda yazaraq bildirmişdi ki, Azərbaycan adı altında müstəqil dövlət tanımır. Qacarlar sülaləsindən olan konsul-la köhnə tanışlığına baxmayaraq bu «kobud hərəkət»inə görə Rəsulzadə onunla görüşmək belə is-təməmişdir. Bununla belə İranla münasibəti diqqətdə saxlayaraq oradan olan rəsmi və qeyri-rəsmi şəxslərlə görüşləri olmuşdur.

M.Ə.Rəsulzadənin İstanbuldakı diplomatik fəaliyyətinin məzmunundan Azərbaycan höku-mətinin operativ faydalanmaq imkanının texniki məhdudluğu təbii ki, əlaqələrin işgüzarlıq effek-tinə təsirsiz qalmamışdır. Üç ay ərzində M.Ə.Rəsulzadə Azərbaycan hökumətindən cəmi üç paket almış, çoxsaylı paketlər yollasa da hökumət onlardan vaxtında xəbər tutmamışdır. Rabitə əlaqələ-rinin bu səviyyədə olmağından təəssüflənən Rəsulzadə Azərbaycan hökumətinə vaxtında və düzgün məlumatlanması üçün məsləhət görürdü ki, mütləq Batumda bir nəfər məmur saxlasın.

